ƏŞİR BƏŞİR oğlu

# XATİRƏYƏ DÖNƏN GÜNLƏR

(sənədlər və xatirələr)

BAKI - 2005

Redaktoru:

***fəlsəfə doktoru* Bəhram Salman oğlu Avılov**

ƏŞİR BƏŞİR oğlu FƏTƏLİYEV

# «Xatirəyə dönən günlər»

Bakı-2005, səh. 225

***Bu kitabı həyatdan cavan getmiş oğlum Qabilin əziz xatirəsinə həsr edirəm.***

*Müəllifin Qubadlı haqqında ilk qələm təcürbəsi bu kitabda son illərə qədər yaşadığımız Qubadlı və Aşağı Mollu haqqında xatirələri öz əksini tapmışdır. Digər tərəfdən bu kitabı daha çox gələcək nəsillərə Vətənə sevgini, elə məhəbbəti çatdırmaq üçündür.*

B $\frac{4702000000-56}{N-098-2005}$ ***Qrifli nəşr***

***©BƏŞİR oğlu, 2005***

# ƏŞİR BƏŞİR oğlu
# (FƏTƏLİYEV ƏŞİR BƏŞİR oğlu)

*ƏŞİR BƏŞİR oğlu (FƏTƏLİYEV ƏŞİR BƏŞİR oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub.*

*1969-cu ildə V.İ.Lenin adına APİ-nin ibtidai təhsil pedaqogikası və metodikası fakültəsini bitirib. 36 ildir ki, müəllim işləyir.*

# MÜƏLLİFDƏN

Son zamanlar Azərbaycanın dilbər guşələrindən biri olan Qubadlı haqqında bir sıra kitablar, monoqrafiyalar, jurnal və qəzet məqalələri nəşr olunub, oxuculara təqdim olunmuşdur. Bu nəşrlər arasında heç bir fərq qoymadan hamısını qiymətli mənbə hesab edir və onların müəlliflərinə öz təşəkkürümüzü bildiririk. Bu nəşrlərdən bir neçəsinin adını çəkməyimizi özümüzə borc bildik. Bunlardan Almaz Əhmədovanın 2001-ci ildə "Qanun" nəşriyyatı tərəfindən buraxılmış "Biz Xallavarda yaşayırdıq", şair, nasir və jurnalist Cahangir Taryelin 1998-ci ildə "Günəş" nəşriyyatı tərəfindən buraxılmış "Vətən oğul istəyəndə", şair və jurnalist Elburus Şahmarın 1995-ci ildə "Səda" nəşriyyatında çap olunmuş "Söz-söhbətli Bərgüşadım, Həkərim", 1994-cü ildə çap olunmuş "Çiçək məhəbbətim Qubadlı", 2004-cü ildə "Nurlan" nəşriyyatında çap olunmuş "Ocaq yanğısı", şair Əliağa Aslanın "Kərəm ahı", "Ayrılıqlar içində", "Mən dünyaya qərib gəldim", "Tanrı sevgisi", Nəsib Nikbinin "Həkərim, Bərgüşadım yoxdursa", Yaşar Fətiyevin "Zaman" nəşriyyatında çap olunmuş "Qubadlı, görüşünə gəlmişəm", görkəmli dövlət xadimi Kamran Hüseynovun "Quruculuğa həsr olunmuş ömür", Ziyəddin Sultanovun "Qarabağ gündəliyi", "Xocalı faciəsi", "Burdan bir atlı keçdi", Mirzə Mehdinin "Düşüncələr" və s.

kitablarını göstərmək olar. Mən isə ilk qələm təcrübəm olan bu kitabda ötən günlər haqqında xatirələrimi, ata yurdum və ana vətənim haqqında düşüncələrimi verməyə çalışmışam. İlk qələm təcrübəm olduğu üçün oxuculardan nöqsanlarımı bağışlamaqlarını xahiş edirəm.

# Döğma yurdum Qubadlı

Ata yurdum, doğma vətənim Qubadlı haqqında söz deməyə başlayanda ürəyimdən nisgil bir gizilti keçdi, kövrəldim, göz yaşlarım gilələnib qarşımdakı vərəqləri islatdı, ürəyim sinəmdə yanmağa başladı. Özümə təsəlli bildiyim isə hələlik qələmə aldığım bu sətirlər oldu.

Vətənim Azərbaycanın bütün bölgələri, bütün guşələri mənim üçün əzizdir. Bizim hər birimiz bir səyyah olub dünyanı gəzsək, ölkələr keçsək axırda belə bir qərara gələrik ki, Azərbaycan bütün dünyanın gözüdür. Dünyada onun təbiəti, dağları, bulaqları, çayları ilə heç bir ölkə müqayisəyə girə bilməz. Bu mənim qəti qərarımdır və şübhəm yoxdur ki, vətənini, elini-obasını sevən hər bir azərbaycanlının da fikri belədir. Yenə də səyyah olub ölkələr dolaşsaq Azərbaycan xalqı kimi mehriban, qonaqpərvər, ürəyiaçıq bir xalqa rast gəlmərik. Böyük yaradan bu xalqdan yaxşı nə varsa, heç bir şeyi əsirgəməyib. Bütün bunlara görə doğma yurdum, Vətənim Azərbaycanla fəxr edirəm.

Azərbaycanın bir parçası olan Qubadlı mənim anadan olub, boya-başa çatdığım gözəl guşələrdən biri hesab olunur. Tarixi mənbələrin verdiyi məlumata görə Qubadlı əhalisinin keçmiş nəsli XVI əsrin sonunda Azərbaycana gəlmiş səlcuq türklərinin nəslindəndir.

Qubadlı Azərbaycan SSRİ-nin tərkibində inzibati rayon kimi 1933-cü ildə təşkil olunmuşdur. 1963-cü ildə isə ləğv edilərək ərazisi

Zəngilan rayonu ilə birləşdirilmişdir. Bir il sonra, yəni 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Səksəninci illərin məlumatına görə Qubadlı rayonunun əhalisi 30 min, sahəsi isə 802 min kvadrat kilometr olmuşdur. Yenə də səksəninci illərin məlumatına görə Qubadlı rayonunun ərazisində 94 kənd mövcud olmuşdur.

Qubadlı dağlıq rayonudur. Onun ərazisində yerləşən hündürlüyü 2010 m Topağac, 1316 m hündürlüyündə Pirdağ, Bərgüşad silsiləsinin şimalında hündürlüyü 1277 m Qartız, Qarabağ yaylasının cənub-şərq qurtaracağı olan və Bazarçayla Həkəri çayı arasında yerləşən heyranedici Yazı düzü uzanır.

Bəzən düşünürəm. Görəsən o yerlərin halı necədir? Görəsən Həkəri çayı yenə də axırmı? Görəsən Topağac, Pirdağ, Qartız dağlarının vüqarı sönməyib ki?! Görəsən çöllərin gülü-çiçəyi yaz gələndə açırmı? Bu görəsənlər beynimi didib-parçalayır. Mənə belə gəlir ki, bu yerlər də bizim kimi qəm içindədir, dağların, çöllərin gülü-çiçəyi açmır, günəşi də həmişəki istisini bu yerlərə paylamır, ay da gecələr çıxmır. Biz onlar üçün darıxdığımız kimi, onlar da bzim üçün darıxır, səbirsizliklə yolumuzu gözləyirlər. Gözləyin, elim-obam. Məndə belə bir yəqinlik yaranıb ki, biz mütləq o yerlərə qayıdacağıq, o yerləri düşmən tapdağından azad edəcəyik. Lakin qüssəm odur ki, görəsən bu qayıdış mənim kimi yaşlı Qubadlılara qismət olacaqmı? Allahdan o yerlərə qayıdacağım il və ay qədər ömür istəyirəm. Artıq heç bir şey istəmirəm.

Çöllərə atılmış daş parçasının
Ömrü saya gəlmir, yaşı bilinmir
Bu dünyanı qurub-yaradan insan
Bu sirrin önündə bəs niyə dinmir?

Gileyim yaranmışların əşrəfi olan insan ömrünün azlığındandır. İşğal altında olan Qubadlıda qədim tarixə malik bir sıra memarlıq abidələri vardır. Bunların sırasında dördüncü əsrə aid Gavur dərəsindəki mağara-ibadətgahı, Muradxanlıdakı və beşinci əsrə aid «Qalalı» qalası, XIV əsrin yadigarı Dəmirçilər kəndindəki iki türbə və məscid, yenə də on dördüncü əsrə məxsus Yazı düzündəki Cavanşir türbəsi, Əliquluuşağı kəndindəki mağara-ibadətgah, Göy qala, Laləzər və Hacıbədəl körpüləri xalqımızın qəhrəmanlıq tarixindən xəbər verən abidələrdir. Bütün bunlar Qubadlını görənlərin, orada doğulub, boya-başa çatanların hamısının ürəyini sızıldadır, yuxularını ərşə çəkir.

Qubadlıdan didərgin düşənlər öz vətənlərinin necə və hansı yollarla əldən getdiyini çox yaxşı bilirlər. Bəs, oradan kənarda doğulmuşlar necə? Biz onlara necə cavab verməliyik? Axı, onların ata və anaları Qubadlılardır. Tarix bizi bənzəri çox az təsadüf edilən bir hadisəylə qarşılaşdırıb. Axırını gözləyək.

Bir də ki, təkcə Vətən dərdi olsaydı nə vardı? Ermənilər işğal etdikləri bütün Azərbaycan torpaqlarını, o cümlədən qədim tarixə malik

Qubadlını da özlərininki hesab edir. Guya bu yerlər onların ata-baba torpaqlarıdır, biz bu yerləri onların əlindən almışıq. Bu məxluqlar nə qədər həyasız imişlər?! Bunun üçün hər cür iftira və yalandan istifadə etməyi bacaran ermənilər belə bir uydurma irəli sürürlər ki, guya indi Azərbaycanda yaşayan azəri türkləri gəlmədirlər. Özü də bu uydurmalar bu günün işi olmayıb, onların on illərlə bundan əvvəl qaldırdıqları hay-küylərdir. Ermənilər 50-ci illərdən başlayaraq daha da həyasızlaşaraq «Böyük Ermənistan» ideyasını irəli sürmüş və bu barədə cild-cild kitablar buraxmağa başlamışlar. Onların son zamanlar tərtib etdikləri qondarma xəritələr indi bütün dünyanı dolaşmaqdadır.

Sual olunur: bu torpaqlar sizinki olubsa, onda nə üçün iddia etdiyiniz Azərbaycan torpaqları ərazisində lap qədimdən bu günə qədər erməni adı ilə bağlı bir kənd, bir dağ, bir çay adlarına rast gəlinmir. Hələ Azərbaycanı demirəm, Sizin indi yaşadığınız ərazidə də erməni mənşəli bir yer adına rast gəlinmir. Biz danışmaq əvəzinə, siz danışırsınız.

ABŞ tarixçiləri Makkarti qardaşları Azərnəşr tərəfindən 1996-cı ildə «Turki i arməni» adlı bir kitab nəşr etdiriblər. Bu kitabda erməni-azərbaycanlı həqiqətlərinə dair bir sıra faktları açıqlayıblar. Görün bu yad ölkənin tarixçiləri nə yazır: «Ermənistan respublikasının indi yerləşdiyi ərazi, ermənilərin deyil, azərbaycanlıların (türklərin) olub. Elə

bu səbəbdən də Ermənistan ərazisində olan coğrafi adların əksəriyyəti azərbaycanlılara məxsusdur» və s.

Onda belə bir sual meydana çıxır ki, bəs ermənilər Azərbaycan torpaqlarında nə vaxtdan peyda olublar? Sualın cavabı hamıya, o cümlədən başqa ölkələrə də gün kimi aydındır. Belə ki, 1828-ci il «Türkmənçay müqaviləsi» ilə Azərbaycan torpaqları Rusiya ilə İran arasında bölüşdürülərkən İran və Türkiyə ərazisində yaşayan ermənilər Azərbaycan torpaqlarına köçürülməyə başlamışdır. Əlbəttə, Rusiyanın köməyi və himayəsi ilə. Bu tarixdir və son dövrlərə qədər ermənilərin özləri də bu həqiqəti təsdiq edirdilər.

Lakin məsələnin başqa bir cəhəti vardır ki, bunun üçün biz, yəni tarixçilərimiz, bir sıra dövlət başçılarımız çox günahkardırlar. Tarixçilərimiz susmuş, vaxtında ermənilərə cavab verməmiş , Azərbaycana rəhbərlik edənlərin bəziləri isə ermənilər torpaqlarımıza qarış-qarış yiyələnəndə «Allah xeyir versin» – demişlər.

Getdikcə bir çox Azərbaycan əraziləri, o cümlədən vaxtilə Qubadlının da daxil olduğu Zəngəzur torpaqları ermənilərin məskəninə çevrilmişdi. Elə bil kə, çətini bu əclafların ayaqlarının bu yerlərə açılması idi. Sonra addım-addım yerlərini möhkəmləndirməyə başladılar.

1948-50-ci illərdə respublikamızın ərazisinə ermənilərin növbəti axını başlandı. Vaxtilə Azərbaycan şəhəri olan İrəvan, Gəncə, Dağlıq Qarabağ və digər ərazilərimizdə ermənilərin sayı artdı.

Azərbaycanlıların açıqürəkliliyindən, qonaqpərvərliyindən istifadə edib, yaxşı evlərə və vəzifələrə yiyələndilər. Qəlbimizi oğurlayıb qızlarını oğlanlarımıza ərə verdilər.

Ermənistan deyilən məkanda isə azərbaycanlıların sayı getdikcə, ilbəil azalmağa başladı. Bir də gözümüzü açdıq ki, ata-baba yurdumuz Qərbi Azərbaycanda bir nəfər azərbaycanlı qalmayıb. İndi isə dünyanın beyninə belə bir fikir aşılayırlar ki, Azərbaycanın böyük bir hissəsi bizimdir. Nə isə bu əclafların «niyyətlərini» sadalamaqla qurtaran deyil.

Erməni əclaflarının hərəkətlərini bir daha yada salmaqda məqsədim ondan ibarətdir ki, bu günkü faciələrimizin əsas səbəbi onlardır. Əhalimizin qaçqın və köçkün vəziyyətinə düşməsinin, ağır vəziyyətdə yaşamasının ilk səbəbi onların pis niyyətləridir.

Lakin bu işdə sapı özümüzdən olan baltaların da rolu çoxdur. Hakimiyyət uğrunda içərimizdə gedən mübarizə, ayrı-ayrı qruplaşmaların ümumi işə vurduğu zərbələr, respublikaya rəhbərlik etmiş dırnaqarası liderlərin hadisələri vaxtında qiymətləndirə bilməməsi və çox zaman isə xəyanəti bizim bu günə düşməyimizdə az rol oynamayıb.

Bütün bunlardan sonra nə qədər qayğı da görsək . günümüz xoş da keçsə Vətən həsrəti, doğma yurd nisgili hər gün bizi sıxır və qayıtmaq arzusu ilə yaşayırıq. Arzumuz isə hələlik ürəyimizdə qalır. Qaçqın və köçkün düşməyimizdən 15 ilə yaxın vaxt keçir. İki-üç ildən sonra

Qubadlıdan kənar doğulan Qubadlı övladları hərbi qulluğa gedəcəklər. Vətəndə doğulmayan və ata-ana yurdu Vətənini görməyən bu igidlər bir məqsədlə düşmən üzərinə atılmalıdırlar – Vətəni xilas etmək.

İş çox ləngiyir. On beş il… Yaşlı nəslə məxsus bizlər o zaman gümanımıza da gətirməzdik ki, bu qədər qaçqın və köçkün vəziyyətdə yaşayacağıq. Lakin belə də oldu.

1967-ci ildə İsrail Fələstinlilərin müqəddəs torpaqlarını işğal edəndə mən və mənim indiki yaşıdlarım çox cavan idi. Və o vaxt biz Fələstinliləri qınayırdıq ki, bu işə necə dözürlər. O vaxtdan 40 il keçir, yenə də dözürlər. Məni qorxuya salan odur ki, biz də onların gününə düşək. Hələ burasını demirəm ki, onlar hər gün vuruşurlar, hər gün qan tökürlər. Biz isə oturub gözləyirik ki, ermənilər nə vaxtsa peşiman olacaq və sülh yolu ilə torpaqlarımızı geri qaytaracaqlar. Açığını deyim ki, mənim buna inamım yoxdur. Bu işdə bir yol var, hamımız ayağa qalxıb, bir yumruğa dönüb düşmənin başına zərbə endirməliyik. Biədəb də olsa deyəcəyəm. Azərbaycanlıların sınaqdan çıxmış bir məsəli var: «Pazı pazla çıxararlar».

Nə isə… Erməni əclaflarının başımıza gətirdikləri müsibətlər məni Qubadlı və ana Vətənim Mollu haqqında düşüncələrimdən ayırdı. Bu sətirləri yazarkən yağış və külək səsinə pəncərəmdən çölə baxdım , Vətənimin payız günləri yadıma düşdü. İlin ən qəmgin çağı olan payızda güllər-çiçəklər solur, insan yaz və yay günlərini, torpağın deyib-gülən

çağlarını yada salır. Payız təbiətə bir üşütmə gətirdiyi kimi, insanların həyatına, yaşayış tərzinə də bir üşütmə gətirir.

Beynimdə qəribə bir oxşarlıq yarandı: həm Vətənimin, həm də ömrümün payızında bir oxşarlıq duydum. Payızda Vətənin üzərindən əsən sazaq ömrümə də əsir. Həm Vətənimin, həm də ömrümün yaz günləri yadıma düşdü.

Xalq şairi Bəxtiyar Vahabzadənin aşağıdakı misralarını xatırladım:

Əsir payız küləyi
Gecə uzun, gün gödək
Ağacdan yarpaq düşür
Bir ömrün günləri tək.

* * *

Uçur durna qatarı
Bir də geri dönəcək
Ötən günlər dönəydi
Durna qatarları tək.

Təbiidir ki, insan ömrünün payız günləri də olur. Təkcə payız günlərinin nisgili olsaydı, nə vardı ki. Mən ömrümün payızında övlad dərdi ilə qarşılaşdım. Bu dərd ömrümün payız günlərinə bir ağırlıq gətirdi. Sona doğru gedən həyatımın günlərinə zəhər qatıldı. İndi mən

dərd içində çapalayıram. Ömrüm tufana düşmüş və yolunu azmış bir gəmiyə bənzəyir. Allah heç kəsə övlad dərdi göstərməsin. Qabilin faciəli ölümü ömrün payız günlərini yaşayan tək mənim yox, bütün ailəmiz, onun qardaşlarının, bacısının, həyat yoldaşının, iki körpə qızının həyatına dərd və kədər gətirdi.

Bəzən dərd-qəm içində keçirdiyim günləri xatırlayıram və bir atalar sözü yadıma düşür: "Əvvəlin gətirincə axırın gətirsin". Bu sözlərdə böyük hikmət var. Bəlkə bu məsəli ona görə deyiblər ki, insan ömrünün cavan vaxtında daha dözümlü olur, hər şeyə tab gətirir. Amma ömrün ahıl vaxtında buna dözmək çətin olur.

On ildən artıqdır ki, doğma Vətənim Qubadlıdan, onun dilbər guşəsi Molludan uzaq düşmüşəm. Sumqayıtda şəraitim nə qədər yaxşı olsa da, vətən torpağı üçün çox darıxıram. Əgər əvvəllər mən yaşda adamlara desəydilər köçün gedin şəhərdə yaşayın, biz bunu özümüzə təhqir hesab edərdik. İndi bizim camaat şəhərə o qədər öyrəşib ki, torpaqdan o qədər ayrı düşüb ki, qorxuram bu həyat tərzinə daha çox alışalar və Vətəni getdikcə yaddan çıxaralar. Doğrudur, mən yaşında olan insanlara bu fikri aşılamaq çətindir. Amma baxma, kənd həyatından uzaqlaşanlar arasında bunu az yadına salanlar da var.

Qorxum daha çox ondandır ki, Vətəndən kənarda doğulanlar Vətəni getdikcə unutsunlar. Ona görə də hər bir ailədə bu məsələyə xüsusi diqqət yetirilməlidir. Ata və analarının doğma Vətəni haqqında

onlarla söhbət aparılmalı, onların yad təsirlərin altına düşmələrinə imkan verilməməlidir. Özü də yeniyetmələrə bu hiss ermənilərə nifrət hissi ilə paralel aparılmalıdır.

Vətənin dağı-daşı, suyu və torpağı mənə dünyanın hər nemətindən əzizdir. Mən Qubadlı işğal olunanda belə düşünürdüm ki, uzaqbaşı bir-iki ilə geri qayıdarıq. Ağlıma da gəlməzdi ki, iş bu qədər uzanacaq. Bilsəydim belə olacaq ata və anamın, əzizlərimin uyuduğu torpaqdan bir ovuc götürərdim və onu qürbətdə ölərkən məzarımın üstünə səpdirərdim. Bu mənə böyük təsəlli olardı. Hələlik isə təsəlli almağa güman çox azdır.

Gümanım heç bir şeyə çatmasa da, doğma vətənim heç yaddan çıxmır. Çox qəribədir əvvəllər onun haqqında gündüzlər daha çox düşünürdüm. İndi yuxum ərşə çəkilib, gecələr də yuxumdan çıxmır. Büllur bulaq suyu dərin qaranlıqlardan günəş işığına, yaşıllığa çatmağa necə can atırsa, mən də Vətənimə getməyə elə can atıram. Dodaqlarım pıçıldayır, özüm öz pıçıltımı eşidirəm, mənə elə gəlir ki, yarğanlarda dağ çayı yenə nərildəyir. Mənim üçün çox çətindir. Kaş hamı mənim qədər səni sevəydi, vətən!

# QUBADLININ EL ADƏTLƏRI, MƏRASİM VƏ İNAM YERLƏRİ

Mən ana yurdum Qubadlının el adətləri dedikdə heç də onu bütövlükdə xalqımın el adətlərinə qarşı qoymaq fikrində deyiləm. Sadəcə olaraq boya-başa çatdığım kənddə körpəlikdən gördüklərim barədə və ürəyimdə xatirəyə çevrilmiş el adətlərimizin özünəməxsusluğu barədə danışmaq istəyirəm. Özü də bu xatirələr yada düşəndə çox darıxır və öz-özümə deyirəm: kaş nəvələrim də bunu görəydi, çünki bizim el adətləri, xüsusilə toy və bayram mərasimləri həm də tərbiyə məktəbi idi. Bəzən qohum və dostların şəhərdə keçirdikləri toy mərasimlərində iştirak edərkən nisgilim daha da çoxalır. Bu toylarda ağız deyəni qulaq eşitmir, başa düşmədiyin bir mənzərə ilə qarşılaşırsan. Amma di gəl şəhərdə yaşayanlardan soruşsan bəlkə də bizim toyları bəyənməzlər.

Toy mərasimi elçilikdən başlayardı. Elçiliyə elin-obanın ən hörmətli, nüfuzlu adamlarını aparardılar. Hər yetən adamı elçiliyə aparmazdılar. Özü də elçiliyə gedənlərin üzərinə böyük məsuliyyət düşdüyündən hər adam bu işə girişməzdi. Elçilər hansı qapıya getdiklərini, kimin oğlu və qızı üçün elçi olduqlarını tam dərk etdikdən sonra gedərdilər. Onlar ilk növbədə bu işin gələcəyini nəzərə alardılar. Tanımadıqları, bilmədikləri evə elçi getməzdilər. Bir sözlə, bu iş çox tədbirli yerinə yetirilərdi. Evinə elçi gələn adam ilk növbədə onun qapısına kimlərin gəldiyini qiymətləndirər və bu əsasda da onlara cavab

verərdilər. İndi isə bir də baxırsan ki, tanımadıqları, bilmədikləri bir adamın qapısına getdilər və qız almağa gəldiklərini bir kənara qoyub, başqa problemlərdən danışmağa başlayırlar. Odur ki, qız evi çox zaman elçilərin kimliyini bilmədiyi üçün razılıq vermir və ya da elçilik baş tutmur.

Bu işdə, necə deyərlər, ikinci mərhələ toyun keçirilməsi idi. Toylar oğlan və qızın həyatında uzun zaman yadda qalan bir hadisəyə çevrilərdi. Əvvəllər toy mərasimi bir neçə gün çəkərdi. Toylar ya qara zurna, ya da aşıqların iştirakı ilə keçirilərdi. Qara zurnanın səsi kəndi bürüyərdi, xəbəri olmayan da xəbər tutardı. Xüsusilə, kəndimizdə İlyas və Mustafanın zurnaçılar dəstəsinin keçirdiyi toylar kənd camaatının qəlbində uzun zaman yaşayardı. Onlar o qədər məharətlə zurna çalardılar ki, şaxtalı günlərdə onların zurnasının səsi qonşu kəndlərdə də eşidilərdi. Zurnaçılar çalanda yalnız rəqs edərdilər. Hamının diqqəti bu rəqslərə yönələrdi. Rəqslər xüsusi adamların iştirakı ilə keçirilərdi. İndiki kimi heç kəs hoppanıb ortaya düşməzdi. Ayrıca bir adam oynamaq istəyən adamın hansı havaya oynayacağını soruşar, onu çalğıçılara çatdırar və çalğıçılar havanı çalmağa başlayardılar. Bir sözlə, hər şeydə olduğu kimi, bu işdə də bir qayda-qanun vardı.

Sonra isə aşıqlar, necə deyərlər, dövran edərdilər. Bu, əsasən gecələr baş verərdi. Hamı bir nəfər kimi aşığa qulaq asardı. Əlavə səs-səmirə yol verilməzdi. Aşıqlar o qədər şirin saz çalar və şirin oxuyardı

ki, bir də görərdin ki, səhər açılıb. Hamı şad-xürrəm toy sahibini təbrik edib, oğlan və qıza xeyir-dua verib evlərinə dağılardılar.

Nə oyun zamanı, nə aşıq nağıl deyəndə adamların qabağında yemək olmazdı. Yeyib-içmək toy keçirilən yerlərdən kənar, ayrıca mağaralarda olardı. Bu, duz-çörəyə böyük hörmətdən irəli gəlirdi. Daha indiki kimi duz-çörək ortalıqda ola-ola ortalığa tullanıb oynamazdılar.

Toyun sonrakı mərhələsi qızın köçürülməsi olardı. Gəlini gətirmək üçün çalğıçıların müşayiəti ilə qız evinə gedər, bir neçə saat qız evində çalıb oynayardılar. Sonra isə hay-harayla qızı oğlan evinə gətirərdilər. Kəndin cavan qız və gəlinləri toyu olan qızın ətrafına yığılar, onu xeyir-dua ilə oğlan evinə qədər müşayiət edərdilər. Oğlan evinə çatanda çalıb oynamaq yenidən qızışar, gəlinin ayağının altına sındırmaq üçün qab atardılar, başına isə rəngarəng noğul səpərdilər. Uşaqlar biri-birini itələyə-itələyə yerdən noğul yığardılar. Gəlinə gəldiyi evin böyükləri xeyir-dua verər və onu təmtəraqla otuzdurardılar. Nəhayət, gəlinə cehiz verilərdi. Kim necə bacarırdısa, o cür də cehiz verərdi. Cehiz heç zaman yeni qohumlar arasında söz-söhbətə səbəb olmazdı. Cehiz əsasən yorğan-döşəkdən, qab-qacaqdan, bəzən isə inək və başqa iri buynuzlu heyvanlardan ibarət olardı. Bünövrəsi möhkəm qoyulan bu ailələrdə boşanma halları da olmazdı. İndi isə on ailədən beşində ya boşanma halları baş verir, ya da dedi-qodu baş alıb gedir.

Elin-obanın qarşıladığı bayramlar içərisində Novruz xüsusi yer tutardı. Bir qayda olaraq Novruza qabaqdan hazırlıq görülərdi. Bayrama təxminən bir ay qalmış uşaqlar yumurta döyüşdürər, hellən qoyar, torpağa basdırardılar. Çərşənbələr xüsusilə bayram əhval-ruhiyyəsi içərisində keçirilərdi. Bu çərşənbələrdə tonqal qalanar, müxtəlif oyunlar keçirilərdi. Axır çərşənbələr xüsusilə təmtəraqla keçirilərdi. Gündüzlər adamlar sovqat tutub bir-birinin evinə qonaq gedər, bir-birini bayramın gəlişi münasibətilə təbrik edərdilər. Lakin gecəni hamı öz evində keçirərdi. Bu gecələrdə qapı pusular, qapı pusanlar isə yaxşı söz eşitmək istəyərdilər. Uşaqlar evlərin bacasından torba salıb bayram payı istəyərdilər. Novruz bayramı günü xüsusilə təmtaraqlı olardı. Zurnaçılar dəvət olunar, çalıb oynayardılar. Çox təəssüflər ki, sonrakı illərdə Novruza yasaq qoyulmuş və onu dini bayram kimi qiymətləndirmişlər. Belə bir cəhət nəzərə alınmamışdır ki, Novruzun qarşılanması islamdan çox-çox əvvəl mövcud olmuş və onun dinlə heç bir əlaqəsi olmamışdır. İslam dini qəbul olunduqdan sonra bu bayram daha da təmtəraqla keçirilməyə başlamışdır.

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, Novruza qadağa qoyulduğu illərdə də xalq bunu gizli şəkildə qeyd etmiş və onu yaşatmağa çalışmışdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan dövləti Novruzun qədim xalq bayramı kimi keçirilməsinə böyük önəm vermiş və bayram

günləri təqvimə düşmüşdür. İndi xalqımız bu günün gəlişini hər il səbirsizliklə gözləyir və onu böyük təmtəraqla keçirirlər.

Adətlərimiz, mərasimlərimiz çoxdur. Bunların hamısında ümumi cəhət o idi ki, bunlar uzun əsrlər boyu xalq tərəfindən yaradılmış və inkişaf etdirilmişdir.

Rayonumuzdan, o cümlədən Aşağı Molludan yaxşı el sənətkarları yetişib. Bunlardan Aşıq Elmanı, Aşıq Abdullanı, Aşıq Həmzəni, zurnaçılardan Mustafanı və İlyası göstərmək olar. Bu sənətkarlar çox zaman təmənnasız elin-obanın toylarını yola verən insanlar olublar. Zurnaçalan İlyas haqqında bir hadisə bu gün də yadımdan çıxmayıb. Kəndin kənarındakı evlərdən birində toy keçirilirdi. İlyas öz dəstəsilə məclisdə idi. Günəşli bir gün idi. Kəndin qoyunları yamaca səpələnib otlayırdı. Məclisdə iştirak edənlərdən biri İlyasa dedi ki, sən elə bir hava çala bilərsənmi qoyunlar yamacdan düzə ensinlər? Özü də sən bunu etsən, sənə 100 manat pul verəcəyəm. Bu hadisə təxminən 1948-1950-ci illərdə baş vermişdi. İlyas cavab verdi ki, bacararam. İlyas bir hava çaldı. Yamacda otlayan qoyunlar əvvəlcə duruxdular, zurnanın səsinə qulaq asdılar, sonra yavaş-yavaş düzə töküldülər və yenə də qulaqlarını şəkləyib qulaq asmağa başladılar. Məclisdə oturanlar sakitliklə bu mənzərəyə tamaşa edirdilər. Sifariş verən adam əlini cibinə saldı və 100 manat çıxarıb «halaın olsun» deyərək İlyasa uzatdı. Biz məclisdəkilər isə İlyasın bu sehrinə ovsunlanmışdıq. Əlbəttə, bunu heç də hər bir sənətkar

edə bilməzdi. Odur ki, bizim mahalda, el arasından çıxmış bütün sənətkarlara xalq çox hörmət və izzətlə yanaşırdılar.

Ta qədimdən xalqımın inam yerləri mövcud olmuş və bu inam yerlərinə sitayiş etmişlər. Əslində bir şeyə inam bəsləmək, yaxud ona sitayiş etmək bütün xalqlarda olmuşdur. Lakin hər bir xalqın inam və sitayiş etdikləri obyektin fərqli xüsusiyyətləri olmuşdur. Azərbaycan xalqının da inandıqları və sitayiş etdikləri yerlərin də özünəməxsus xüsusiyyətləri olmuşdur. Başlıcası isə xalqımız daha çox müqəddəs yerlərə, pirlərə, ocaqlara inam bəsləmiş və sitayiş etmişlər. Xalqımızın inam bəslədikləri və sitayiş etdikləri yerlərin bir xüsusiyyəti də onların həqiqətə daha çox bağlı olmalarıdır.

Mənim vətənim Aşağı Mollu ilə Yuxarı Mollu arasında «Üç qardaş» adlı bir pir var. Kəndimizin və qonşu kəndlərin əhalisi çoxdan bəri bu piri özlərinə inam yeri seçmiş və müxtəlif məsələlərlə əlaqədar oraya sitayiş etmişlər.

Bu pir təxminən dörd metr hündürlüyündə üç dənə daşdan ibarətdir. Daşlar sanki mişarla yonulmuş və yan-yana qoyulmuşdur. Hər birinin diametri təxminən 12 metr olan bu qayalar yerə kök salmışdır. Bu daşların yanlarında 3 dənə də dağdağan ağacı vardır. Belə rəvayət olunur ki, gavırlar müsəlmanları qabaqlarına salıb qovurlarmış. Həmin yerə çatanda az qalıblar ki, onları haqlasınlar. Müsəlmanlar Allaha əl qaldırıb dua edirlər ki, onları gavırların əlinə salmaqdansa daşa

döndərsin. Allah onların duasını eşidib onları daşa, atlarını isə ağaca döndərir. Bu bir əfsanə olsa da düşmənimiz olan gavırlara nifrət var. Və bu pirə gələnlər gavırlara nifrət eləyir. Bu pirə müraciət edənlər qarı düşmənimiz olan erməniləri göz önünə gətirir və onlara nifrət bəsləyirlər.

Maraqlı cəhət ondan ibarətdir ki, bu ərazidə mövcud olan əfsanələr ermənilərlə (gavırlarla) bağlıdır. Bu ondan irəli gəlir ki, Qubadlı və onun bir çox kəndləri Ermənistanla həmsərhəd olmuş və ermənilərin buraya təcavüzü ardıcıl xarakter daşımışdır.

Qubadlı rayonunun Cəbrayıl rayonu ilə sərhədində məşhur "Tumas baba" piri var. Əfsanəyə görə Tumas babanı gavırlar öldürmək üçün təqib etməyə başlayırlar. Gavırlar onu qovarkən o, gözdən itir və gavırlar qabaqlarına çıxan kəklik quşundan onun qaçdığı yeri soruşurlar. Kəklik qabaqda gedir – deyə Tumas babanın yerini onlara deyir. Bunu eşidən Tumas baba kəkliyə qarğış edərək deyir ki, görüm sənin nəslin artmasın. Odur ki, kəklik quşunun nəsli artmır. Sonra gavırlar qarşılarına çıxan bir qızdan soruşurlar ki, Tuması gördünmü? Qız cavab verir ki, qabaqdadır. Tumas baba qızın səsini eşidib ona qarğış edərək deyir ki, görüm sənin cehizin bitməsin. Odur ki, qızı ərə verəndə onun cehizini tamamlaya bilmirlər. Axırda Tumas baba qaçıb arcıd (yolka) ağacına sığınır. Bu ağac onu yarpaqları arasında gizlədir. Gavırlar çox axtarıb onu tapa bilmirlər. Tumas baba isə bu ağaca dua edərək deyir ki, görüm

sənin yarpaqların heç vaxt solmasın. Ona görə də yolka ilin bütün fəsillərində yaşıl rəngini saxlayır. O ərazidə yaşayan xalq Tumas baba pirini özlərinə inam və şəfa yeri seçərək oradan ayaqlarını kəsmirlər. Əzəli düşmənimizin təcavüzü nəticəsində biz yurdumuzdan-yuvamızdan ayrı düşdüyümüz kimi müqəddəs Tumas baba pirindən də hələlik məhrum olmuşuq. Xalq arasında müqəddəs ocaq adını alan "Tumas baba" pirinin nə vəziyyətdə olması barədə məlumatımız yoxdur. Bu ocaqdan bizləri məhrum edənləri ocaq tutsun.

Gavur düzündə olan Hacı Qaramanlar piri də xalqımızın həmişə inam yeri olmuş, onun haqqında mövcud olan əfsanə dildən-dilə gəzmişdir. Bu pir haqqında mövcud olan əfsanədə deyilir ki, bir övliyyə Hacı Qaraman adlı bir nəfəri görüşə dəvət edir. Övliyə ilə görüşdə övliyə Hacı Qaramana deyir ki, sən məndən üstünsən. Elə o vaxtdan da bura Hacı Qaraman piri adlanmağa başlayır.

Pirin nəyə qadir olması haqqında da əfsanə mövcuddur və xalq arasında belə bir fikir dolaşır ki, bu həqiqətən mövcud olmuş hadisədir. Bu hadisənin həqiqət olduğu bir də ona görədir ki, əhvalatın baş verdiyi rayon, hətta kəndin də adı dilə düşüb. Xalq arasında əfsanə adı ilə nəql olunur ki, Sisyan rayonunun kəndlərindən birində bir erməni ailəsi donuz saxlayırmış. Oğlanlardan birinin 10, digərinin isə 8 yaşı varmış. Necə olursa qaban saxlanılan damın qapısı açılır, vəhşiləşmiş qaban kiçik uşağı yeyir. Anası evə gələndə hadisəni bilir və böyük oğlunu

hədələyir ki, nə üçün buna yol veribsən. Oğlan anasının hədəsindən qorxaraq qaçıb donuz damında gizlənir. Anasının bundan xəbəri olmur. Uşağı axtarasa da tapa bilmir. Qadın qabanı qovub damına salır, qapını bağlayır, 3-4 vedrə neft töküb dama od vurur. Qaban da yanır, oğlu da. Axşam hadisə ər və arvada tam aydın olur. Bu hadisədən sonra arvad havalanır, baş götürüb evdən qaçır. Lakin əri və qardaşı onu tapıb gətirib evdə bağlayırlar. Bir müddət belə qalır. Bir gün arvad ərini yanına çağırıb deyir ki, yuxuda mənə dedilər ki, sənin əlacın Hacı Qaraman pirindədir. Arvadı pirə gətirirlər və bir neçə gün orada qalır. Yuxuda arvada deyirlər ki, sənin bir cüt oğlun olacaq. Elə də olur. Ər və arvad bundan sonra islam dinini qəbul edib, müsəlman olurlar. Qaraman pirinin başında həmişə insanlar dolu olardı. İndi həmin Pir də bir sıra abidələrimizlə yanaşı ermənilərin əsarətindədir.

Kəndimiz Aşağı Mollu və ona qonşu olan kəndlərdə camaatımızın daha bir sıra inam yerləri olmuşdur.

Bunlardan Aşağı Mollu ilə Xanlıq kəndi arasındakı Hüseyn Baba pirini, Yuxarı Mollu ilə Mollaburhan kəndi arasındakı yel pirini, rayonün Seytas kəndi yaxınlığındakı İmamzadəni, Əfəndilər kəndindəki Əhməd Çələbi ocağını və daha bir sıra xalq arasında müqəddəs olan pir və ocaqları göstərmək olar ki, Qubadlı camaatı bu yerlərə daim sitayiş etmiş, müxtəlif xəstəliklərdən xilas olmaq üçün oralara sitayiş etmişlər.

Mən yuxarıda Qubadlı ərazisində mövcud olan tarixi və memarlıq abidələri haqqında danışmışam. Lakin yerinə düşərdi ki, rayonumuzun bir sıra kəndlərində mövcud olan bəzi tarixi abidələrin də adını çəkəm. Bunlardan rayonumuzun Kürçülü kəndindəki Günbəzi, Göy qalanı, Çibikli kəndindəki Məscidi (bu məscid albanlardan qalmadır), Xocamsaxlıdakı qalanı, Dəmirçi Dondarlıda Hacı Bədəl körpüsünü göstərmək olar.

Aşağı Molluda bir sıra yer adları olmuşdur Bunlardan kağ yerini (bu yer mənim babam Fətəli kişiyə mənsub olub, ona görə də həmin yerə Fətəlinin kağ yeri deyiblər), kiçik qarovul, böyük qarovul, sarı təpə, düyü torpağı, Babaxan kələyi, Kəklik bulağı, Kəlbə İsmayıllılar, Nəzərin sulu qobusu, Muncuqlu kələk, sınıq qaya, Sətinin qayası, Böyük dərə, Kağ dərəsi, səf dərə, dik daş, əyri dərə, tapan dərə və s. kimi xalq arasında adı dillərdə gəzən yer adları olub.

Molluda camaatın savad alması üçün çalışan xeyirxah adamlar sırasında ilk olaraq Qulu Yüzbaşının adını çəkmək lazımdır. O,1924-cü ildə Molludakı evində ilk məktəb təşkil edib.

Mollaburan kəndindəki ilk pristav binasını isə mənim babam Fətəli kişi tikdirib. Sovetləşmədən sonra isə həmin bina əvvəlcə kənd sovetinə verilib, sonra isə oradan məktəb kimi istifadə etməyə başlayıblar.

Molludan ilk təhsil dalınca gedən Molla Əhməd olub. O, Xorasanda təhsil aldıqdan sonra kənddə molla məktəbi açaraq dərs deməyə başlayıb. Molla Əhmədin oğlu Nəhməd kişi də çox savadlı olub. Yaşlı adamların dediyinə görə o, Qurani-Kərimi əzbər bilirmiş. Sovetləşmə dövründə dini təbliğ etmək yasaq olduğu üçün ölü namazını gizlin qılar və imkan daxilində bu sahədə camaata kömək edərmiş.

Aşağı Mollu kəndində ilk inqilabçı və ilk kommunist Həbib Quliyev olub. Ona camaat arasında Qara Həbib də deyərlərmiş. Bunu da qeyd edim ki, mən də onu xatırlayıram. İlk sovetləşmə dövründə banditlərin tərksilah edilməsində onun böyük xidmətləri olub. Uzun müddət rayonumuzda müxtəlif kənd sovetlərində sovet sədri olub.

Kəndimizin camaat tərəfindən sevilən adamlarından biri də Bəylər Orucov olub. O, həm bənna, həm dülgər, həm də dəyirmançılıq sənətlərini bilirmiş. Dəyirmanda üyüdülən taxılın muzdu ilə çox-çox aclara və kasıblara kömək edib. Mən də bu insanı xatırlayıram. Sahib olduğu bütün peşələrlə kənd camaatına təmənnasız kömək edərdi.

Kəndin yaşlı adamlarının dediyinə görə bizim Mollu camaatının babaları İranın Şamolular kəndindən gəlmədir. Bu ağlabatan bir fikirdir. Çünki o dövrdə İran hökmdarları başqa ərazilərdə etnik dayaq yaratmaq üçün əhalinin bir qismini başqa yerlərə köçürmüşlər.

# CƏBRAYIL YÜZBAŞI

Əslən Aşağı Mollu kəndindən olan Cəbrayıl yüzbaşı eyni zamanda mahalın adlı-sanlı adamlarından biri olub. Cəbrayıl yüzbaşı həm xeyirxah, həm də əliaçıq bir adam olub. Deyilənə görə Mir Cəfər Bağırov bir gün rayonun Həmzəli kəndinə gəlir və Kəbla Mikayılın evində yüzbaşı Cəbrayılı yanına çağırır. Əlyanlı meşəsində yuva salmış banditlərin tutulmasında ona kömək etməyi təklif edir. Çünki deyilənlərə görə heç kəs yüzbaşı Cəbrayılın sözündən çıxmırmış. Bu işdə o, M.C.Bağırova kömək edir. Sonra M.C.Bağırov ona söz verir ki, sənə yaxşı bir vəzifə verəcəm. Lakin Cəbrayıl kişi camaat içərisində nüfuzunu itirməmək üçün İrana çıxıb gedir və ölənə qədər orada yaşayır. M.C.Bağırov isə onun rayondan getdiyini eşidib çox təəssüflənir.

# ACILI, ŞİRİNLİ AİLƏ HƏYATIM

Bu başdan qeyd edim ki, bu kitabda belə bir məsələyə toxunmaqda heç də özümü təbliğ etmək məqsədi güdməmişəm. İlk növbədə məqsədim ondan ibarət olub ki, keçmişimiz, ata və babalarımız, onların necə insanlar olduğu barədə nəvələrimə və ailəmizə yaxın olan insanlara məlumat verim.

Mənim babam Fətəli Dünyamalı oğlu orta kəndli olub. Sürü ilə qoyunu, mal-qarası və dükanı olub. İki qardaş olublar. Babamın BƏŞİR adında bir oğlu və Tamaşa adında bir qızı olub. Yuxarıda dediyim kimi onun özünə məxsus kağ yeri olub. Deyilənə görə babam hazırcavab, söz götürməyən və cəsarətli bir adam olub. Kəndimizin yaşlı adamlarının dediyinə görə o, yüzbaşı ilə tez-tez mübahisəyə girərmiş, dediyindən dönməzmiş. Babam həm də podratçılıqla məşğul olub. O, dövlətdən pul götürüb tikinti işləri görərmiş. Yuxarıda qeyd etdiyim Mollaburhan kəndindəki böyük binanı o tikdiribdir.

Babamın Camal adında bir qardaşı olub. Camal kişinin 3 qızı olub. Onun qızının biri erkən dünyasını dəyişib. Qalan iki qızının isə kəndimizdə nəvə və nəticələri var.

Babamın oğlu və mənim atam Dünyamalıyev BƏŞİR Fətəli oğlu sadə əməklə məşğul olan bir kolxozçu olub. 1941-ci ildə müharibə başlayanda dünyasını dəyişib. Hazırda iki qardaş və iki bacım var.

Qardaşımın adı Nüsrət, bacılarımın adı isə Diləfruz və Hamatıldır. Atam vəfat edəndə mənim 5-6 yaşım olub. Demək olar ki, mən ata qayğısı görməmişəm və onunla bağlı heç bir xatirə yadımda qalmayıb. Erkən atamı itirməyim mənim sonrakı həyatıma da güclü təsir edib və mənim sonrakı həyatım anamla bağlı olub. Bir sözlə, anam mənim bütün qayğımı öz üzərinə götürüb. Odur ki, anamla bağlı xatirələrim zəngindir.

Anam Dünyamalıyeva Xurşud Hüseyn qızı Yuxarı Mollu kəndindəndir. Anamın taleyi ilə mənim uşaqlıq taleyim arasında bir oxşarlıq olub. O da uşaq ikən əvvəlcə atasını, sonra isə anasını itirib. Onu ana babası Haqverdi kişi saxlayıb. Anamın Qardaş adında bir xalası oğlu və İldırım adında dayısı oğlu olub. Müharibə başlananda müharibəyə gediblər və müharibədən sonra anama çox kömək ediblər. Xüsusilə, anamın dayısı oğlu İldırımın anama və mənə çox köməkliyi dəyib. Mənim böyüyüb ərsəyə çatmağımda anamın əməyi ömrümə hakk olub.

Müharibənin ağır günlərində o, həmişə kolxozda işləməklə məndən heç bir şey əsirgəməyib. Bir sözlə, anam mənim həyatımın himayəçisi olub.

Bu gün yaşımın ahıl çağında da anamı böyük məhəbbətlə xatırlayıram, onu yad edəndə indinin özündə də kövrəlirəm. Süfrə başında oturanda onun mənim qarşıma qoyduğu duzu, çörəyi yada

salıram və ürəyimdən belə bir arzu keçir ki, kaş bu gün o, sağ olaydı, onun mənim üzərimdə olan zəhmətin mindən birini qaytara biləydim.

İllər keçib. Övlad sahibi olmuşam, nəvə sahibiyəm. Bəzən övladlarımdan hər hansı biri mənə soyuq münasibət bəsləyəndə, yaxud məsləhətimə qulaq asmayanda ürəyimdə küsmüşəm, lakin inciməyimi biruzə verməmişəm. Yadıma salanda ki, mənim də anamın sözlərinə qulaq asmayanda o da yəqin mənim keçirdiyim hissləri keçirib, onda bunu bir qanunauyğunluq kimi qəbul edirəm və belə düşünmüşəm ki, görünür valideynlərimi incitdiyimin əvəzini alıram. Övladlarımı bilmirəm, vaxtilə anama qarşı bir soyuq münasibətim olubsa, bu gün də onun peşmançılığını çəkirəm.

Lakin düşünəndə ki, mənim anama qarşı heç bir pis hərəkətim olmayıb, onda təskinlik tapıram, dincəlirəm.

Kaş insanlar hansı məsələdə səhv edirlər etsinlər, ancaq ataya və anaya qarşı səhv etməsinlər. Çünki başqa səhvlərin əvəzini vermək olar, amma anaya və ataya qarşı etdiyin səhvlərin əvəzini qaytarmaq mümkün deyil. Övlada ana məhəbbətinin sonu yoxdur. Mən hər hansı bir toy mərasimində olarkən həmişə ana məhəbbəti hissinin nəyə qadir olduğunu yaxından müşahidə etmişəm. Ana haqqında mahnı oxunarkən kimliyindən və yaşından asılı olmayaraq hamısının göz yaşlarını görmüşəm. Ana məhəbbətinə bərabər dünyada ikinci hissin olğunu eşitməmişəm.

"Ana qəlbim odlanır, söz düşəndə davadan" misraları ilə başlanan mahnıda bəşəri bir hiss var. Bu hissin əsasında ananın övlada məhəbbəti, ana narahatlığı durur.

Anamın savadı yox idi. Lakin mən onu həmişə ziyalı bir qadın kimi xatırlayıram. Onun duruşunda da, oturuşunda da, insanlarla ünsiyyətində də, məclislərdə özünü aparmasında da həmişə yüksək mədəniyyət və ziyalılıq duymuşam. Hərdən ziyalı qadınlarla söhbət edəndə anamı gözümün önünə gətirirəm. Onlarla müqayisə edirəm və hər zaman da mənim belə anam olduğu üçün qürur hissi keçirirəm. Hansı məclisə düşürdüsə, hamı onun hərəkətlərinə heyranlıqla baxırdı. Çox ağır bir qadın idi. Amma onun hərəkətlərindən də , dinib danışmayanda da bunlardan bir ibrət öyrənirdilər.

Bir dəfə Napoleon yaxın köməkçilərindən birinə bir sual verir: "Fransız gənclərini ən yaxşı kim tərbiyələndirə bilər?" O:"Analar"-deyə cavab verir. Napoleon bu sözlərdən çox təsirlənir. Hər hansı bir cəmiyyətin sağlamlığında şübhəsiz anaların rolu əvəzedilməzdir.

Fransız filosofu D.Didro deyir ki, analıq qadının gözəlliyini tamamlayır. Başqa bir alim isə deyir ki, yaxşı ana min müəllimə dəyər. Həzrəti Məhəmməd peyğəmbər deyib ki, ata və ana səni eyni vaxtda səsləyirsə, sən ananın yanına get.

Anam haqqında dediklərimi ümumiləşdirərək belə bir nəticəyə gəlirəm ki, anamın qucağında öyrəndiklərim dərsləri və onun söylədikləri nağılları ömrüm böyu unuda bilmərəm.

Mən anamı öz vətənimdə, boya-başa çatdığım Aşağı Mollu kəndində torpağa tapşırmışam. Bu mənim üçün böyük təskinlikdir. Yaxşı ki, o, vətəndə dünyasını dəyişib, bizim bu günkü günlərimizi görmədi. Amma bir şey ürəyimi sızıldadır. O da ondan ibarətdir ki, onun məzarı yağı düşmənin tapdağı altındadır. Bunun üçün hər gün, hər an nigarançılıq keçirirəm.

Anamın ilk övladı kimi mənim həyatım çox keşməkeşli olub. Uşaqlıq illərim ağır keçdiyi kimi orta məktəbi də üç kənddə başa vurmuşam. İbtidai sinifləri Aşağı Molluda, yeddillik təhsilmi Yuxarı Molluda və orta təhsilimi Xanlıq kəndində başa vurmuşam. Əsgəri xidmətimi yerinə yetirdikdən sonra Sumqayıt şəhərinə gəlib aliminium və kimya zavodlarında fəhlə və növbə rəisi işləmişəm.

Sumqayıtda işlədiyim illərdə təhsilimi davam etdirmişəm. Əvvəlcə mexanizasiya məktəbini, sonra isə statistika texnikumunu başa vurmuşam. Ali təhsilə isə V.İ.Leinn adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda yiyələnmişəm. Bundan sonra yenidən ana yurdum Aşağı Molluya köçmüşəm. Əvvəlcə məktəbdə müəllim, sonra isə kəndimizdə kolxoz sədri vəzifəsində işləmişəm. 4 illik kolxoz sədri dövründə kəndimiz üçün nəyi bacarırdımsa onu da etmişəm. Sonra isə 1993-cü ilin

qaçhaqaç dövrünə qədər müəllimlik peşəmi davam etdirmişəm. Hal-hazırda Sumqayıt şəhərində yaşayıram və təqaüdçüyəm. Dörd oğlum və bir qızım var. Kiçik oğlum Qabil iki il bundan əvvəl İrkutsk vilayətində naməlum qatillər tərəfindən öldürülüb.

Ömür-gün yoldaşım Sərmayə xanımın mənim və uşaqların üzərində çox böyük zəhməti və qayğısı olub. O, məndən və uşaqlarımdan heç bir şeyi əsirgəməyib. Mehribançılığımız və əlbirliyimiz sayəsində uşaqlarımız yüksək tərbiyə sahibi olublar. Ədalət naminə deməliyəm ki, baldızım Səriyyə də ömrü boyu bizimlə birgə yaşayıb və uşaqlarımın üzərində çox böyük zəhməti olub.

# FƏTƏLİYEV TAHİR ƏŞİR oğlu

FƏTƏLİYEV Tahir mənim ilk övladımdır. 1959-cu ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilini Sumqayıt şəhərində alıb. Sonra ali təhsil almaq üçün Rusiyanın İrkutsk şəhərinə gedib və oradan ali təhsilli zootexnik kimi qayıdıb. Əvvəlcə Azərbaycanın Abşeron rayonunda işləyib. Abşeron toyuq fabrikində sex rəisi vəzifəsində çalışıb. Sonra isə yenidən ali təhsil aldığı İrkutsk şəhərinə qayıdıb. Elə o vaxtdan indiyə qədər İrkutsk şəhərində kommersiya fəaliyyəti ilə məşğuldur. Ailəlidir. Həyat yoldaşı Gülzar xanım ziyalı bir ailədən çıxıb. Gülzar xanım Tahirlə birlikdə iki oğul, bir qız böyüdürlər - Rəşad, BƏŞİR və Lalə. BƏŞİR ata babasının adını daşıyır.

## FƏTƏLİYEV ŞAMİL ƏŞİR oğlu

FƏTƏLİYEV Şamil ƏŞİR müəllimin ikinci övladıdır. 1962-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilini Sumqayıtda başa vurub. Sonra ali təhsil almaq üçün İrkutsk şəhərinə gedib və İrkutsk şəhərində Kənd təsərrüfatı institututuna qəbul olub. Ovçuluq və meşəçilik ixtisasına yiyələnib. Ali təhsilini başa vurduqdan sonra doğma Qubadlıya qayıdıb və bir müddət Qubadlı meşəçilik idarəsində müfəttiş işləyib. Hazırda İrkutsk şəhərində işləyir. Bir oğlu və bir qızı var. Həyat yoldaşı Asya xanımla Orxan və Səbinəni böyüdürlər.

# FƏTƏLİYEV MƏZAHİR ƏŞİR oğlu

1965-ci ildə Sumqayıt şəhərində anadan olub. Səkkizinci sinfə qədər Sumqayıtda, 9-10-cu sinifləri isə doğma kəndimiz Aşağı Molluda başa vurub. Ali təhsilini isə İrkutsk şəhərində alıb. İrkutsk politexnik instituttunun "Avtomobillərin istismarı və təmiri" fakültəsini bitirib.

Sonra İrkutsk şəhərində kommersiya işləri ilə məşğul olmağa başlayıb. Məzahir həyat yoldaşı Leyla xanımla birlikdə bir oğlu və bir qız tərbiyə edirlər - Aygün və Emin.

## FƏTƏLİYEV QABİL ƏŞİR oğlu

1970-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində, orta təhsilini isə Yuxarı Molluda alıb. Orta məktəbi medalla başa vurub.

Sonra İrkutsk şəhərinə qardaşlarının yanına gedib. Tibb institutuna qəbul olub və oranın stomatologiya fakültəsini bitirib. Sonra İrkutskdə qardaşlarının yanında işləyib. 2002-ci il mart ayının 11-də gecə yaşadığı evə gələrkən naməlum qatillər tərəfindən vəhşicəsinə öldürülüb. Məzarı Sumqayıt qəbiristanlığındadır. Gülnar və Əminə adlı iki qızı var. Qabilin həyat yoldaşı Ramilə xanım bu uşaqları həm də ata qayğısı ilə böyüdür.

## FƏTƏLİYEVA SEVİNC ƏŞİR qızı

1973-cü ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. II-VIII sinifləri Aşağı Molluda, orta təhsilini isə Yuxarı Molluda alıb. Mühasibat uçotu texnikumunu bitirib və mühasib ixtisasına yiyələnib. Hal-hazırda Sumqayıt şəhərində maarif şöbəsində mühasib vəzifəsində işləyir. Ailəlidir, bir qızı və bir oğlu var.

# QARABAĞ MÜHARİBƏSİNİN QUBADLI QƏHRƏMANLARI

1988-ci ildən başlayaraq ermənilər Azərbaycan torpaqlarına qarşı bədnam niyyətlərini həyata keçirməyə başladılar. Azərbaycanın bütün bölgələri müqəddəs Vətən torpağı uğrunda savaşa başladılar. Həmin dövrdə xalqımızın qəhrəmanlıq ruhu çox güclü idi. Vətən torpaqlarını qorumaq üçün ayağa qalxanların sayı-hesabı yox idi. Könüllü müharibəyə gedənlərin sayı günü-gündən artırdı. Azərbaycan xalqının bir parçası kimi Qubadlı igidləri də könüllü olaraq müharibəyə qoşulmağa başladılar.

Məqsədim Qubadlıdan müharibəyə gedən, böyük qəhrəmanlıqla vuruşan həmvətənlərimi bir daha yad etmək, onların müharibədə göstərdikləri şücaəti təsvir etməkdir.

# ƏLYAR YUSİF OĞLU ƏLİYEV

Əlyar Yusif oğlu Əliyev 1957-ci il dekabrın 14-də Qubadlının Qəzyan kəndində anadan olub. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. O, hərbi xidməti başa vurduqdan sonra Saransk Dövlət Universiteti onu idman üzrə tanınmış mütəxəssis kimi müəllim işləməyə dəvət edir. 2 il Əlyar həmin universitetdə müəllim işləyir. Atasının ölümü ilə əlaqədar dəfnə qayıdır, qəsəbə orta məktəbində müəllim, "Məhsul" könüllü idman cəmiyyətinin rayon şöbəsinin məşqçisi vəzifəsində çalışır. Az vaxt içərisində onun yaxşı işini nəzərə alıb Həmkarlar İttifaqı könüllü bədən tərbiyəsi və İdman cəmiyyəti rayon şurasının sədri seçiblər. Klassik güləş üzrə dəfələrlə respublika, ümumittifaq və beynəlxalq yarışların qalibi olub. Bilavasitə Əlyarın rəhbərliyi ilə yetişmiş 8 nəfər respublika və SSRİ çempionu olmuş, 1 nəfər isə olimpiya yığma komandasına üzv seçilmişdir.

Qarabağ müharibəsi başlayanda Əlyar Əliyev könüllü olaraq müharibə meydanına atılır. Müharibəyə başlayarkən özünü təkcə döyüşçü kimi yox, həm də müharibə təşkilatçısı kimi göstərməyə başlayır. Əvvəlcə tabor kəşfiyyat bölməsinin komandiri, sonra təchizat üzrə taborun rəisi təyin edilir. 1992-ci ildən isə tabor komandiri təyin edilir. Düşmənin canlı qüvvəsinin məhv edilməsində dəfələrlə igidlik göstərir. Bir döyüşçü kimi onun ən başlıca xüsusiyyəti ən ağır döyüş

yerlərinə can atması idi. Əlyar döyüşə başlayanda onun ətrafındakılarda böyük ruh yüksəkliyi yaranır və igidliklə vuruşurdular.

Əlyarın son döyüşü 1992-ci il oktyabrın 3-də Laçının iki kilometrliyində olub. Həmin döyüşdə tabor komandiri Ə.Əliyev və onun sürücüsü Əlisadət Ağayev qəhrəmancasına həlak olublar. Bu böyük qəhrəmanlığına görə Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il fərmanı ilə ona Azərbaycanın Milli Qəhrəmanı adı verilib. Qubadlılar və bütövlükdə Azərbaycan xalqı Əlyar Əliyev kimi igid oğlu ilə fəxr edir. Onun iki oğlu və bir qızı intiqam eşqilə böyüyürlər.

Ə.Əliyevin məzarı doğulub boya-başa çatdığı Qəzyan kəndindədir.

# ASLAN QABİL OĞLU ATAKİŞİYEV

Azərbaycanın Milli Qəhrəmanı Əlyar Əliyevin ilk çağırışına cavab verənlərdən biri Aslan Atakişiyev olub.

Aslan Atakişiyev 1953-cü il avqustun 16-da Qubadlının Muradxanlı kəndində anadan olub. Qarabağ hadisələri başlayanda o, müəllim işləyirdi. Vətən torpaqlarının təhlükə altında olduğunu görən Aslan öz doğma peşəsindən ayrılıb cəbhəyə yollandı. O, torpaqlarımız uğrunda gedən döyüşlərdə həmişə öz cəsarəti və hünəri ilə seçilirdi. Cəbhə rəhbərliyi həmişə onun bü cəsarətini yüksək qiymətləndirirdi. Bu hünər və cəsarət az vaxt içərisində onu tabor komandirinin müavini kimi məsuliyyətli bir vəzifəyə gətirib çıxardı. Lakin tabor komandirinin müavini olmasına baxmayaraq öz əsgərləri içərisində qızğın yerlərdə döyüşə birinci atılırdı. Bu hünər və cəsarət çoxuna nümunəyə çevrilirdi.

1992-ci il avqustun 7-də Sussuzdağ yüksəkliyi uğrunda qızğın döyüşlər gedirdi. Elə onun son döyüşü də burada oldu. Yağı düşmən çoxdan idi ki, onu nəzarətə almışdı. Döyüş zamanı Aslan Atakişiyev əsl mənada qəhrəmanlıq göstərib həlak olub. Lakin vətən onun bu igidliyini yüksək qiymətləndirdi və ona Azərbaycanın Milli Qəhrəmanı adını verdi.

Məzarı Bakıdakı Şəhidlər xiyabanındadır.

# VASILI ƏHMƏD OĞLU ƏLİYEV

Qubadlı torpağının yetişdirdiyi igid oğlanlardan biri də Vasili Əliyev idi. O, 1959-cu il yanvarın 19-da Qubadlı şəhərində anadan olub. Polis sıralarında qulluq edirdi. Qarabağ uğrunda savaş başlayanda öz işi ilə vidalaşıb könüllü olaraq cəbhəyə yollanır. Vasili ilk gündən özünü qızğın döyüş yerlərinə atır. Buna səbəb onun torpağımıza göz dikən düşmənə qarşı olan böyük nifrət və qəzəbi idi. Nəhayət, bu nifrət onu Topağac yüksəkliyi uğrunda gedən qızğın döyüşlərə gətirib çıxarmışdı. Lakin onun cəsarətli döyüşü yağı düşmənin gözyndən yayınmadı . O, bu döyüşdə həlak oldu. Lakin onun bu şücaəti Azərbaycan Respublikasının Prezidentinin 11 may 1993-cü il fərmanı ilə çox yüksək qiymətə layiq görüldü. Qubadlının şəhidlər xiyabanında uyuyan Vasili Əhməd oğlu Əliyevin məzar daşındakı onun milli qəhrəmana xas olan baxışları hər gün hörmətlə yad edilir. Onun övladları bir qızı və bir oğlu ataları ilə fəxr edirlər.

## ƏLƏKBƏR HƏSƏN OĞLU ƏLİYEV

Ələkbər Əliyev 1955-ci ildə Qubadlının İşıqlı kəndində dünyaya göz açıb. Sumqayıt politexnik texnikumunu bitirib. Təhsilini başa vurduqdan sonra əvvəlcə Qubadlı rayon kimya biriliyinin sədri, sonra isə kəndlərində sovxoz direktorunun müavini vəziyəsində işləyib.

Əfsanəvi qəhrəman Əlyar Əliyevin çağırışına ilk cavab verənlərdən biri olub. Azərbaycan torpaqları uğrunda gedən vuruşlarda həmişə öz cəsarəti və döyüşkənliyi ilə fərqlənib. Çox qorxmaz bir döyüşçü olub. Sonuncu döyüşü Laçının Suarxası kəndində olub. 1992-ci il avqustun 7-də gedən bu döyüşdə təkbaşına 20-ə qədər erməni quldurunu məhv edib. Özü isə qəhrəmancasına həlak olub. Bu qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə ona (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adı verilib. 4 övladı var.

# SƏFA FƏTULLA OĞLU AXUNDOV

Vətən torpağı uğrunda gedən vuruşlarda qəhrəmanlıq nümunələri göstərən oğullarımızdan biri də Səfa Fətulla oğlu Axundovdur.

Səfa Fətulla oğlu Axundov 19 iyun 1958-ci ildə anadan olub. Təyyarıçilik məktəbini bitirib. Qarabağ səmasında düşmənin başına güllə yağdıran Mİ-8 vertolyotunda ikinci pilot olub. Bir sıra döyüşlərdə havadan düşmənin canlı qüvvəsinə böyük təlafat verib. Məlum olduğu kimi 1992-ci ilin yanvarında Xankəndi uğrunda qızğın vuruşlar gedirdi. Biz o vaxt, qələbəyə çox yaxın idik. Lakin öz içərimizdən olan satqınların xəyanəti və düşmənin başqa dövlətlərlə əlaqəyə girməsi nəticəsində biz bu qələbəni əldən verdik. Elə həmin günlər 1992-ci ilin yanvarın 28-də Səfa Axundovun da içərisində olduğu təyyarə "Stinker" raketi ilə vuruldu. 3 heyət və 40 nəfər sərnişin faciəli şəkildə həlak oldu. Həmin döyüşdə böyük qəhrəmanlıq göstərdiyinə görə Səfa Axundova Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Məzarı Bakıdakı Şəhidlər Xiyabanındadır.

# BƏYLƏR TAPDIQ OĞLU AĞAYEV

Mən Qarabağ savaşında həmvətənlərim olan şəhidləri xatırladıqca həm onların həyatdan vaxtsız getdiklərinə görə bir tərəfdən ürək ağrısı keçirirəm, digər tərəfdən isə belə igidlərimiz olduğu üçün qürur hissi keçirirəm.

Bəylər Tapdıq oğlu Ağayev belə igidlər sırasına daxildir. O, 1969-cu il fevral ayının 3-də Qubadlının Qarağaclı kəndində anadan olub. Vətən və torpaq uğrunda vuruşa-vuruşa bölmə komandiri vəzifəsinə qədər bir yol keçmişdir. Hələ ailə qurmamışdır. Bu məsələ barədə söhbət düşəndə həmişə deyərdi ki, "öncə vətəndir". Bu ümidlə də həmişə düşmən üzərinə atılırdı.

1992-ci il avqustun 6-da Xanalıqlar kəndi uğrunda qızğın döyüşlər gedirdi. Bəylər Ağayev həmişə olduğu kimi ön sırada düşmənin üzərinə atılmışdı. Lakin bu onun üçün son döyüş oldu. Qəfil atılan düşmən gülləsi onun həyatına son qoydu. Lakin onun vətən uğrunda göstərdiyi şücaət, qəhrəmanlıq layiqincə qiymətləndirildi. Ona "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" adı verildi. Məzarı Qarağaclar kəndindəki Şəhidlər xiyabanındadır. Həmyerliləri onu unutmur, hər an onun məzarını tər qərənfillərlə yad edirlər. Təəssüf ki, belə igid övladlarımızın məzarları erməni tapdaqlarında qalmaqdadır.

# KAZIMAĞA MÖVSÜM OĞLU KƏRİMOV

Vətən hər şeydən öncədir. Bu kəlam elini-obasını, ata və anasını sevən bütün insanların dilinin əzbəridir. Onun uğrunda həmişə hazır olmalarıdır. Peşəsindən və tutduğu vəzifədən asılı olmayaraq Kazımağa Kərimov da Qarabağ savaşı başlayanda vətən uğrunda mübarizəyə hazır olduğunu bəyan etdi.

Kazımağa 1950-ci il sentyabrın 1-də Qubadlının Sarıyataq kəndində anadan olub. İxtisasca jurnalist idi. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 15 ilə qədər mətbuat sahəsində çalışıb. Baş leytenant Kazımağa Kərimov tabor komandirinin müavini olub. Xarxanut kəndi uğrunda gedən döyüşlərdə o, ağır yaralanıb. Onu xilas etmək üçün Bakıya gətirirlər. Həkimlərin səyinə baxmayaraq onu xilas etmək mümkün olmür. Vətən torpaqları uğrunda göstərdiyi şücaəti "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə qiymətləndirilir. Məzarı Bakıdakı Şəhidlər xiyabanındadır.

## AQİL SƏMƏD OĞLU MƏMMƏDOV

Müharibə başlayanda peşəsindən və sənətindən asılı olmayaraq hamı cəbhədə gedən vuruşmaları diqqət mərkəzində saxlayır və igid övladlarımız cəbhəyə can atırdılar. Belə oğlanlardan biri də sənəti sürücülük olan Aqil Səməd oğlu Məmmədov idi.

Aqil Məmmədov 1969-cu il iyulun 30-da Qubadlıda anadan olmuşdur. Cəbhədə ən çətin vəzifələrdən birini yerinə yetirməyi öz üzərinə götürmüşdür. Kəşfiyyatçı idi. İgid oğlanları başına yığıb düşmən haqqında məlumat toplayırdı. Topladığı məlumatlar döyüşlərimizə çox kömək edirdi.

1992-ci il avqustun 6-da Laçın rayonunun Sussuzdağ uğrunda qızğın döyüşlər gedirdi. Aqil buradakı düşmən qruplaşmaları haqqında da xeyli məlumat gətirmişdi. Lakin düşmən döyüşün qızğın vaxtında Aqil Məmmədovu hədəfə aldı və onun həyatına son qoydu. Lakin Aqil bu döyüşdə yüksək şücaət və qəhrəmanlıq göstərmişdi. Ona görə də Azərbaycan Respublikası Prezidentinin 6 fevral 1993-cü il fərmanı ilə (ölümündən sonra) ona Vətənin ən yüksək mükafatı - Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verildi. Məzarı Qubadlıdakı Şəhidlər xiyabanındadır. Yeganə qız övladı onun şücaəti və qəhrəmanlığı ilə fəxr edir.

# KƏRƏM ƏRŞAD OĞLU MİRZƏYEV

Qubadlıdan cəbhəyə könüllü gedən igid vətən oğullarından biri də Kərəm Mirzəyev olub. Azərbaycan İnşaat Universitetini yenicə başa vurub kəndlərinə qayıtmışdı. Müharibə başlayanda Kərəm baş leytenant idi və doğma Xanlıq kəndində sahə müvəkkili işləyirdi. Təzə ailə qurmuşdu, bir oğlu vardı. 30 yaşını yenicə başa vurmuş Kərəmin gələcəklə bağlı çox böyük arzuları vardı. Lakin müharibə onun bütün gələcək arzularını arxa plana keçirdi. Vətən torpağının xilas olması onun hələlik yeganı arzusuna çevrildi. Bir sıra döyüşlərdə şücaət və cəsarət göstərdi. Qızğın döyüş nöqtələrindən çəkinmədi .

1992-ci il oktyabrın 1-i onun son döyüşü oldu. Mazutlu kəndi uğrunda gedən döyüşdə düşmən gülləsinə rast gəldi.

Lakin onun göstərdiyi igidlik komanda heyətinin nəzərindən qaçmadı. Ölümündən sonra ona Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Özü isə anadan olduğu və ürəyi qədər sevdiyi Xanlıq kəndində torpağa tapşırıldı.

# İSA İSKƏNDƏR OĞLU MƏMMƏDOV

Qarabağ savaşı başlayanda hamını düşündürən bir fikir vardı. Ölmək, ancaq murdar düşməni torpağımıza ayaq basmağa qoymamaq. Bu məqsədlə insanlar döyüşə gedirdilər. İsa İskəndər oğlu Məmmədov belə insanlardan biri idi. O, 1966-cı ildə Aşağı Mollu kəndində dünyaya göz açmışdı. Qəhrəmanlıq tarixinə malik olan kəndini çox sevirdi. Həmişə Qaçaq Nəbi və onun igid həyat yoldaşı haqqında söhbətlərə heyranlıqla qulaq asardı.

Müharibə başlayanda ürəyindəki arzular çin oldu. Vətənin müdafiəsinə yola düşdü. Vuruşlarda taqım komandiri vəzifəsinə qədər yüksəldi. Cəbhə yoldaşlarını vuruşa həvəsləndirməkdə bir igid idi. Lakin Xocavənd uğrunda gedən şiddətli döyüşdə düşmən gülləsinə rast gəldi. Respublika prezidentinin 11 oktyabr 1994-cü il fərmanı ilə o, "İgidliyə görə" medalı ilə təltif (ölümündən sonra)  olundu. Onun yeganə oğlu Fuad atasının şücaəti ilə fəxr edir və vətənini, elini-obasını sevən bir igid kimi böyüyür.

# İTKİN DÜŞƏNLƏR VƏ DÖYÜŞLƏRDƏ HƏLAK OLANLAR

Qubadlı və onun kəndləri uğrunda ölüm-dirim müharibəsi gedəndə bir çox həmkəndlilərimiz ya doğma yurdu qoyub getməmiş, ya itkin düşmüş, ya da mərd-mərdanə düşmənlə əlbəyaxada şəhid olmuşlar. Bu qəbildən olan həmvətənlərimin bir qismi haqqında əldə etdiyim məlumatları kitabımın bu bölməsində oxucularıma təqdim edirəm.

1. Mahir Babaş oğlu Quliyev 1970-ci ildə Aşağı Mollu kəndində anadan olub. Tanınmış şahmatçı idi. 1993-cü il avqustun 30-da itkin düşüb.

2. Fazil Qaraş oğlu Nəzərov 1948-ci ildə Yuxarı Mollu kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitututunu bitirib. 1973-85-ci illərdə orta məktəbdə tədris işləri üzrə direktor müavini olub. 1985-ci ildən isə məktəb direktoru işləyib. 1993-cü il avqustun 30-da itkin düşüb. Sonrakı taleyi haqqında məlumat yoxdur. 3 qızı, 2 oğlu var.

3. Bəykişi Boran oğlu Cabbarov 1933-cü ildə Aşağı Mollu kəndində anadan olub. 1993-cü il avqustun 30-da ermənilər kəndə dolarkən itkin düşüb. 4 qızı, bir oğlu var.

4. Kamran Şirin oğlu Vəliyev 1926-cı ildə Yuxarı Mollu kəndində anadan olub. 1941-45-ci illərin müharibə iştirakçısı idi. II qrup əlil idi. 1993-cü ilin avqustunda kənd işğal olunanda itkin düşüb.

5. Əvəz Budaq oğlu Şahməmmədov 1908-ci ildə Yuxarı Mollu kəndində anadan olub. 1926-31-ci illər arasında kənddə muzdur olub 1931-42 -ci illərdə təsərrüfat briqadiri vəzifəsində işləyib. II dünya müharibəsinin iştirakçısı idi. 1946-61-ci illər arasında kəndlərində briqadir və ferma müdiri vəzifəsində işləyib . 1940-cı ildə Moskvada keçirilən Ümumittifaq kənd təsərrüfatı nailiyyətləri sərgisinin gümüş medalını alıb. 1993-cü il avqustun 30-da kəndləri işğal olunanda itkin düşüb.

6. Çiçək Həsənqulu qızı Qafarova 1890-cı ildə Aşağı Mollu kəndində anadan olub. 1993-cü ilin avqust ayında ermənilər kəndə girəndə onun 3 yaşlı nəvəsi İxtiyar Qafarov da onun yanında olub. Erməni cəlladlarının əlinə keçməsinlər deyə 100 yaşlı Çiçək nənə nəvəsinin əlindən tutaraq özlərini çaya atıblar və orada boğulublar.

7. Çiçək Qəhrəman qızı Abdullayeva 1920-ci ildə Aşağı Mollu kəndində anadan olub. Kənd atəşə tutulanda Çiçək nənə aldığı güllə yarasından həlak olub.

8. Əliş Əlabbas oğlu Məhərrəmov 1923-cü ildə Aşağı Mollu kəndində anadan olub. Xalq qəhrəmanları Qaçaq Nəbinin və onun həyat yoldaşı Həcərin yaxın qohumu idi. 1993-cü ilin avqustunda ermənilər kəndə daxil olanda Əliş kişi güllə qatarını belinə bağlayaraq kənddən çıxmır. Qohumlar və yerliləri nə qədər yalvarırsa qərarından dönmür. O,

son nəfəsinə qədər ermənilərlə vuruşur və həlak olur. O, İ qrup Vətən müharibəsi əlili və rayon ağsaqqallar şurasının üzvü idi.

9. İldırım Əli oğlu Haqverdiyev 1919-cu ildə Yuxarı Mollu kəndində anadan olub. 1993-cü ilin avqust ayında ermənilər kəndə daxil olanda o da bir çox həmyerliləri kimi kənddən çıxmır. O da Əliş kişi kimi qohumlarının yalvarışına qulaq asmır və burada ölməyə üstünlük verir. Tüfəngi əlinə alıb yağı düşmənlə axıra qədər vuruşur və qəhrəmanlıqla həlak olur. İldırım kişi 3 oğul və qız atası idi.

Bəli, belə insanlar çox olub. Bunlar kütləvi qəhrəmanlıq nümunələridir. Bütün bu insanların xatirəsi həmvətənliləri və Azərbaycan xalqı tərəfindən unudulmayacaq və həmişə xalqımıza başucalığı gətirəcək.

Seytas kəndindən olan polkovnik Nüsrət Namazov Gorus və Qafanda yerləşən erməni daşnaklarını diz çökməyə məcbur etmişdi. Lakin sapı özümüzdən olan Rəhim Qazıyev kimi hərbi rəhbərlərin satqınlığı nəticəsində döyüşün qızğın çağında o işdən kənarlaşdırıldı və sonra da başına min bir oyun gətirildi.

Qarabağ savaşı dövründə Qubadlı əhalisi, kişi və qadınlar kütləvi qəhrəmanlıq nümunələri nümayiş etdirdilər. Kişilərlə bərabər Qubadlı qadınları da ayağa qalxmışdlar. Onlar təkcə arxa cəbhədə yox, müharibə meydanlarında da kişilərlə çox zaman çiyin-çiyinə gedirdilər.

Milli Qəhrəman Ələkbər Əliyevin anası Mələk xanım düşmən maşınının üzərinə yeriyərək dəmir şana ilə onun təkərlərini və şüşələrini yararsız hala salır. Eyzangül və Tahirə Kazımova bacıları, tibb bacısı Dilşad İsmayılova və onlarla belə qadınlarımız əlinə silah götürərək döyüşə atılırlar. Deyilənlərə görə daşnak erməni döyüşçüləri azərbaycanlı qadınlarının bu hünərindən lərzəyə düşüblərmiş.

Qubadlıların böyük bir hissəsi döyüşən əsgərlərimizi silah və sursatla təmin edirdilər. Cəbhə üçün bir sıra silahların hazırlanmasında və göndərilməsində daha çox fərqlənən bir neçə insanı hamı məhəbbətlə yad edir. Bunlardan çörək kombinatının direktoru Tofiq Hüseynovun, Elektrik Dəstləşdirmə zavodunun direktoru Malik İsakovun, Sumqayıt Avtokombinatının direktoru Sahib Qarayevin, Mənzil Təsərrüfatı İdarəsinin rəisi Fərəcovun, Mərmər sexinin rəisi Vahid Ağayevin və başqa vətən oğullarının adları dillər əzbəri olmuşdur.

Cəbhədə vuruşan Qubadlı oğulları Azərbaycanın başqa rayonlarının - Laçının, Zəngilanın, Cəbrayılın, Füzulinin, Ağdamın düşmənə qarşı vuruşlarında onlara yaxından kömək etmişlər.

Təkcə Ağdamın Güllücə kəndi uğrunda gedən döyüşlərcə 30 nəfər Qubadlı oğlu həlak olmuşdur. Bu yalnız bir döyüşdə baş vermişdir. Belə hallara hər gün və hər yerdə rast gəlinirdi. Qubadlı və qonşu Azərbaycan rayonlarında gedən döyüşlərdə həlak olmuş bütün həmyerlilərimizin ruhu qarşısında baş əyirik.

## ÜRƏK DOSTU

### "Bir düşmən çox,min dost azdır"

Aqillər tərəfindən deyilmiş bu sözlərin hikməti ölçüyəgəlməzdir. Hər bir insan başqası ilə ünsiyyət və dostluq yarada bilər. Lakin bunu hər yetənlə axıra qədər davam etdirmək olmaz. Təbii ki, hər kəs öz xarakterinə uyğun olan insanlarla dostluq və ünisyyət yaradır. Lakin bu da işin hələ hamısı deyildir. Bir insan tərəfindən bəyənilən adam hələ heç də əksəriyyətin rəğbətini qazana bilməz. Lakin insanda elə bəşəri keyfiyyətlər var ki, cəmiyyət üzvlərinin əksəriyyəti tərəfindən bəyənilir və təqdir olunur. Belə insanları həm kamil, həm də xoşbəxt saymaq olar. Təəssüflər olsun ki, belə insanları heç də asanlıqla tapmaq olmur.

Mən özümə sədaqətli dost hesab etdiyim Bəhram müəllimi belə insanlar sırasına daxil edirəm.

Bəhram müəllimlə mənim aramda yaranan dostluğun 40 ilə yaxın bir tarixi var. Düz 40 ilə yaxındır ki, o mənim ürəyimdə özünə yer edib və ən əziz və hörmətli dostlarımdan birinə çevrilib.

Başlanğıcda bizim aramızda ünsiyyət müəllim - tələbə ünsiyyəti olub. Mən ondan bir neçə yaş böyük olsam da o mənə dərs deyib, müəllimim olub. Müəllim - tələbə kimi söhbətimiz tutub, getdikcə aramızda bir yaxınlaşma əmələ gəlib. Bu yaxınlığın miqyası artıb. Bəhram müəllimin vasitəsilə ailələrimiz arasında get - gəl yaranıb.

Sonra mən Bəhram müəllimi ana vətənim Aşağı Molluya qonan gətirmişəm və qardaşım Nüsrətin uşaqlarına kirvə tutmuşam. Hazırda dostluq əlaqələrimiz çox geniş miqyas alıb. Həyatımda Bəhram müəllimlə dostluğuma qibtə edənlər çox olub. Ürəyi saf, dostluğun qədir-qiymətini bilənlər belə bir insanla dost olduğum üçün məni bu sarıdan xoşbəxt sayıblar, bədxahların isə paxıllığı tutub.

Yaxşı dost insan SEVİNCini artırır, dərdini azaldır. Yuxarıda dediyim kimi baxmayaraq ki, o, məndən bir neçə yaş kiçikdir, həmişə dara düşəndə, onun məsləhətinə ehtiyac duymuşam. Mən həyatımda bir məsələni çox sınaqdan keçirmişəm. Bu da ondan ibarət olub ki, çətin məsələləri Bəhram müəllimlə bölüşdürdükdə onun həlli də asanlaşıb.

Bəhram müəllimlə dostluq yaratdığım illər ərzində bu insanı dərindən dərk edə bilmişəm. Onun təbiətində, xarakterində dərk etdiyim başlıca xüsusiyyətlərdən biri də onun dosti yolunda ən çətin işlərə getməyi bacarmasıdır. Belə bir insanla necə dost olmayasan?!

Onun son dərəcə sadəliyi, səmimiliyi, öz peşəsini yüksək səviyyədə bilməsi onu tanıyanlar, iş yoldaşları arasında ona böyük hörmət və məhəbbət qazandırıb. Sadəlik və səmimilik onun ayrılmaz yol yoldaşıdır. O, üzdə sadə, mənəviyyatca zəngin bir insandır. Bu zənginlik onun hərəkətlərində, söhbətlərində, başqaları ilə ünsiyyətdə özünü tamamilə təsdiqləyir.

Mən bu gün Bəhram müəllimlə yaratdığım əlaqələrin yoluna nəzər salaraq düşünürəm: Bu dostluqdan nə qazanıb, nə itirmişəm? Heç bir şey itirməmişəm, qazandıqlarım isə sayagəlməzdir. Səmimi, sədaqətli, yüksək insani keyfiyyətlərə malik bir dost qazanmışam. Elə bir insan ki, onun övladları da dosta ən yaxşı arxadırlar. Mən tam arxayınam ki, həm Bəhram müəllimin, həm də mənim övladlarım bu dostluğu qiymətli bir nemət kimi qoruyub saxlayacaqlar.

Mənim Bəhram müəllimlə dostluğumun gücündən aşağıdakı misralar yaranmışdır:

Bir aqildən soruşdular:
Dost yaxşıdır, yoxsa qardaş?
Dedi: qardaşın qardaşdır,
Yaxşı dosta de sən qardaş.

****

Dost həyatda müxtəlifdir
Çörək dostu, gərək dostu
Belə dostlar naxələfdir,
Əsil dostdur ürək dostu.

****

Süfrəndə nemətin bolsa,
Ürək dostu çox sevinər
Darda qalsa naxələf dost

Kömək etməz, qoyub gedər.

****

Gərək dosta lazım gəlsən,

Tapar səni harda olsan.

Ona lazım deyilsənsə,

Axtarmaz da darda qalsan.

****

Bəhram müəllim ürək dostum

İşlərimə gərək dostum

Qohum-qardaşdan irəli,

Ürək dostum, ürək dostum.

# VAXTSIZ ÖLÜM

"Xoşbəxt o insandır ki, övlad dağı
görməyib" (Süleyman Rəhimov)

Vaxtsız əcəl heç qapını döyməsin,
Xudam görüm quluna da qıymasın.

Övlad müsibətini Allah heç düşmənimə də göstərməsin. Çox çətin və dözülməzdir. Ailəyə və övlada daha çox bağlı olanlarda isə bu müsibət daha dözülməz olur. Bunu deməklə mən heç də yaxşı və ya pis valideyn bölgüsü aparmaq istəmirəm. Lakin belə müsibətlər baş verəndə bir qisim insanlar bu dərdə tab gətirə bilir və bunu həyatın bir üzü kimi qiymətləndirir. Belə hallara dözə bilməyənlərin isə vay halına.

Mən 70 yaşımı haqlamışam. Necə deyərlər, həyatın hər üzünü görmüşəm, lakin övlad müsibəti görməmişəm. Bəlkə ona görədir ki, bütün varlığım sarsıyıb. Çox qəribədir: deyirlər ürək yanmasa, gözdən yaş çıxmaz. Mənim ürəyimə çal-çarpaz dağ çəkilib, oğlumun müsibəti gündə məni yüz dəfə "öldürür", bəs niyə gözlərim yaş tökmür? Kənardan mənə baxanlar yəqin məni daşürəkli adlandırırlar. Oğlum Qabili qəbirə sallayanda bütün bədənim lərzəyə gəldi. Ah-nalə göylərə ucaldı, göz yaşları sel-suya döndü. Bir mənim gözümdən yaş gəlmədi. Bu atalar sözü doğru olsaydı, mən də onların sırasında olardım. Oğlumun anası, qardaşları, yeganı bacısı, bəxtiqara zövcəsi, körpə balaları göz

yaşlarından məhv olurdular, mən isə varlığımdan ayrılmışdım. Qoy, o, böyük yaradana xoş getsin, bəlkə onlar göz yaşları ilə dərddən-qəmdən uzaqlaşırdılar. Mən isə…

Həmin dəqiqələrdə göylərə əl açıb yerindəcə məhv olmağımı arzulamışam. Lakin hər şey sənin arzuladığın kimi olsaydı, nə vardı ki…

Başdan-ayağa təzadlarla dolu olan bu dünya hərəni bir vəziyyətə salır. Neyləməli, hər kəsin taleyinə nə yazılıb, o da olacaq. Bizim istədiyimiz kimi olsaydı dünya təzadsız və mənasız olardı.

Dünya çarxı əvvəldən elə qurulub ki, hər bir insan həmişə öz taleyinin arxasınca sürünür. Bəzilərinin taleyi onu arzu etdiyindən də şən bir aləmlə qarşılaşdırır. Bəzilərini isə qaranlıq bir dünyaya atır. Mənim əziz balamın taleyi kimi ölüm onu elə bir aləmə apardı ki, hələ oradan xilas olmağın yolunu heç kəs tapmayıb. Özü də ömrün cavan çağlarında. Belə anlarda böyük Səməd Vurğunun aşağıdakı misraları yada düşür:

Uzaqda buludlar dağılır lay-lay,
Yenə öz yerində yuvarlanır ay
Fəqət nə Cəlal var, nə də ki, Humay.
Nə ömrə acıyır, nə yaşa dünya.

Şairin qəhrəmanları Cəlal və Humay həyatı hələ yenicə qurmağa başladıqları vaxt fələk ömürlərinə balta çaldı. Bu dünya onların nə yaşına, nə ömrünə acımadı. Mənim əziz balam Qabilin də taleyi belə

oldu. Ölüm nə onun yaşına baxdı, nə də ömrünə. Həmişə belə olub və bu dünya necə ki var, belə də olacaq.

Bəzən insan bir əzizini itirəndə fikirlƏŞİR ki, görən bundan qaçmaq olardımı? Bəlkə o, belə hərəkət etsəydi, bu cür olmazdı. Mən böyük bir ömür yolu keçmişəm, bu həyatın hər üzünü görmüşəm. Həmişə insanlar belə düşüncələr içində yaşayıb, lakin taleyinə nə yazılıb o da olub.

Havayı yerə deyilməyib ki, sən saydığını say, gör fələk nə sayır. Əzəldən taleyin nə demək olduğuna bu bir işarədir.

Bəs onda "ölümə çarə yoxdur" deyimi … Həyat yenicə açılmış ətirli güllər, ölüm isə payızın xəzan yarpağına bənzəyir. Bu qanunauyğunluq dünya yaranandan var və axıra qədər davam edəcək.

Əzəldən belədir çünki kainat
Cahan daimidir, ömür əmanət.

Bəli, ömür insana əmanət verilir, onu nə almaq, nə də satmaq mümkün deyil. Bir də ki, hər kəs istədiyi vaxt ölsəydit, Dədə Qorqud demişkən dünyanın "ölümlü-itimli dünya" adında iki başı olmazdı.

Xalq şairi Bəxtiyar Vahabzadənin misraları yada düşür:

Bu nədəndir ki, ölüm
Heç kəsin həyatına
Vaxtında gəlmir ancaq.

Aqillərdən biri deyib ki, öləndən sonra məni yatdığım torpaqda deyil, yaxınlarımın ürəyində axtarın.

Bəli, əziz balam! Sən ata və ananın, qardaşlarının, yeganə bacının, cüt balanın, səni istəyənlərin ürəyindəsən. Neçə ki, bu ürəklər döyünür, sən varsan, yaşayırsan.

Dərd ağır olanda dözmək olmayır,
Qaməti düzəldib gəzmək olmayır.
Yerini boş görrəm, dözmək olmayır
Qatil, sənin əlin qurusun.

***

Cüt balana baxıb özünü görrəm,
Gəzdiyin hər yerdə izini görrəm.
Məzarına baxıb gözümü görrəm
Qatil, sənin əlin qurusun.

***

Atan ƏŞİR günü-gündən əriyir,
Təsəlli tapmayıb məzarına dəyir.
Yaşamaq istəmir, ölmək istəyir.
Qatil, sənin əlin qurusun.

## ATA YURDUM, ANA VƏTƏNİM AŞAĞI MOLLU HAQQINDA BİR NEÇƏ SÖZ

Mən yuxarıda qeyd etmişdim ki, Aşağı Mollu kəndinin ulu babaları vaxtilə buraya İrandan köçüb gəlmişlər. İranın Şamolular kəndinin əhalisi vaxtilə bizim kəndi yaylaq yeri seçmiş və gəlib burada yaylayırlarmış. Sonralar tədricən onların bir qismi buranı özlərinə əbədi məskən seçib, burada yaşamışlar. Mollu sözünün mənşəyi də Şamolular sözündən əmələ gəlib. Şamolular sözü fonetik dəyişməyə uğrayaraq mollu sözü ilə əvəzlənmişdir.

Görünür, onların buranı seçməsi bu diyarın əsrarəngiz gözəlliyi, saf havası və saf suyu ilə bağlı olmuşdur. Bu diyar, həqiqətən gözəl diyardır. Ata yurdum, Ana vətənim olduğuna görə demirəm. Buranın gözəlliyini hər bir mollulu, buraya qədəm qoyan hər bir insan təsdiq edər. Burada hər dağın-dərənin, hər gülün-çiçəyin özünəməxsus bənzərsizliyi insanı heyran edir. Mən hərdən fikirlƏŞİRəm ki, görəsən dünyada elə yer olarmı  ora Molluya tay-bərabər olsun. Bu dağların gözəlliyinə, təkrarsız mənzərəsinə, saf suyuna və saf havasına çox şerlər həsr olunub. Lakin bunlar həmin gözəlliyi tam əks etdirə bilməyib

İlin bütün fəsillərində bu diyar gözəl olur. Qış ağ donunu geyinəndə də , yaz gül-çiçəyə bəzənəndə də. Bu diyarın gecəsində də , gündüzündə də bir romantik gözəllik var.

1993-cü ildə Molludan ayrılarkən isti-isti indiki qədər ürəyim qubar eyləmirdi. Bəlkə də bu ona görə idi ki, hesab edirdim ki, tezliklə qayıdacağıq. Vaxt uzandıqca, aylar, illər sürətlə bir-birini əvəz etdikcə yaman darıxıram. Mollu gecələr də yuxumdan çıxmır. Qəribədir, hərdən yuxuda özümü orada hiss etdikdə də, darıxıram. Elə bil mənə əyan olur ki, mən ermənilərin əhatəsindəyəm. Tez uzaqlaşmaq istəyirm. Nə isə…

Deyirlər insan öz ömrünün iki çağında uşaq xasiyyət olur. Bir həqiqi uşaqlıq dövründə, bir də ahıl, qoca yaşlarında . İndi mən buna inanmışam. Fərq ondadır ki, uşaqlıq dövründə hələ dünyanı dərk etmədiyin üçün hər bir şeyin fikrini çəkmirsən, heç şeyi vecinə almırsan, heç şey haqqında düşünmürsən. Qocalıq dövrünün uşaqlığı isə tamam bam-başqa şeydir. Uşaqyaş olmasan da uşaqxasiyyət olursan və bu da səni burulğanlar içində boğur. Nə qədər çalışsan da, düşünsən də bu burulğandan xilas ola bilmirsən.

Uşaqlıq dövründə başına bir qəza gələndə başqasının üstünə gedirsən, səndən böyüklər səni xilas edir. Qocalıq dövründə isə bu çox çətin olur. Bu dövrdə dərdini çox adama deyə bilmirsən, çox zaman isə bundan xilas olmaq ətrafdakılardan asılı olmur. İstəyirsən gündə yüz adama yalvarım kim mənim dərdimə çarə edəcək, kim mənim Mollumu mənə qaytaracaq. Namiq Qaraçuxurlunun misraları yada düşür:

Nə yaman bir dərdə düşmüşük, Allah
Kədər bizə olub şah.

Doğrudan da, qəm-qüssə, kədər, dərd üzərimizdə hökmranlıq edir. İstəyirlər hər gün mənə yağ-bal yedirsinlər, dünyanın ən yaxşı yerlərinə istirahətə gönədirsinlər, fərq etməz, mən Vətənimi istəyirəm…

Belə bir əfsanə danışırlar ki, bir padşah bir quş saxlayırmış. Ona qızıldan qəfəs düzəldibmiş, quşa qulluq edənləri varmış, padşah ona qulluq edilməsinə özü nəzarət edirmiş. Bir gün quşabaxandan soruşur ki, quşum necədir? Quşa qulluq edən cavab verir ki, möhtərəm padşah, quş hər gün ah-vay içərisində yaşayır, hər gün vətən-vətən deyə göz yaşı tökür. Padşah qəzəblənir və deyir ki, o, bundan da artıq bir yer istəyir? Əmr edir ki, onun ayağına bir sap bağlayın, buraxın görək haradır onun vətəni. Belə də edirlər. Quş uçaraq uzaq meşədə çör-çöpdən hörülmüş bir yuvaya qonur və sənin çör-çöpünə qurban olum, yuvam, -deyə göz yaşı tökür.

Bəli, burada böyük bir həqiqət var. "Hər kəsə öz eli-obası, Vətəni əzizdir"  zərb -məsəli də elə bu deməkdir.

Vətən çox şirindi, düşərmi dildən,
Bülbül həsrət çəkər bağçada güldən
Mən vaxtsız ayrıldım obadan-eldən
Əllərim uzalı qalıb ey Vətən.

Günü-gündən nisgilim artır. Molludan ötrü, ata yurdum, ana vətənimdən ötrü çox darıxıram. Mollu mənim üçün getdikcə daha çox müqəddəslƏŞİR. Kaş bir quş olaydım, qanad açaydım, qərib bir axşam

çağı kəndimizdə yerə enəydim. Evimizin-eşiyimizin yerləşdiyi torpağı-daşı qucaqlayıb öpəydim. Doyunca ağlayaydım. Anamın qərib məzarı üstünə uzanıb əbədiyyətə qovuşaydım.

# VAHİD AĞAYEV

1993-cü il hadisələri Mollu camaatını öz yurd və yuvalarından didərgin saldı. Qaçqınlıq və köçkünlüyün ağır günləri başlandı. Ölkə ağır vəziyyət içərisində idi. Yaxşı ki, belə bir vaxtda Vahid Ağayev kimi xeyirxah insanlar tapıldı. O ağır günlərdə Mollu kəndinin ərazisində yerləşən mərmər sexinin rəisi Vahid Ağayev Azərbaycan xalqının təbiətinə məxsus bir xeyirxahlıq etdi. Camaatın köçürülməsində və yerləşdirilməsində vətənpərvərlik göstərdi. Özünün və ailəsinin Sumqayıt şəhərində yaşamasına baxmayaraq Mollu camaatının ağır qayğıları ilə yaşadı. Maşınlar təşkil etdi, əhalinin Sumqayıtda müəyyən yataqxanalarda, tdarə binalarında yerləşdirilməsini təşkil etdi. Bir sözlə, kənd camaatına əlindən gələn köməyi etdi. Əlbəttə, imkanı olan belə adamlar az da olsa, bu azlığın içərisində xeyirxahlığı, vətənpərvərliyi ilə fərqləndi.

Vətənin, xalqın dar günlərində öz camaatı ilə yaxın olması, onların əlindən tutması camaatımız tərəfindən həmişə hörmətlə yad edilir.

# QUBADLININ ADLI-SANLI ADAMLARI VƏ ZİYALILARI

Azərbaycanın əzəli və əbədi torpağı olan Qubadlı tarixin bütün mərhələlərində öz adlı-sanlı adamları, yazıçıları, hərbçiləri, elə-obaya həmişə arxa olan ziyalıları, ağsaqqal insanları ilə fərqlənən bir el olubdur. Qubadlı torpağının yetişdirdiyi bir sıra insanlar təkcə Azərbaycanda yox, demək olar ki, həm də dünyada tanınıb.

Qubadlı torpağından ərsəyə gələn dahi sənətkar Süleyman Rəhimovun romanları, povestləri dünyanın əksər xalqlarının dilinə tərcümə olunub, onlar tərəfindən sevilə-sevilə oxunub. Onun haqqında təkcə SSRİ xalqlarının böyük ədibləri, yazıçı və şairləri deyil, dünyanın ən nəhəng ədəbiyyatşünasları çox yüksək fikir söyləyib, əsərlərinə yüksək qiymət veriblər.

Valeh Bərgüşadlını, Tahir Əliyevi, Arif Heydərovu, görkəmli partiya və dövlət xadimləri Məmməd İskəndərovu, Kamran Hüseynovu, Nəzər Heydərovu, Eldar Baxışı, Çingiz İldırımı, Cəlal Bərgüşadlını, Əsgər Abdullayevi, Mehbalı Əmiraslanovu, Həbib Şirinovu, Bahadır Həziyevi, Həzi Həziyevi və onlarla adını çəkə bilmədiyimiz insanları kim tanımır, onların vətən qarşısında xidmətlərini yad etmir.

Qubadlı təkcə bu adamlarla yox, həm də eldə-obada mürşüd kimi tanınan Mir Məhəmməd, Mir Sədi, Hacı Qasım Çələbi, Bəhlul Əfəndi kimi xalqa doğru yol göstərən adamları ilə də məşhur olmuşdur. Təəssüf

ki, adını axırda çəkdiyimiz bu adamlar terrora və təqibə məruz qalmışlar. Lakin el-oba belə insanları heç zaman unutmayıb və unutmayacaqdır.

Kitabın bu bölməsində əldə etdiyimiz materiallar əsasında bu şəxsiyyətlərin bir qismi haqqında məlumat verməyi özümə borc bildim.

## ABDULLAYEV ƏSKƏR ƏLƏKBƏR oğlu

Abdullayev Əskər 1927-ci ildə Qubadlı rayonunun Eyvazlı kəndində anadan olub. Orta məktəb təhsilini Kəlbəcər rayonunda almışdır.

1949-cu ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft və kimya Akademiyası) bitirmiş, mühəndis-elektrik ixtisasına yiyələnmişdir. Azərbaycan Elmlər Akademiyası tərəfindən Moskvaya SSRİ Elmlər Akademiyasının Avtomatika və telemexanika institutunun aspiranturasında təhsilini davam etdirmişdir.

1953-cü ildə texnika elmləri namizədi adını alaraq Bakıya qayıtmışdır. Bakıya qayıtdıqdan sonra Azərbaycan Maşınqayırma institutunun tərkibində avtomatika və telemexanika laboratoriyasını yaradıb, ona rəhbərlik etməyə başlamışdır. Sonra isə həmin laboratoriyanın bazası əsasında Sumqayıtdı neft və kimya sənayesində kompleksli avtomatlaşdırma elmi-tədqiqat layihə institutunun yaratmışdır. Bu institut az bir müddət ərzində dünya miqyasında neft sənayesi üçün avtomatlaşdırma vəsaitləri və idarə sistemlərinin yaradılması və tətdiqi sahəsində tanınmışdır.

1985-ci ildə isə Ə.Abdullayevin proyekti əsasında Azərbaycan "Neftqazavtomat" elmi istehsalat birliyi yaradılmışdır.

Ə.Abdullayev həm də respublikada cihazqayırma sənayesinin təşəkkül tapmasında  və bu sahənin genişləndirilməsində böyük xidmətlər göstərmiş və cihazqayırma sənayesi müəssisələri direktorlar şurasının sədri olmuşdur.

Ə.Abdullayev 1969-cu ildə elmlər doktoru adı almıq üçün dissertasiya müdafiə etmiş və Azərbaycan EA müxbir üzvü seçilmişdir.

Ə.Abdullayev 17 kitabın, 200-dən artıq elmi məqalənin və 70 ixtiranın müəllifi olmuşdur. Onun bilavasitə rəhbərliyi ilə 40 nəfər elmlər namizədi və doktoru hazırlanmışdır.

Əldə etdiyi nailiyyətlərə görə  Ə.Abdullayev 1969-cu ildə SSRİ Dövlət mükafatına və 1988-ci ildə SSRİ Nazirlər Soveti mükafatlarına layiq görülmüşdür. Bunlardan başqa Ə.Abdullayevin  elmi xidmətləri "Oktyabr inqilabı", "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" orden və medalları ilə mükafatlandırılmışdır.

Böyük alimin xidmətləri Azərbaycan xalqı tərəfindən heç bir zaman unudulmayacaqdır.

# HƏSƏN ŞİRALI OĞLU SADIQOV

Həsən Şiralı oğlu Sadıqov 1928-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olmuşdur. Erkən atasını və anasını itirmiş, dayısı Bəylər Əliyevin himayəsi ilə təhsil almağa başlamışdır. Lakin tale tezliklə bu qayğıkeş insanı da onun əlindən almışdır. Kimsəsiz qalan H,Sadıqov Gəncə şəhərinə gedir və baytar-feldşer ixtisasına yiyələnir. Sonra Şuşa zoobaytar texnikumunda təhsilini davam etdirmişdir. Lakin təhsilini yarımçıq qoyaraq ordu sıralarına gedir. Daha sonra öz arzusu ilə Ukraynanın Xerson şəhərində hərbi məktəbində oxuyur, serjant və 2-ci dərəcəli radist ixtisasına yiyələnir. Bu ixtisas üzrə Krım vilayətinin Krasnoperekopski rayonunda hərbi işdə çalışır. 1953-cü ildə həmin rayonda orta məktəbi başa vurur.

H.Sadıqov 1955-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və ədəbiyyatı institutuna daxil olur və oranı qurtardıqdan sonra Saatlı rayonunda müəllimlik edir.

1961-64-cü ildə Sumqayıt şəhərindəki 5, 7 və 9 nömrəli məktəblərdə müəllim, sonra isə məktəb direktoru işləyir. 1964-cü ildə Azərbaycan Elmlər Akademiyası Fəlsəfə və hüquq institutunun aspirantı olur. Sonra Sumqayıt şəhəri partiya komitəsində işlyəir. Lakin elmə olan böyük marağı onu partiya işindən ayırır.

H.Sadıqov 1968-ci ildə namizədlik, 1984-cü ildə isə doktorluq dissertasiyası müdafiə edir və M.Əzizbəyov adına Neft və kimya instiututunun fəlsəfə və elmi kommunizm kafedrasının əvvəlcə aspirantı, sonra isə baş müəllimi işləyir. 1972-ci ildə həmin institutun Sumqayıt filialının ictimai elmlər kafedrasının müdiri seçilir. O vaxtdan hal-hazıra qədər dosent, professor kimi həmin vəzifədə işləyir. H.Sadıqovun fəlsəfə elminin müxtəlif sahələrinə aid onlarla kitabı, yüzlərlə məqaləsi vardır. Gənc kadrların hazırlanmasına da onun böyük xidmətləri vardır. Bu gün də Azərbaycanda elmə qədəm qoyan gənclərin yetişdirilməsində Həsən müəllim kimi müdrik alimlərimiz böyük rol oynayırlar. Bu kiçik yazını Həsən müəllimin bir kiçik etirafı ilə tamamlamaq istəyirəm. O yazır ki, mənim bu zirvəyə çatmağımda həmişə mənə dayaq olmuş, ailəmin gündəlik qayğılarını öz üzərinə götürmüş ömür-gün yoldaşım həkim Tamilla xanıma hədsiz minnətdaram.

# İSAXOV MƏHƏMMƏD İSMAYIL OĞLU

İsaxov Məhəmməd İsmayıl oğlu yaxın keçmişimizin görkəmli ictimai xadimi və xalq müəllimi kimi tanınmış bir şəxsiyyət olub. Çox əzablı və keşməkeşli bir həyat yolu keçən bu insanın idealı həmişə xalqa xidmət etməkdən ibarət olub.

O, ilk təhsilini o vaxt Qubadlı, Laçın və Zəngilan rayonlarını əhatə edən rus məktəbində alıb. Bu məktəbdə təhsil aldıqdan sonra Bakıya gəlmiş Nobel qardaşlarının mədənində fəhlə , telefonçu və kiçik kontor işçisi olmuşdur. Sonra inqilabçılar sırasına daxil olaraq Sovet hökumətinin düşmənlərinə qarşı mübarizə aparmışdır.

Bundan sonra yaşının çox olmasına baxmayaraq Bakıda fəhlə fakültəsində təhsilini davam etdirir, sonra Azərbaycan Dövlət Darülfünunun təbiət fakültəsində təhsil alır.

Ali təhsilinin başa vrduqdan sonra Azərbaycan xalq müəllimlərinin sırasına daxil olur və ömrünün sonuna qədər şərəfli xalq müəllimləri sırasında bir dönməz əsgər kimi dayanır.

Kəlbəcər və Qubadlı rayonlarında xalq maarif şöbələrinə rəhbərlik edir və bütün biliyini bu yolda sərf edir.

Ömrünün son 13 ili ərzində Məhəmməd Sadıxov əvvəlcə Qiyabi Pedaqoji İnstitutun direktoru, sonra isə Azərbaycan Elmi Tədqiqat Pedaqoji İnstitutunda elmi işçi kimi fəaliyyət göstərir. O, həmin illərdə

təlim-tərbiyə işinə həsr olunmuş bir sıra samballı əsərlər yazır. Pedaqoji işi ilə yanaşı "Təbiyyat dərslərində ölkəşünaslıq işləri" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi adını alır.

O, xalq yazıçısı Süleyman Rəhimovun yaxın dostu olmuş və böyük ədib bu dostluğu özünün "Aynalı" povestində vəsf etmişdir.

Məhəmməd İsaxovun keçdiyi həyat və mübarizə yolu böyük bir məktəbdir.

# ELMİRA MƏMMƏD QIZI RƏHİMOVA

Elmira Rəhimova xalqımızın ziyalı oğlu, görkəmli ictimai xadim, xalq müəllimi İsakov Məhəmmədin qızı və xalq yazıçısı Süleyman Rəhimovun gəlini olub.

Elmira Məhəmməd qızı atası kimi respublikamızda tanınmış, ən ləyaqətli xanımlarımızdan biri olub.

Elmira Məhəmməd qızı Rəhimova 1933-cü ildə Bakıda anadan olub. Elmira xanım orta təhsilini başa vurduqdan sonra 1951-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) energetika fakültəsinə daxil olmuş və 1956-cı ildə oranı bitirərək elektrik- mexanik mühəndisi ixtisasına yiyələnib. Əmək fəaliyyətinə 1956-cı ildən Sumqayıt Böru prokatı zavodunda prokat sexinin rəisi vəzifəsində başlayıb.

Elmira xanımın sonrakı əmək faliyyəti isə çox zəngin olub. Belə ki, o, 1957-1961-ci illərdə Neftkimyaavtomat ETİL-də, 1961-1966-cı illərdə keçmiş Azərbaycan SSR Nazirlər Sovetinin Elmi-tədqiqat işlərinin koordinasiyası üzrə Dövlət Komitəsində, 1967-ci ildən 1993-cü ilə qədər Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutunda işləmişdir.

Elmira xanım 1993-cü ildən ömrünün axırına qədər isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətində işləmişdir. O, burada

Xarici Sərmayələr idarəsində məsul vəzifə yerinə yetirmişdir. Həyat yoldaşı xalq yazıçısı Süleyman Rəhimovun oğlu Arif Rəhimovdur. Belə xanımlarımızın həyat yolu həqiqi mənada bir məktəbdir.

## BAHADIR ASLAN oğlu HƏZİYEV

Bahadır Həziyev Qubadlının Qəzyan kəndində anadan olub. Hələ uşaqlıqdan fiziki cəhətdən tay-tuşundan fərqlənən Bahadır Həziyev 1946- 1949-cu illərdə hərbi xidməti başa vurub idman ustası kimi respublika yığma komandasına cəlb olunur.

İdman ustası Bahadır Həziyev on dəfə Azərbaycan çempionu adına layiq görülüb. Sonra Yunan-Roma güləşi, sərbəst güləş, milli güləş, ağır atletika üzrə SSRİ idman ustası adını alır. Bundan başqa xalq arasında çıxışları ilə xalq pəhlivanı adına layiq görülür.

1949-cu ildən isə Qubadlı rayonunda idmanın inkişafı, bu sahəyə yeni qüvvələrin gəlməsi üçün böyük əmək sərf edir. Əməkdar məşqçi Bahadır Həziyev Qəzyanda yerləşən evinin birinci mərtəbəsində güləş və atletika zalı yaradır və gənclərin bu işə cəlb olunmasına başlayır.

1952-ci ildən başlayaraq idman sahəsində bir sıra məsul vəzifələri yerinə yetirir. Qubadlı rayon idman komitəsinin, Ovçuluq cəmiyyətinin, DOSAAF-ın, Məhsul Könüllu İdman cəmiyyətinin sədri vəzifələrində çalışır.

Əməkdar idman ustası, dünya çempionu, Afina olimpiadasının gümüş mükafatçısı Məmmədəliyev Heydər Nurəddin oğlu, Avropa çempionu, hərbçilər sırasında dünya çempionu Məmmədov Elsevər

Yusif oğlu, yenə də Avropa çempionu, beynəlxalq dərəcəli idman ustası Məmmədov Məhəmməd Dilən oğlu və bir çoxları Bahadır Həziyevin yaratdığı Yunan-Roma güləş məktəbinin yetişdirmələridir.

Hazırda Bahadır Həziyevin övladlarından və digər gənclərimizdən ibarət böyük bir dəstə onun işini davam etdirir. Ruhu şad olsun!

## SƏRXAN BABAŞ oğlu QULİYEV

Beynəlxalq dərəcəli qrossmeyster Sərxan Babaş oğlu Quliyev 1968-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra 1985-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuş və 1992-ci ildə oranı bitirərək mühəndis-iqtisadçı ixtisasına yiyələnmişdir.

1994-cü ildə "Rusiya Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası"nda oxumuş və 1996-cı ildə oranı bitirərək "Ali dərəcəli məşqçi" rütbəsini almışdır. 1997-ci ildə isə həmin Akademiyanın şahmat kafedrasında aspiranturaya qəbul olunmuş və eyni zamanda orada müəllim işləmişdir.

1992-ci ildə Beynəlxalq usta, 1995-ci ildə isə Beynəlxalq qrossmeyster rütbəsinə yiyələnmişdir. Moskva-1994, Elista-1998 ümumdünya şahmat olimpiadasında və Pula-1997 Avropa komanda birinciliyində Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Sonra Veloreçensk –1991, Fridik – Mistik – 1992, Çessko-Budoyovistsa – 1992, Minsk-1994, Vladivostok – 1994, Moskva – 1995, Tehran – 1999, 2000, İzmir – 2000, Bakı – 1994-cü il beynəlxalq yarışlarının qalibi olmuşdur. Sərxan Quliyev 17 dəfə müxtəlif səviyyəli yarışlarda Azərbaycan yığma komandasının tərkibində çıxış etmişdir.

Sərxan Quliyev həm də şahmat nəzəriyyəçisidir. "Namizədlikdən qrossmeystrliyədək" (Moskva, 1997), "Şahmat dərs vəsaiti" (Tehran, 2002), "Standart şahmat sonluqları" (Bakı, 2002) və daha bir sıra kitabların müəllifidir.

O, Türkiyə və İran milli yığma komandasının baş məşqçisi vəzifəsində də işləmişdir.

Azərbaycanın idman şərəfini göylərə qaldıran Sərxan Quliyevə yeni-yeni uğurlar arzulayırıq.

## ƏMƏKDAR MÜƏLLİM ƏLİF İSMAYILOV

İsmayılov Əlif Qulu oğlu 1919-cu ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olub və 1953-cü ildə oranı bitirib. Universitet təhsilini başa vurduqdan sonra əvvəlcə tarix müəllimi və sonra isə kəndlərində məktəb direktoru vəzifəsində işləyib.

Yaxşı müəllim və yaxşı məktəb direktoru kimi respublika müəllimlər qurultayının iştirakçısı olub. Rayon partiya komitəsi plenumlarının, konfranslarının iştirakçısı olub, büro üzvü seçilib. Rayon ictimaiyyəti arasında böyük nüfuz qazanıb. Bütün bu işlərinə görə bir neçə ordan, medal və fəxri fərmanla təltif olunub. Onun əməyinə verilən ən şərəfli ad isə "Əməkdar müəllim" adıdır. Əlif İsmayılov deyərdi ki, mən bu mükafatlardan daha çox yetişdirdiyim tələbələrlə fəxr edirəm. Bu doğrudan da belədir. Onun yetişdirdiyi gənclərin sorağı respublikamızın hər yerindən gəlir. Fəxr etdiyi işə layiq olub, Əlif müəllim!

Əlif müəllim ailə başçısı kimi də nümunəvi bir insan olub. İki oğul, dörd qız tərbiyə edib, hamısına təhsil verib. Belə insanların həyat və fəaliyyəti bir məktəbdir. Bu məktəbin dərslərini unutmaq olmaz.

# MƏHƏRRƏMOV MİRZƏ MEHDİ oğlu

Məhərrəmov Mirzə 1940-cı ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. Hələ kiçik yaşlarından təbiətin gözəlliklərinin vurğunu olub. 1959-cu ildə hərbi xidmətə yollanır. Elə hərbi xidmətdə olarkən ilk yazısı 1961-cı ildə Zaqafqaziyada Hərbi Dairəsinin orqanı olan " Krasnaə Zvezda" qəzetində dərc olunur. Bu yazı onu yazıb-yaratmağa həvəsləndirir. 1962-ci ildə hərbi xidməti başa vurub Sumqayıt şəhərinə qayıdır və həmişəlik taleyini bu şəhərlə bağlayır. Sumqayıt o dövrdə qaynar qazana bənzəyirdi. SSRİ-nin hər yerindən bu şəhərə gənclərin axını başlamışdı. Mirzə müəllim də bu axına qoşularaq gələcəyə yol açmaq barədə düşünür. Sumqayıta gələn kimi işə qəbul olunur və işləyə-işləyə fəhlə-gənclər orta məktəbində təhsil alır. 1966-cı ildə orta məktəbi başa vuraraq sənədlərini o zamankı V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna verir və həmin institutu 1973-cü ildə qurtarır. Bundan sonra onun yaradıcılıq qabiliyyəti daha da parlayır. "Sosialist Sumqayıtı", "Avanqard", "Gənc müəllim" qəzetlərində müxtəlif mövzulara həsr edilmiş məqalələrlə çıxış edir.

Yaradıcılıqla yanaşı əsl peşəsi olan müəllim kimi fəaliyyətini davam etdirir. İndi onun bu sahədə 36 illik təcrübəsi var.

"Düşüncələr", "Müxtəlif çiçəklər", "Ayı , köpək və qurd", "Heydər baba – Heydər Dədə" kimi oxucular tərəfindən maraqla qarşılanan kitabların müəllifidir.

Mirzə müəllim 60 yaşını başa vursa da, yaradıcılığını başa vurmaq fikrində deyil. Ona uğurlar arzulayırıq.

# PARTİYA İŞÇİSİ VƏ İLK ZABİT İSMAYILOV HÜSEYN QULU oğlu

O, 1905-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. İlk təhsilini atası Qulu yüzbaşının 1924-cü ildə Molluda öz evində açdığı məktəbdə alıb. Sonra isə Şuşa pedaqoji texnikumunu qurtarıb və rayonun müxtəlif kəndlərində müəllim işləyib. Ali təhsilini isə Bakı Pedaqoji institutunda alıb. Bundan sonra Qubadlı rayon partiya komitəsində əvvəlcə təlimatçı, sonra isə şöbə müdiri işləyib. Yaxşı partiya işçisi kimi onu Partiya məktəbinə göndəriblər. Oranı qurtardıqdan sonra 1942-ci ildə könüllü olaraq müharibəyə gedib. Həmin il onu Xosavyurdda açılmış hərbi məktəbə oxumağa göndərirlər. Burada təhsilini başa vurduqdan sonra leytenant rütbəsi alaraq döyüşən cəöhəyə gönədrilir. Qafqazdan başlayaraq vuruşa-vuruşa Berlinə qədər bir döyüş yolu keçir. Müharibənin qızğın vaxtlarında üç dəfə ağır yaralansa da müalicə alıb yenidən cəbhəyə qayıdır. Döyüşlərdə göstərdiyi igidliyi və şücaəti üçün o, "Qırmızı Ulduz" ordeni, "Qafqazın müdafiəsi", "Berlinin alınması", "Qələbə" medalları ilə təltif olunur. Bunlardan başqa bir neçə dəfə Ali Baş Komandanın təşəkkürünə layiq görülür. Müharibədən qayıtdıqdan sonnra Qubadlı rayon partiya komitəsində, sonra isə məktəb direktoru

vəzifəsində işləyir. Nümunəvi ailə başçısı olub. Üç oğlu və üç qızının hamısına ali təhsil verib.

Elimiz-obamız onun xatirəsini həmişə hörmətlə yad edir.

## İSMAYILOV TEYYUB ALLAHVERDİ oğlu

İsmayılov Teyyub 1947-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olub və 1969-cu ildə orada təşhsilini başa vurub .

1969-cu ildə təhsilini başa vurduqdan sonra ordu sıralarında qulluq edib. Ordudan qayıtdıqdan sonra Yusif Məmmədəliyev adına Neft-Kimya prosesləri institutuna girib. 1971-ci ildə isə həmin institutun aspiranturasına daxil olub. Mərhum akademik Vahab Səfər oğlu Əliyevin rəhbərliyi altında "Aşağı molekullu olefinlərin olimerləşməsi" mövzusunda elmi işini başa çatdırır və həmin mövzuda namizədlik dissertasiyası müdafiə edərək, kimya elmləri  namizədi adını alır. Elə o vaxtdan indiyə qədər həmin institutda işləməklə elmi işini davam etdirir. Apardığı elmi-tədqiqat işlərinə dair 50-dən artıq məqaləsi dərc olunub. Ondan artıq müəlliflik şəhadətnaməsi alıb. Alimin elmi məhsulu olan bütün bu işlərin həm nəzəri və həm də praktiki əhəmiyyəti vardır.

Teyyub İsmayılov iki oğul və bir qız atasıdır  Böyük oğlu İsmayıl Moskva Dövlət Universitetinin IV kurs tələbəsidir. İkinci oğlu İsmayılov Elçin də ali məktəbdə oxuyur. Günel isə hələlik orta məktəbdə təhsilini davam etdirir.

## KƏNDİMİZİN İLK HƏKİMİ İSMAYILOV TOFİQ HÜSEYN oğlu

Bəli, hər bir kəndin ilk müəllimi, ilk mühəndisi olduğu kimi ilk həkimi də olur və bu ad həmişə eldə-obada dilə-ağıza düşür.

İsmayılov Tofiq Hüseyn oğlu da bizim kəndin ilk həkimi kimi dillər əzbəri olub. Yəni kəndimizdən ilk dəfə həkimlik peşəsi dalınca gedən ilk insan olub.

İsmayılov Tofiq Hüseyn oğlu 1947-ci ildə Mollu kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra 1964-cü ildə sənədlərini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb institutuna verib və qəbul olub. 1970-ci ildə institutu müvəffəqiyyətlə başa vuraraq təyinatını Sumqayıt şəhərinə alıb. Fəaliyyətə Sumqayıt şəhər 2 saylı xəstəxanasında burun-boğaz-qulaq həkimi kimi başlayıb. Bu illər ərzində peşəsinin sirrlərinə ürəkdən yiyələnib. Elə bunun nəticəsidir ki, 2 saylı xəstəxanada onu burun-boğaz və qulaq şöbəsinə müdir təyin ediblər və hazırda bu şöbəyə rəhbərlik edir.

İsmayılov Tofiqin iki oğlu və bir qızı da ali təhsil alıblar. Elimizdən-obamızdan həkim adını daşıyanlar çoxalsa da bizlər həmişə onu ilk həkim kimi tanıyıb, ona böyük hörmət bəsləyirik.

## HÜMBƏTƏLİYEV UMUD FƏRMAN oğlu

Xalqımızın tarixində elə adamlara rast gəlinir ki, onlar nə elmlə məşğul olublar, nə də ki, bir başqa işlə. Amma onlar xalqın, elin-obanın hörmət və nüfuzunu qazanıblar və belə adamların əmlləri həmişə yaşayır. Belə insanlardan biri Hümbətəliyev Umud Fərman oğludur.

O, 1907-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olmuşdur. Quba meyvəçilik texnikumunu bitirmişdir. Böyük Vətən müharibəsində iştrak edən minlərlə qubadlılardan biri olmuşdur. Taleyi gətirmiş, müharibədən sağ-salamat evinə qayıtmışdır. Bundan sonra həyatını elinə-obasına sərf etmiş, uzun illər Mollu kəndində kolxoz sədri olmuşdur. İşləmək də var, işləmək də. Bu vəzifəni yerinə yetirərkən rayon və kənd camaatının böyük hörmətini qazanmış, necə deyərlər, hamının əlindən tutmuşdur. 1975-ci ildə vəfat etmişdir. Ölümündən uzun illər keçməsinə baxmayaraq, el-oba, onu tanıyanlar həmişə onu minnətdarlıq hissi ilə yad edir, necə deyərlər, onun haqqında ağız dolusu danışırlar. Xalq, eli-obası ona həmişə "el atası" deyərlərmiş. Əlbəttə, belə bir ad qazanmaq tək-tək adama qismət olur. Bu gün də o, onu tanıyanlar tərəfindən böyük hörmətlə yad edilir.

## HÜMBƏTƏLİYEV RÖVŞƏN ZÜLFÜQAR oğlu

Mollu kəndinin yetişdirmələrindən, eldə-obada hörməti və nüfuzu olan ziyalılarından biri də Rövşən Zülfüqar oğlu Hümbətəliyevdir. O, 1970-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1996-cı ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin il Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat-Mexanika institutunun aspiranturasına daxil olur. 2000-ci ildə aspiranturada təhsilini başa vuraraq, namizədlik dissertasiyası müdafiə edir və fizika-riyaziyyat elmləri namizədi adını alır və dosent vəzifəsini tutur.

Hümbətəliyev Rövşən hazırda Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat-Mexanika institutunun funksional-analiz şöbəsində aparıcı elmi işçi vəzifəsində işləyir və eyni zamanda doktorluq dissertasiyası üzərində işini davam etdirir. Alimin işlədiyi sahəyə aid bir neçə qiymətli əsəri nəşr olunub.

## İSMAYILOV RAFİQ HÜSEYN oğlu

İsmayılov Rafiq 1950-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. İbtidai və orta təhsilini Mollu və Hal kəndlərində başa vurub.

1968-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstiututunun biologciya fakültəsinə daxil olub, 1973-cü ildə həmin institutu qurtararaq bioloq ixtisasına yiyələnib.

İnstitutu qurtaran kimi öz doğma kəndi Yuxarı Molluya təyinatla işə gəlib, əvvəlcə müəllim, sonra isə məktəbə direktor təyin olunub. 1982-ci ildən isə kəndlərində Xalq Deputatları Soveti İcraiyyə Komitəsinə sədrlik etməyə başlayıb.

İsmayılov Rafiq hansı vəzifədə işləməsindən asılı olmayaraq bütün gücünü elinə-obasına sərf edib. Hələ rayonda olarkən həmişə cəbhə xəttində olub, döyüşçülərimizin hərbi və maddi sursatla təmin olunmasında əlindən gələni edib.

1993-cü il hadisələri onu da elindən-obasından ayrı salıb. Hazırda Sumqayıt şəhərində yaşayan Rafiq müəllim həmyerliləri ilə sıx əlaqə saxlayır və onların problemlərinə yaxından kömək edir.

İsmayılov Rafiq həm də nümunəvi ailə başçısıdır. İki oğul, iki qız tərbiyə edib. Qızı Sevda jurnalist peşəsinə yiyələnib, digər qızı Famiyyə Tibb Universitetində oxuyur. Oğlu Hüseyn İqtisad Universitetində oxuyur və Prezident təqaüdçüsüdür.

# SADIQOV ŞAMİ FƏRZƏLİ oğlu

Sadıqov Şamı 1941-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olub və 1965-ci ildə oranı bitirib. Ali təhsilini başa vurduqdan sonra öz doğma kəndi Molluda ixtisası üzrə müəllim işləyib. 1968-ci ildə Azərbaycan EA Neft-kimya Prosesləri İnstitutunun aspiranturasına qəbul olub. 1974-cü ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib.

1971-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Sumqayıt Polimer materialları institutunda əvvəlcə kiçik elmi işçi, sonra isə böyük elmi işçi vəzifəsini tutur.

Hal-hazırda həmin institutun polimerlərin kimyəvi modifikasiyası laboratoriyasına rəhbərlik edir. Onun polimerlər kimyasına dair bir sıra əsərləri nəşr olunub. Bundan başqa polimerlərin kimyəvi modifikasiyasına dair laboratoriyada alınan bir sıra nəticələrdə onun əməyi böyükdür.

## QAFAROV İNŞALLAH İXTİYAR oğlu

Qubadlı mahalından çıxmış alim-ziyalılardan biri də Qafarov İnşallah İxtiyar oğludur.

Qafarov İnşallah Qubadlı rayonunun Mollu kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra 1981-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinə qəbul olub. Universitetdə əlaçı oxuduğu və ictimai işlərdə fəal iştirak etdiyi üçün onu təhsilini davam etdirmək üçün Leninqrad Dövlət Universitetinə göndərirlər. Leninqradda oxuyarkən təhsil əlaçısı kimi fərqlənir və oxuya-oxuya elmi işə maraq göstərir.

Leninqradda təhsilini başa vurduqdan sonra Bakıya qayıdır və elmi iş üzərində işləməyə başlayır. 1996-cı ildə "Şəxsiyyətin ictimai-siyasi fəallığının sosioloji təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək sosioloji elmlər namizədi alimlik dərəcəsi adını alır. Dissertasiya işi müasir dövrün ən aktual problemlərindən birinə həsr olunub, həm nəzəri, həm də praktiki əhəmiyyət kəsb edir.

Alimin şəxsiyyət probleminə aid ondan artıq əsəri çap olunub.

Qafarov İnşallah hazırda Bakı Dövlət Universitetində dərs deyir.

Ailəlidir, bir oğlu, bir qızı var.

## CƏBRAYILOVA ARZU QƏHRƏMAN qızı

Arzı Cəbrayılova 1971-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. Orta məktəbi Sumqayıt şəhərində qurtarıb. Orta məktəbi qurtardıqdan sonra, 1987-ci ildə Sumqayıt şəhərindəki Soltan Hacıbəyov adına musiqi texniumunun tar şöbəsinə daxil olub. Bu texnikumda orta musiqi təhsili aldıqdan sonra 1991-ci ildə Üzeyir Hacıbəyov adına Bakı Dövlət Konservatoriyasının (indiki Üzeyir Hacıbəyov adına Musiqi Akademiyasının) tar şöbəsində təhsilini davam etdirib.

1991-ci ildə xalq artisti, görkəmli müğənni Səkinə İsmayılova Azərbaycanda ilk dəfə qadınlardan ibarət yaratdığı üçlüyün tərkibində Arzu tarda Səkinə xanımı müşayət edir. Bu üçlük Fransa, Almaniya, Rusiya və Türkiyədə konsertlər verir, Parisdə bu üçlüyün qızıl valı buraxılıb.

Arzu xanım hələ orta məktəbdə oxuyarkən "Aşıq Pəri" məclisinin fəal üzvü idi və dəfələrlə sazçı qızlar ansamblı ilə bütün Azərbaycanda konsertlər vermişdi.

Arzu xanım Moskvada keçirilən IV respublika aşıqlar qurultayının (1986-cı il) iştirakçısı olub, dəfələrlə fəxri fərmanlarla təltif olunub.

Arzu Cəbrayılova 1992-ci ildə Türkiyədə yaşayan və əslən azərbaycanlı olan Mühsin Qurbanı ilə ailə həyatı qurub və hazırda Ankara şəhərində yaşayırlar. Mühsin Qurbani 70-ci illərdə Bakıda İslam Rzayevin ansamblında kamança çalan olub. Mühsin özü 70-ci illərdə

Bakıda məhşur tar çalan Abdulla Qurbaninin qardaşıdır. 1984-cü ildə bu ailə Türkiyəyə köçüb. Arzu xanım Türkiyədə öz sənətini davam etdirir. Onun Türkiyədə azəri mahnılarından ibarət klipi və audio kaseti buraxılıb. Yoldaşı Mühsin Qurbani Ankara Dövlət Kültür Bakanlığında kamança şöbəsinə rəhbərlik edir. Bir oğlan övladları var.

# QULİYEV LOĞMAN BABAŞ oğlu

Loğman Quliyev 1974-ci ildə Qubadlı rayonunun Mollu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra ali təhsil almaq üçün sənədlərini Azərbaycan Dövlət İqtisad Universitetinə verir və oranı qurtararaq iqtsadçı peşəsinə yiyələnir.

1998-ci ildən Azərbaycan ordusunda xidmət edir. Ordudan qayıtdıqdan sonra ikinci ixtisas almaq üçün sənədlərini Azərbaycan Dövlət rus dili və ədəbiyyatı institutuna verir və ikinci kursdan Azərbaycan Dövlət Dillər Universitetinə dəyişilir və 2003-cü ildə həmin universitetin ingilis dili fakültəsini bitirir. Hələ universitetdə oxuyarkən şahmata böyük maraq göstərir, bir sıra yarışlarda qalib gələrək şahmat üzrə beynəlxalq usta adına layiq görülür.

Bundan sonra o, respublikada və beynəlxalq aləmdə keçirilən şahmat yarışlarında iştirak edir və uğurlar qazanır.

Loğman Quliyevin beynəlxalq şahmat yarışlarında tutduğu yerlərə nəzər salsaq, onun necə şahmatçı olduğunu aydın görərik. 1994-cü ildə Drezdendə (Almaniya) ikinci yer tutur. Qalan yarışların: Moskva-1995, Krasnoyarski – 1997, Bakı – 1995, Dubay – 2001, Cando (Fransa) 2003 və digər yarışlarda birinci yeri tutmuşdur. Əlbəttə, bütün bunlar Azərbaycan şahmat tarixi üçün qiymətli səhifələrdir.

Loğman Quliyevi həm də nəzəriyyəçi şahmatçı da adlandırmaq olar. Onun bu sahəyə dair şahmatçılar arasında marağa səbəb olan bir

çox məqalələri dərc olunub. Loğman Quliyev uzun müddət Respublika Həmkarlar İttifaqı şahmat-dama klubunda məşqçi-müəllim vəzifəsində işləyib.

Sizə bu sahədə yeni uğurlar arzulayırıq!

Mən əldə etdiyim materiallar əsasında elimizin-obamızın bir sıra ağsaqqal və ziyalı adamları haqqında yazımı yekunlaşdırıram. Bunu da bilirəm ki, bunlar heç də  ziyalı və ağsaqqalarımızın hamısını əhatə etmir. Şirin Vəliyev, Hüseynquluyev Əliş, Quliyev Həbib, Orucov Bəylər, Şükürov Asif, Həsənova Dilşad, Məhərrəmov Nadir, Səfərova Dilrubə, Orucov Ağamirzə kimi ağsaqqal çoxdur.  Onların sayı onlarla yox, yüzlərlədir.

Uzun müddət maarif müdiri işləmiş Vahid Əliyev bir sıra məsul vəzifələrdə işləmiş Əli Əliyev, yenə də təhsilimizin inkişafında xidmətləri olmuş Muradxan Sadıqov, Əbdüləli İmanov, Nizami Rzayev, Bəhram İsakov, Əvəz Hüseynəliyev, İsa Məhərrəmov, həyatdan vaxtsız getmiş oğlum Qabilin ən çox sevdiyi  müəllimlər İskəndər  Məmmədov, Allahverdi Allahverdiyev, Roza Əsgərova, Həsən Əsədov, Hümbət Hümbətov, Rasim Xalıqverdiyev, Müştaba  Məmmədov, Əbdüləli İmanov, Əlif  İsmayılov, Ramiz Abbasov, Fazil  Nəzərov və onlarca başqa ziyalılarımızı minnətdarlıq hissi ilə yad edirəm. Onlara elmimizin-obamızın qarşısında xidmət göstərdiklərinə görə çox sağ olun və dünyasını dəyişənlərə ruhunuz şad olsun deyirəm.

# BİR OCAĞIN ÖVLADLARI

Qubadlının adlı-sanlı adamlarından, görkəmli ziyalılarından danışarkən xeyirxahlığı, elə-obaya bağlılığı ilə ad-san qazanmış Adıgözəlovlar ocağının yetişdirdiyi insanlar barədə ayrıca söz açmağa ehtiyac duydum. İlk növbədə ona görə ki, bu ocağın böyükləri kimi, övladları da öz həyatlarını xalqına həsr etmiş insanlar olublar.

# ADIGÖZƏLOV SALAM ZEYNALXAN OĞLU

Bu ailənin başçısı Salam Zeynalxan oğlu Adıgözəlov əslən Ermənistanın Sisyan rayonundandır. Lakin onun həyatının böyük bir hissəsi Qubadlı rayonu və onun əməksevər insanları ilə bağlı olub. O, Qubadlı və Zəngilan rayonlarında rayon partiya komitəsinin birinci katibi kimi məsul vəzifələrdə işləyib. O ağır illərdə sözün əsl mənasında bütün zəkasını, biliyini, bacarığını xalqına həsr edib. Partizan dəstələrinin tərkibində əbədi düşmənimiz olan erməni quldurlarına qarşı ölüm-dirim mübarizəsi aparıb. Zəngilan və Qarabağ bölgəsində erməni generalları Heydenin, Dronun, Tevanın quldur ordusuna qarşı igidliklə vuruşan dəstənin komandiri olub. Əlbəttə o ağır illərdə belə bir mübarizəyə qoşulmaq və bu mübarizəyə rəhbərlik etmək olduqca çətin və məsuliyytli bir iş idi. Xalqımızın bir qismini faciə qarşısında qoyan hiyləgər ermənilərə cavab vermək mərdlik və cəsarət tələb edirdi. Salam Adıgözəlov bütün bu işlərinə görə xalq arasında tezliklə məşhurlaşmış və elin-obanın böyük hörmətini qazanmışdır.

Salam Adıgözəlov otuzuncu illərin ortalarında da çox məsul vəzifələrdə olmuşdur. Qubadlıda Daxili işlər şöbəsinin müdiri (NKVD), müharibə illərində və ondan sonra isə rayon icraiyyə komitəsinin sədri kimi məsul vəzifələr yerinə yetirmişdir.

## ADIGÖZƏLOVA ƏMİNƏ TALIB qızı

Adıgözəlovun həyat yoldaşı Əminə Talıb qızı Məmmədova da adlı-sanlı bir ailənin övladı olmuşdur. Xalq yazıçısı Süleyman Rəhimov Adıgözəlovlar ailəsinin yaxın dostu olmuş və bu ailə haqqında onun çox qiymətli xatirələri vardır. O, bu ailənin xanımı Əminə xanım haqqında demişdir ki, Qubadlının iki gözəl qızı vardı ki, onlardan biri Əminə idi. Qaçaq Nəbinin ən yaxın qohumlarından olan Əminə xanım da şərəfli bir həyat yolu keçmişdir. O, müəllim adını ləyaqətlə ucaltdığına, bu sahədə əldə etdiyi böyük uğurlara görə Moskvada keçirilən müəllimlər qurultayına nümayəndə seçilmiş, əməkdar müəllim adına layiq görülmüş, 1940-cı ildə SSRİ Ali Sovetinin Rəyasət heyəti tərəfindən "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Salam kişini və onun ömür yoldaşı Əminə xanımı eldə-obada məşhurlaşdıran səbəblərdən biri də onların hər ikisinin ağır illərdə xalqın əlindən tutmaları, imkansızlara maddi cəhətdən kömək etmələri olmuşdur.

Ailənin böyük oğlu professor Fikrət Adıgözəlov öz xatirələrində yazır ki, ata və anamı elə bil ki, "Allah bir xasiyyətdə, bir düşüncədə yaratmışdı. Qapımıza gələn elə bir adam tapılmazdı ki, istədiklərini alıb-getməsinlər. Çox alicənab, əliaçıq və xeyirxah insanlar idilər. Onların hərəkətlərində müşahidə etdiklərim xeyirxah əməllər mənim psixologiyama da dərin izlər buraxıb".

Onlar həm də yaxşı ata və ana olmuşlar. Beş övlad böyüdüb tərbiyə etmişlər. İndi onların boya-başa çatdırdığı insanlar öz valideynləri kimi xalqımız üçün çox lazımlı insanlardır.

## ADIGÖZƏLOV FİKRƏT SALAM oğlu

Fikrət Adıgözəlov 1943-cü ildə Qubadlı rayonunda anadan olub. Ali təhsilin başa vurduqdan və ordu sıralarında xidməti vəzifəsini yerinə yetirdikdən sonra 1968-ci ildə Azərbaycan Dövlət Plan komitəsinin ET iqtisadiyyat institutunda kiçik elmi işçi, baş elmi işçi işləmiş, 1976-cı ildə isə su resursları və su təsərrüfatı tikintiləri bölməsinə rəhbərlik etmişdir. O, 1983-1991-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri institutunda "Hidrotexnika işlərinin təşkili və texnologiyası" kafedrasının dosenti, 1991-1997-ci illərdə həmin kafedranın professoru seçilmişdir. 1988-1999-cu illərdə isə humanitar və ictimai fənlər kafedrasının müdiri işləmişdir. 1999-cu ilin sentyabrından o, "İnşaatın iqtisadiyyatı" kafedrasının professoru vəzifəsində çalışır.

Fikrət Adıgözəlov elm və tədris ocaqlarında işlədiyi müddətdə su problemlərinə dair dövlət əhəmiyyətli elmi-tədqiqat işləri yerinə yetirmiş, respublikamızda su təsərrüfatı təyinatlı çoxlu tikinti obyektlərinin inşasının səmərəliliyini elmi cəhətdən əsaslandırmışdır. Bunların əksəriyyəti ölkənin xalq təsərrüfatı planına daxil edilərək,

tikintisi həyata keçirilmişdir ki, bu da respublikamızda ucuz elektrik enerjisi istehsalının artmasına və suvarılan sahələrdə kənd təsərrüfatının inkişafına böyük təsir göstərmişdir.

Fikrət Adıgözəlov su təsərrüfatının aktual problemlərinə dair apardığı elmi-tədqiqat işlərinə yekunlaşdıraraq 1976-cı ildə "Sudan səmərəli istifadə olunmasının və mühafizəsinin Naxçıvan MSSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinə təsiri"nə dair aktual bir mövzuda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

F.S.Adıgözəlovun tədqiqatları konkret nəzəri, metodoloji və praktiki əhəmiyyət kəsb edən problemlərin dərindən həllinə yönəldiyindən geniş aprobasiya olunmuşdur. O, Azərbaycan Dövlət Plan Komitəsinin ET İqtisadiyyat institutu tərəfindən işlənən "Azərbaycan SSR-də 1970-1990-cı illərdə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin əsas istiqamətləri" və "2000-ci ilə qədər dövr üçün Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxemi"nin əsas müəlliflərindən biri olmuşdur. Onun tərəfindən keçmiş ittifaqda ilk dəfə su ehtiyatlarının müxtəlif olduğu sahələrdə iqtisadı rayonlar üzrə su təsərrüfatı balansları tərtib edilmişdir ki, bu da regionların su təminatını daha düzgün əks etdirməklə su anbarları və digər böyük su təsərrüfatı obyektlərinin tikintisini iqtisadı cəhətdən əsaslandırılıb həyata keçirilməsinə imkan vermişdir. F.S.Adıgözəlov

tərəfindən su  təsərrüfatı balanslarının işlənməsi metodikası və tərtibi mərkəzi təşkilatlar tərəfindən yüksək qiymətləndirilmiş və onların əməli işində öz əksini tapmışdır.

Prof.Fikrət Adıgözəlov ilk dəfə olaraq suvarma və su kəməri sistemlərindən əkin suyunun, texniki və içməli suyun spesifik xüsusiyyətlərini nəzərə alaraq bu sulardan istifadənin səmərəliliyini əks etdirən göstəricilər sistemini işləyib hazırlamışdır. Bu göstəricilər öz növbəsində suvarma və su təchizatı sistemlərinin istismarı müəssisələrinin təsərrüfat fəaliyyətinin səmərəliliyini əks etdirməyə imkan verir.

Bazar iqtisadiyyatı şəraitində istehsal və xidmət sahələrinin yenidən təşkili və bu sahələrin səmərəliliyini müəyyən edən göstəricilərin yenidən işlənməsinin vacibliyini əsas məsələlərdən biri kimi qarşıya qoymuşdur. Sovet dövründən fərqli olaraq əkin suyunun pullu istifadə olunması hidrotexniki qurğu və şəbəkələrin tikintisinə investisiya yönəldilməsinin ümumi (mütləq) və müqayisəli iqtisadi səmərəliliyi müəyyən etmək üçün özünün metodikasını işləyib hazırlamışdır.

Sudan pullu istifadənin kənd təsərrüfatı müəssisələrinin iqtisadi durumuna mənfi təsir etməsinin qarşısını almaq, sudan səmərəli istifadə olunmasını təmin etmək üçün professor F.S.Adıgözəlov elmi cəhətdən

suya differensial qiymətlərin qoyulmasına dair özünün metodikasını işləyib hazırlamışdır.

Prof. Fikrət Adıgözəlov iqtisadi elminin digər sahələrinin problemlərinə aid də geniş tədqiqatlar aparmışdır. Respublikamızın torpaqlarından səmərəli istifadə olunması ilə əlaqədar onun apardığı tədqiqatlar, ayrı-ayrı iqtisadi rayonlar üzrə torpaq balanslarının işlənməsi, perspektiv dövr üçün torpaqların tranformasiyası, onların münbitliyindən asılı olaraq torpaqların iqtisadi qiymətləndirilməsi, həmçinin suvarılan torpaqlarda istehsalın intensivləşməsinə dair apardığı tədqiqatlar mühüm elmi-praktiki əhəmiyyətə malikdir. Alimin kənd təsərrüfatında maddi-texniki resurslar bazarının formalaşması və inkişafı, kənd təsərrüfatında texniki xidmətin formaları və onların səmərəli təşkilinə aid tədqiqatları mühüm elmi maraq doğurur.

Fikrət Adıgözəlov tikinti kompleksinin inkişafını təmin edən bir çox poblemlərin, o cümlədən tikintinin maliyyələşdirilməsi, onun maddi-texniki bazasının yüksəldilməsinin texniki resurslarla təmin olunmasının yaxşılaşdırılması problemləri və tikinti işlərinin təşkili və texnologiyasının təkmilləşdirilməsinin istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsindəki roluna və bir çox digər məsələlərin həllinə aid geniş tədqiqat işləri ilə məşğul olmuşdur.

Fikrət Adıgözəlovun respublikada pul-kredit sisteminin təşkili və inkişafına, həmçinin respublikaların və regionların iqtisadi inkişaf

səviyyəsinin müəyyən edilməsinə dair tədqiqatları elmi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

F.Adıgözəlov apardığı tədqiqat işlərini yekunlaşdıraraq 1990-cı ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün yeni elmi istiqamətdə yazdığı "Aqrar-sənaye istehsalında su resurslarından istifadənin effektivliyi" mövzusunda dissertasiya müdafiə etmişdir. SSRİ AAK-nın Ekspert şurası F.S.Adıgözəlovun doktorluq dissertasiyasını yüksək qiymətləndirmiş və ona iqtisad elmləri doktoru alimlik dərəcəsi verilmişdir. F.Adıgbzəlov, V.K.Papisov, E.Y.Uşakovdan sonra keçmiş ittifaqda sudan istifadənin iqtisadi problemləri sahəsində iqtisadi elmləri doktoru dərəcəsi alan üçüncü alim idi. Onun keçmiş ittifaqda bu sahədə fəaliyyət göstərən elm və tədris müəssisələrinin alim və mütəxəssisləri arasında böyük hörməti olmuşdur.

Professor F.S.Adıgözəlovun tədqiqatları 152 çap olunmuş əsərlərində, o cümlədən 5 monoqrafiyasında əks olunmuşdur. Alimin respublikadan kənarda da 10 əsəri çap olunmuşdur. O, dəfələrlə respublika, ittifaq və beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir.

F.S.Adıgözəlovun çap etdirdiyi monoqrafiyalara respublikamızın tanınmış alimləri tərəfindən "Azərbaycanın xalq təsərrüfatı", "Kənd həyatı" jurnallarında, "Kommunist", "Bakinski raboçi", "Azərbaycan" qəzetlərində və digər dövrü mətbuatda yüksək rəylər verilmişdir.

F.S.Adıgözəlov mütəmadi olaraq elmi-tədqiqat işlərini tədrislə əlaqələndirmişdir. O, nəzəri və metodiki cəhətdən elmi-tədqiqat işlərindən əldə etdiyi nəticələri Azərbaycan Memarlıq və İnşaat Universitetində tikintinin və onun sahələrinin iqtisadiyyatından dərs dediyi fənlərin mühazirələrində və bu fənlərin tədris proqramlarında əks olunmuşdur . O, təhsil sahəsində aparılan islahatlarda yaxından iştirak etmişdir. 1992-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetində bazar münasibətlərinin tələblərinə cavab verən idarəetmə strukturu və yeni ixtisasların açılması zərurətini vermişdir. Bu təkliflər hazırkı dövrə qədər kadr hazırlığında istifadə olunur.

Prof. F.S.Adıgözəlovun rəhbərliyi ilə 8 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Hazırda 7 nəfər aspirant və dissertanta rəhbərlik edir, 2 doktorluq işinin məsləhətçisidir. O, 50-yə qədər doktorluq və namizədlik işlərinə rəsmi opponentlik etmişdir.

Prof.F.S.Adıgözəlov 1995-1998-ci illərdə Respublika Təhsil Nazirliyinin Tikinti və Memarlıq sahəsində Metodik Şuranın, 1994-1997-ci illərdə Respublika Elm və Texnika Komitəsinin Tikinti və Memarlıq sahəsində Ekspert Şurasının üzvü olmuş, tikinti işlərinə aid bir sıra problemlərə öz münasibətini bildirmişdir.

Fikrət müəllim həmçinin respublikamızda dövlət qanunlarının işlənməsində də öz əməyini əsirgəməmişdir. O, 1994-2000-ci illərdə Milli Məclisin Aqrar siyasəti və Yerli özünü idarəetmə komissiyalarında

"Su məcəlləsi haqqında", "İrriqasiya və meliorasiya", "Bələdiyyə suları"na dair qəbul olunmuş qanunların hazırlanmasında yaxından iştirak etmişdir.

Professor F.S.Adıgözəlov respublikamızda makroiqtisadi və mikroiqtisadi sahədə tədqiq olunan problemlərin həlli yollarını ayırd etməyi bacaran alimlərdən biridir. O, tədqiqatçıların elmi işinə opponentlik etdiyi zaman onlara olan öz hörmətini bildirir, işlərində olan müsbət cəhətlərlə yanaşı, çatışmamazlıqları da prinsipial mövqedən dəqiq açıb göstərməyi bacarır.

Prof.F.Adıgözəlovu tanıyanlar gözləri önündə onu nəinki istedadlı bir alim, eyni zamanda səmimi, qayğıkeş, haqqı-ədaləti qoruyan, təzyiqlərə dözən, ali məqsədə nail olmaq üçün axıra qədər mübarizə aparan bir alimi canlandırırlar. Fikrət müəllimin dostları onu başqalarının əzabına sevinməyən, öz kədərini gizlədib başqasının SEVİNCini bölmək, kiçiklərə güzəşt etmək, böyüklərə isə ehtiram göstərmək, əldə etdiyi nailiyyətdən süni surətdə istifadə edərək özünə ad qazandırmağı şəxsiyyətinə sığışdırmayan, sözübütöv, təmiz, sadə bir insan kimi tanıyırlar. Onun keşməkeşli həyat yolunun bələdçiləri bu böyük alim haqda sadaladığımız müsbət keyfiyyətlərin heç də hamısı olmadığını yəqin edərlər.

Zəhmətdən zövq alan, yorulmaq bilməyən Fikrət müəllim eyni zamanda gözəl ailə başçısıdır. Həyat yoldaşı Molludan olan qohumu

Əsmayə tibbi işçisidir. Övladlarının təhsilinə, tərbiyəsinə böyük diqqət yetirmiş F.S.Adıgözəlov  beş övlad böyüdüb başa çatdırmışdır. Böyük qızı Əminə ingilis dili müəllimidir, ortancıl qızı Gülnarə hüquqşünas, kiçik qızı Elnarə mühəndis, böyük oğlu Samir iqtisadçı, kiçik oğlu Anar isə orta məktəbin 9-cu sinfində oxuyur.

İstedadlı alim, müəllim,  əqidəli vətəndaş, bütün bunlar Fikrət müəllimin həyatda qazandıqlarıdır. Hələ bu ömrün yaşayıb  yaradacaq günləri çoxdur. Təki Allah can sağlığı versin.

## ADIGÖZƏLOVA KLARA SALAM qızı

Adıgözəlovlar ailəsində dünyaya göz açan ilk övlad Klara xanım olub. Bu xanımın kim olması və Azərbaycan cəmiyyətində necə mövqe tutması barədə aşağıda danışacağam. Lakin ilk növbədə məni düşündürən odur ki, necə olmuşdur azərbaycanlı ailəsində Klara adı özünə yer tapmışdır. Bəlkə də səhv edirəm, mənə belə gəlir ki, Klara adı məhz Salam kişinin ailəsində azərbaycanlı qızına verilən ilk ad olub. İndi isə bu ada çox rast gəlinir. Lakin o dövrdə belə ada bəlkə də təsadüf olunmayıb. Bu da var ki, ailənin ilk övladına belə bir ad heç də təsadüfən verilməyib.

Böyük şəxsiyyətlərin adi insanlardan fərqi ondadır ki, onlar gələcəyi başqaları ilə müqayisədə daha yaxşı, dərindən görə bilirlər. Klara Setkin dünya miqyasında tanınmış mətin inqilabçı bir qadın olub. Elə ailənin başçısı Salam kişi də öz qızının Klara Setkin kimi igid bir qadın olmasını arzu edərək ona bu adı verib. Nə fərqi var, inqilabçı olma, başqa bir peşə sahibi ol. Ancaq cəmiyyət üçün faydaa verən bir insan ol.

Salam Adıgözəlovun arzusunu onun əziz övladı Klara xanım doğrultdu. O, elə bir peşəyə yiyələndi və elə bir səviyyəyə qalxdı ki, bu peşə ilə cəmiyyətə daha çox fayda verə bildi. Daha insan üçün can sağlağından əziz nə ola bilər? Klara xanım da bu amala xidmət edir, özü

də təqdir olunacaq səviyyədə. Atanızın etimadını doğrultduğunuz üçün Sizə çox sağ olun deyirik, Klara xanım!

Klara xanımın boya-başa çatdığı ailədə təsadüflər də olub, zərurətlər də. Lakin aqilliyi ilə daha çox fərqlənən Salam kişi həmişə cəmiyyət üçün daha faydalı olan işlər barədə düşünüb. Bu düşüncə tərzi onun övladlarına da irsən keçib.

Klara xanım həkimlik peşəsinə yiyələnməyə ona görə üstünlük verib ki, bu peşə ilə insanlara daha çox fayda vermək olar. Bu amalla o, özünə bu peşəni seçib və seçimində yanılmayıb.

Bilmirəm Klara xanım mənimlə razılaşar, ya yox. Mənə belə gəlir ki, bu müqəddəs peşəni bir də ona görə seçib ki, əziz anasını ölümün qara pəncəsindən xilas edə bilməyən həkimlərin intiqamını əzraildən ala bilsin. Hər halda bu seçimə bu amil də təsir etməmiş olmaz.

Klara xanım xoşbəxt insandır. Bu xoşbəxtliyin səbəbi təkcə neçə-neçə insanlara şəfa verib həyata qaytarması deyil, həm də ondadır ki, onun mərd bir ömür yoldaşı var, gözəl balaları, istəkli nəvələri var. Nəvələrinin toyunu görəsən, Klara xanım!

Klara xanım seçdiyi həkimlik peşəsinə yiyələnəndən sonra bir çoxları kimi şəhərdə özünə rahat iş axtarmayıb, ilk növbədə çörəyi və suyu ilə böyüyüb boya-başa çatdığı elinə-obasına xidmət etməyə üstünlük verdi və belə də etdi. Eli-obası da onun əməyinə yüksək qiymət verdi, hörmətini uca saxladı. Təkcə Qubadlıya yox, böyük bir bölgəyə -

Zəngilan, Laçın camaatına xidmət göstərdi. İndi bu bölgənin adamları onun adını, peşəsini hörmətlə dilə gətirirlər.

Klara xanım Qubadlı üçün çox ağır olan o illərdə, Qarabağ savaşı dövründə Xanlıqda yaralılara xidmət etdi, həmvətənləri ilə bir yerdə oldu.

Yağı düşmən o yerlərə yiyələnəndən sonra Bakıda ən məşhur səhiyyə ocaqlarında əhalimizə xidmət göstərir. Harada işləməsindən asılı olmayaraq orada yaxşı bir iz qoyub gedir. Hazırda o, "Azərsutikinti" adı ilə tanınan xəstəxanada öz sevimli peşəsi ilə insanların xidmətində dayanıb. Klara xanım 45 ildir ki, ailələrə xidmət göstərir, övlad həsrətilə yaşayan insanlara SEVİNC bəxş edir. Bundan yaxşı nə ola bilər.

Salam kişinin çörəyi, Əminə xanımın südü sənə halal olsun, Klara xanım!

## MƏFKURƏ SALAM qızı ADIGÖZƏLOVA (HÜSEYNOVA)

Adıgözəlovlar ocağının yetişdirdiyi övladlarından biri də Məfkurə xanımdır. Məfkurə xanım 1939-cu ildə Qubadlı rayonunda anadan olmuşdur. Adlı-sanlı insanlar olan Salam kişinin və onun həyat yoldaşı Əminə xanımın tərbiyəsindən çıxmış Məfkurə xanım hələ orta məktəbdə oxuyarkən ictimai-siyasi işlərə maraq göstərmiş, 1958-ci ildən 1962-ci ilə qədər olan dövrdə Qubadlı rayon komsomol komitəsinin birinci katibi olmuşdur. Hələ erkən onun təbiətində özünü biruzə verən bu fəallıq sonrakı dövrlərdə də onun yol yoldaşı olmuşdur. Məfkurə xanımın işgüzarlığı, yerinə yetirdiyi işlərdə tələbkarlığı onu respublika komsomol komitəsində məsul vəzifələrə gətirib çıxarmışdır. O, 1966-cı ildə təhsilini Azərbaycan Dövlət Universitetində başa vuraraq filoloq ixtisasına yiyələnmişdir. Fəallığına, çalışqanlığına görə tay-tuşlarından fərqlənən Məfkurə xanım Bakıda Ali Partiya məktəbinə daxil olub və oranı başa vuraraq, ikinci ali təhsil almışdır.

1971-ci ildən başlayaraq həyatını Azərbaycan Dövlət Tibb İnstitutuna bağlayıb, əvvəlcə Azərbaycan dili kafedrasında müəllim, sonra baş müəllim və nəhayət, dosent vəzifəsini tutmuşdur.

1984-cü ildə "Müasir Azərbaycan dilində xəbərlik kateqoriyası" mövzusunda dissertasiya işi müdafiə edərək, filologiya elmləri namizədi adını alıb. Hazırda "Azərbaycan dili" kafedrasında dosent vəzifəsində

işləməklə, Universitetin ictimai işlərindən iştriak edir. Həmkarlar komitəsində mədəni-kütləvi komissiyaya rəhbərlik edir. Onun respublika mətbuatında dilçiliyimizin müxtəlif sahələrinə dair 30-a yaxın məqaləsi və üç metodik işi nəşr olunmuşdur.

Məfkurə xanım ata ocağında görüb-götürdüyü müqəddəs bir işi öz ailəsində də davam etdirir. O, həyat yoldaşı Yaşar müəllimlə birlikdə üç övlad tərbiyə etmiş, onlara ali təhsil vermişdir.

# SOYKÖKÜMÜZ VƏ GƏLƏCƏYİMİZ

Mən yuxarıda Qubadlı və ana yurdum Mollu əhalisinin mənşəyi haqqında danışarkən qeyd etmişdim ki, bu bölgənin əhalisi İrandan gəlmələr olmuşdur. Onlar da bütün Azərbaycanın əhalisi kimi türksoylu əhalidən ibarət idilər. Belə bir proses III-VII əsrlərdə mövcud olmuş Sasanilər imperiyası, IX əsrdə ərəb xilafəti və sonralar Səfəvilər imperiyası dövründə də davam etmişdir.

Kitabın yazılmasında belə bir məsələyə toxunmağımı heə də əvvəlcədən nəzərdə tutmamışdım. İkinci bir tərəfdən mən soykökümüz və gələcəyimiz dedikdə yalnız öz nəslimiz barədə və onların gələcək davamçıları haqqında müəyyən məsələlərə toxunuram. Bunun səbəbi isə odur ki, qoy bizim nəslə mənsub olanlar bilsinlər ki, bizim ata və babalarımız kimlərdən ibarət olublar. Başqa sözlə, mən nəslimiz barədə gələcək övladları barədə hesabat vermək istəmişəm.

Bu bir həqiqətdir ki, Azərbaycanın bütün kəndlərində hər bir tayfanın öz adı olmuş və onlar bu adı uzun tarixi dövr ərzində öz üzərlərində yaşatmışlar. Bizim kənddə də belə bir ənənə demək olar ki, əsrlərlə yaşamış və bu gün də yaşamaqdadır. Məsələn, kəndimizdə Məşədi İsmayıllılar, Köçərilər, İbişlər, Məmmədlər, Korlar və s. kimi tayfa adları olmuş və indinin özündə də bu adlar yaşayır və heç şübhəsiz

ki, bu adlar gələcəkdə də yaşayacaqdır. Nə qədər inkişaf yeniləşsə də, insanlar bir-birini əvəz etsə də, heç kəs öz soykökünü dəyişə bilməz.

Əsrlərdən bəri el arasında belə bir atalar sözü yaşayır ki, "əslini danan haramzadadır". Və heç kəs bunu etməz. Kəndimizdə, el-obada mənim və ata-babalarımın mənsub olduğu tayfa həmişə "korlar" adə ilə tanınmışlar. Təəssüflər olsun ki, bunun nə ilə əlaqədar olduğu barədə məlumatım yoxdur.

Yuxarıda dediyim kimi, atam FƏTƏLİYEV BƏŞİR mən hələ 5-6 yaşım olanda dünyasını dəyişib. Atamın qardaşı olmayıb, yalnız Tamaşa adında bir bacısı olub. Tamaşa bibimin isə üç qızı, bir oğlu olub. Tamaşa bibimin qızı Şövkətin beş oğlu, bir qızı olub. Bibimin ikinci qızı Şölənin iki oğlu, üç qızı var. Tamaşa bibimin üçüncü qızı Nəzakətin iki oğlu, iki qızı olub. Tamaşa bibimin oğlu Əlinin isə iki oğlu, bir qızı olub. Bir yerdə götürsək Tamaşa bibimin 14 nəvəsi var. Onlardan doqquzu oğlan, beşi isə qız nəvəsidir.

Anamın Qaratel və Xonça adında iki əmisi qızı olub. Qaratelin iki oğlu və bir qızı olub. Oğlanlarının adı Aydın və Bulud olub. Atamın Xonça adlı əmisi qızının iki oğlu olub: Yelmar və Vahid. Xonça bibimin oğlu Yelmar haqqında bir qədər ətraflı danışmaq istəyirəm. Yelmar Məmmədov 1958-ci ildə anadan olub. Sonra Rusiyada əsgəri xidmətdə olub. Rusiyada ali təhsil alıb. Fəhləlikdən xeyriyyəçiliyə qədər bir yol keçib. Qarabağ savaşı başlananda Vətəni Azərbaycana gəlib. Xalqı və

xalqının ermənilərə qarşı apardığı ədalətli müharibə üçün əlindən gələni edib. Əlbəttə, onun Vətən, xalq üçün etdiklərinin sayı-hesabı ölçüyəgəlməzdir. "Xalq qəzeti"nin müxbiri kimi Qarabağ müharibəsinin qaynar nöqtələrində olmuş Ziyəddin Sultanovun "Burdan bir atlı keçdi" kitabında Yelmar Məmmədovun xeyriyyəçilik fəaliyyəti geniş öz əksini tapıb. Bunun üçün kitabın müəllifinə təşəkkürümüzü bildiririk. Yelmar Məmmədovun isə vaxtsız vəfatı el-oba üçün ağır itkidir. Ruhu şad olsun!

Atamın Camal adında əmisi olub. Camal kişinin Telli, Sənəm və Növrəstə adında üç qızı olub. Tellinin 4 oğlu, 3 qızı, Sənəmin 2 oğlu, 2 qızı, dünyasını dəyişmiş Növrəstə qızının isə bir oğlu qalıb.

Atamın əmisi oğlu Niftalının bir oğlu və bir qızı var: Fazil və Firuzə, Fazil və Firuzənin üz oğlu və altı qızı olub. Atamın xalası oğlu İsmayılın bir oğlu və iki qızı var: Nüsrət, Diləfruz və Hamayıl.

Atamın dayısı oğlu Tapdığın Təyyar və Elyar adında iki oğlu, Sahidə və Aida adında iki qızı olub. Abbas,Qaraş,Qaratel isə atamın yaxın qohumlarıdır. Qaraşın Yaqub, Həsən, Sahib,Mirəli,Bərxudar və Zülfü adında altı oğlu var. Abbasın Polad və Aynisə adlı bir qızı və bir oğlu olub. Atamın digər yaxın qohumu Qaratelin bir oğlu və iki qızı olub: Rəhman, Tubu, Səmər. Onlardan yalnız Tubu yaşayır. Atamın yaxın qohumlarından biri olan qulu kişi eldə-obada çox hörmətli adam olub və yüzbaşı işləyib. O, cəsarəti və mərdliyi ilə həmişə fərqlənib. Qulu kişinin Hüseyn, Cəlal, Əlif adında üç oğlu və Sənəm adlı bir qızı olub. Qulu

kişinin böyük oğlu Hüseynin üç oğlu və iki qızı olub: Tofiq, Rafiq, Ramiz, qızları: Müzəyyə və Əsmayə. Qulu kişinin ikinci oğlu Cəlalın isə altı qızı olub: Zenfira, Mahirə, Hökumə, Əzizə, Şükufə, Mədinə. Qulu kişinin üçüncü oğlu Əlifin isə iki oğlu və dörd qızı var: Samir, Rafael, Nazilə, Zöhrə, Sevil, Nuriyyə. Qulu kişinin yeganı qızı Sənəmin bir oğlu, üç qızı olub: oğlu Rəhman cavan yaşında vəfat edib. Qızları Suğra, Gülbuta, Gülüm adlanıblar. Sənəmin axırıncı qızı Gülüm əri və iki qızı ilə birlikdə Qarabağ müharibəsi zamanı itkin düşüblər.

Atamın yaxın qohumlarından biri olan Gilənin üç oğlu və üç qızı olub: Əhməd, Famil, Cəmil, qızları: Sədəf, Sərmayə, Səriyyə. Bunlardan Cəmil cavan ikən, Əhməd və Famil isə sonradan vəfat ediblər. Sərmayə isə mənim həyat yoldaşımdır.

Atamın yaxın qohumlarından biri Əndamın üç qızı, iki oğlu olub: Mərziyə, Hüsnü, Dilbər, oğlanları: İsa və Qurban. İsa 1941-ci ildə müharibəyə gedib və qayıtmayıb. İkinci oğlu Qurban vəfat edib və onun bir oğlu və iki qızı var.

Atamın digər yaxın qohumu Əbişin dörd oğlu və iki qızı olub: Yolçu, Salman, Alış, Həsənxan. Alış cavan ikən vəfat edib.

Atamın eldə-obada dörd bacı adlanan Nənəqız, Sandıq, Həyat və Gülüm adında qohumları olub. Həyat haqqında yuxarıda danışdığım digər qohumumuz Qaraşın ömür yoldaşı olub. Nənəqız cavan ikən vəfat edib, iki oğlu və bir qızı qalıb. Onun övladları Cavanşir, Əzizağa,

Şükufə və Zümrüd ailə və uşaq sahibləridir. Sandığın bir oğlu və üç qızı olub: Məhərrəm, Tamara, Qumru və Şəfiqə. Onlardan Məhərrəm, Tamara və Şəfiqə dünyalarını dəyişiblər. Dörd bacının sonuncusu olan Gülümün Əminə adında bir qızı olub. Gülüm və Əminə vəfat edib. Əminənin bir oğlu və bir qızı qalıb.

Atamın iki bacı adlı da yaxın qohumu olub: Şeyda və Qiymət. Şeydanın bir oğlu və bir qızı olub: Eldar və Ceyran. Eldar (Eldar Baxış) xalqımızın şerlərini sevə-sevə oxuduğu görkəmli şairlərindən biri olub. Qiymətin isə Sərraf adında bir oğlu olub. Sərraf filologiya elmləri namizədi olub. Çox talantlı bir filoloq idi. Təəssüf ki, dünyasını vaxtsız dəyişib.

Atamın Məhərrəm, Şahsuvar, Mürsəl adlı qohumları da olub. Məhərrəmin üç oğlu və beş qızı olub: oğlanlar: Şükür, Xəlil, Azad, qızları: Məleykə, Şövkət, Firəngiz, Əfruz və Tünzalə.

Şahsuvarın bir oğlu, altı qızı olub. Oğlunun adı Ələmdar, qızlarının adı isə Təyyarə, Rəna, Məlahət, Zübəndə, Şəmsiyyə və Familə olub. Şəmsiyyə vəfat edib, qalanları isə ailə və uşaq sahibidirlər.

Nəhayət, atamın digər bir qohumu Mürsəlin iki oğlu və bir qızı olub. Oğlanları Şahmərdan və İbrahim, qızının adı isə Bilqeyis olub.

Yuxarıda haqqında danışdıqlarımın hamısı ata tərəfdən mənim qohumlarımdır və dediyim kimi, atamın tayfası "korlar" adı ilə eldə-obada tanınıblar.

Ana tərəfdən də mənim çoxlu qohumlarım var ki, mən onları həmişə özümə əziz adamlar saymışam və bu gün də sayıram. Bunun bir səbəbi də yuxarıda qeyd etdiyim kimi anamın və ana qohumlarımın mənə olan böyük hörmət və məhəbbəti ilə bağlıdır. Anam mənə həm ata, həm də ana olub. Mən yalnız onun qayğısı və himayəsi sayəsində bu günə gəlib çıxmışam.

Anam ana tərəfdən eldə-obada "Xixelər", ata tərəfdən isə "Hüseynilər" kimi tanınıblar. Anamın ən yaxın qohumlarından biri İldırım kişi olub. Mən yuxarıda anam haqqında danışarkən bu insan, onun anamın üzərində zəhməti və əziyyəti barədə söhbət açmışam. Bəlkə də o ağır müharbə illərində anamın belə bir himayəçisi və arxası olmasaydı, Allah bilir anam hansı əzablara düçar olardı. Anam ölənə qədər bu insanı böyük məhəbbətlə xatırlayır, onu dönə-dönə dilinə gətirirdi. Mərd, əsl kişi xarakterinə malik olan bu insan eldə-obada da böyük hörmət və nüfuz sahibi olmuşdur.

İldırım kişinin üç oğlu və uç qızı olub. Oğlanları Əli, Vahid, Zakir, qızlarə isə Gülzar, Zərif və Suruş adlanırdı. Gülzar və Zərif dünyalarını dəyişiblər, Suruş isə ailə və uşaq sahibidir.

Anamın yaxın qohumlarından biri də xalası oğlu Qaraşdır. Qaraşın bir oğlu, iki qızı olub. Çox təəssüflər olsun ki, Qaraş kişinin yeganə oğlu Fazil 1993-cü il hadisələri zamanı itkin düşüb. Qızları Diliş, Rasta isə

ailə və uşaq sahibidirlər. Anamın digər xalası oğlu Talıbın iki oğlu və bir qızı olub:Asif, Şükür və Sitarə.

Anamın üç xalası qızı olub: Ağca, Balaxanım və Şüşə. Balaxanımn iki qızı, üç oğlu, Şüşənin isə iki oğlu, dörd qızı var.

Anamın Dursun adında bibisi olub. Onun Minə və Gilə adlı iki qızı var. Kiçik qızı Gilənin üç qızı, üç oğlu var.

Anamın əmisi Səməd kişinin iki oğul övladı olub: Saleh və Musa. Salehin üç oğlu, üç qızı var. Anamın əmisi qızı Güllünün Həmzə, İslah, Yusif adında üç oğlu olub. İslah cavan yaşlarında vəfat edib.

Anamın dayısı Əvəz kişinin dörd oğlu, üç qızı olub.

Sonra mənim ana tərəfdən bir neçə qohumum var. Ana tərəfdən yaxın qohumum Sayad xalanın üç oğlu və bir qızı olub: İlkin, Pənah, Sahib və Çiçək.

Zili, Xanhüseyn, Aysabah, Gülsabah, Xansənəm, Gülsənəm anamın qohumlarıdır. Gülsənəmin Muradxan, Süleyman, Aynişan, Feyruz, Sumaya və Milaya adlı övladları olub. Zili 1941-ci ildə müharibədə yaralanıb və vəfat edib. Xanhüseynin iki qızı və iki oğlu var.

Nəhayət, Qaçaq Nəbinin həyat yoldaşı Həcər xanım anamın yaxın qohumu olub. Anamın söylədiyinə görə Həcər xanım yaxşı at sürər və hədəfə yaxşı güllə atarmış. Anamın yaxın qohumlarından biri də Atakişi və onun övladları Ağamalı, Qəmsiyyə, Gülbahar və Mərziyyədir.

Bir neçə kəlmə qardaş və bacılarım haqqında . Mən bu barədə yuxarıda danışmışam. Burada isə bəzi məsələlərə aydınlıq gətirmək istəyirəm. Böyük bacım Diləfruzun Adilə, Fəridə, Yasəmən, Kifayət, Pərvanə adında beş qızı var. Adilənin Camal adında bir oğlu və Günay adında bir qızı var. Yasəmənin Bahadır adında bir oğlu və Minə adında bir qızı var.

Kifayət bacımın Əfsanə adında bir qızı, Ramil adında bir oğlu var. Pərvanə bacımın da bir oğlu və bir qızı var: İsmayıl və Pərvin. Həmayil bacımın iki oğlu və bir qızı var: Elçin, Vəfadar və Könül. Həmayilin dörd nəvəsi: Vəfa, Şəfa, Bəxtiyar, Elməddin.

## PAŞAYEVA FƏRİDƏ FAZİL qızı

Bacım qızı Fəridə haqqında ayrıca olaraq bir neçə söz demək istəyirəm. Paşayeva Fəridə Fazil qızı 1966-cı ildə Həmzəli kəndində anadan olub. Orta məktəbi qurtardıqdan sonra Bakı Maliyyə-kredit texnikumuna daxil olub. Texnikumu qurtardıqdan sonra mühasib ixtisasına yiyələnib. Əmək fəaliyyətinə Qubadlı rayonunda əmanət bankında başlayıb. 1999-cu ildən isə isə Yeni Azərbaycan Partiyasının Qubadlı rayon şöbəsində mühasib işləyir. O, hal-hazırda Gəncə Dövlət Pedaqoji Universitetində təhsilini davam etdirir. Fəridə xanım harada işləməsindən asılı olmayaraq kollektivin hörmətini qazanmışdır.

Qardaşım Nüsrətin üç oğlu və bir qızı var. Böyük oğlu Habilin iki qızı və bir oğlu var. Qızları Xurşud və Nərmin, oğlu isə Pərvin adlanır.

Nüsrətin ikinci oğlu Qüdrətin iki oğlu var: İsmayıl və Pərviz. Nüsrətin üçüncü oğlu İslamdır. Nüsrətin qızı Sevdanını isə bir qızı var: Gülnisə.

Atam və anam tərəfdən haqqında danışdıqlarım insanlar yaşından və cinsindən asılı olmayaraq mənim doğmalarımdır. Mən onların hər biri ilə fəxr edirəm. Cavanlar və həyata yeni qədəm qoymuşlar qoy mənim onlar qarşısında bu hesabatımı oxusunlar və bir-birinə arxa olsunlar.

## SON SÖZ

Mən, Qubadlı və onun əməksevər insanları haqqında xatirələrimi başa çatdırıram. Lakin bu kitab mənim ana vətənim, ata yurdum haqqında ilk kitabım olduğuna görə yəqin ki, hər şeyi əhatə edə bilmədim. Mən burada daha çox keçdiyim həyat yolu, ailəmiz, ata və ana tərəfdən yaxınlarımız barədə ətraflı danışdım. Əsas məqsədim isə ermənilərin başımıza gətirdikləri müsibətlər və onların doğma torpaqlarımız barədə yalan uydurmalarına cavab verməkdən ibarət olmuşdur. Getdikcə bütün dünyaya aydın olur ki, hazırda erməni tapdağında olan bütün ərazilər tarixin bütün dövrlərində türklərə-azərbaycanlılara məxsus olmuşdur. Bütün bunları tək biz yox, xaricdə də buraxılan cild-cild kitablar da təsdiq edir.

Mən bütün xalqımızla birlikdə əminəm ki, biz bu yerlərə yenidən qayıdacağıq və öz sərhədlərimizi bərpa edəcəyik. Kitabda oxucuları qane etməyən məsələlər barədə bu başdan üzr istəyirəm.

# POEZİYA

# DƏFTƏRİNDƏN

# NÜMUNƏLƏR

## QATİL ƏLİN QURUSUN

Bir qatil nahaqdan oğlumu qətlə
yetirdi.

Bir qatil əlləri sənə uzandı
Tamahı insafa üstün gələndi
Sanmadı hədəfi hələ cavandı,
Tamahı insafa üstün gələndi.

Sanmadı neçə göz baxır  arxanca
Sanmadı körpən var, atan-anan var.
Gözləri qızmışdı onun yamanca
Tamahı insafa üstün gələndə.

Xəbər - qara xəbər dözülməz oldu.
Varlığım sarsıldı, ürək dözmədi.
El-oba xəbərdən pərişan oldu.
Tamahı insafa üstün gələndə.

Elə bil biryolluq ocağım söndü.
Can verən sən oldun, ölən mən oldum.

Gələnlər soruşdu:-Bu nədən oldu?

Tamahı insafa üstün gələndə.

Yadımdan çıxmayır qamətin-boyun.

Hər dəqiqə varlığım hey inildəyir.

Kim idi çıxardı belə bir oyun

Tamahı insafa üstün gələndə.

Sənin faciənə ellər ağladı.

De, nədən yarandı bu qara xəbər?

Bu xəbər sinəmi yaman dağladı.

Tamahı insafa üstün gələndə.

Dərd ağır olanda dözmək olmayır,

Düzəldib qaməti gəzmək olmayır,

Yerini boş görrəm, dözmək olmayır.

Tamahı insafa üstün gələndə.

Cüt balan baxıb, özünü görrəm,

Gəzdiyin hər yerdə izini görrəm,

Məzarına baxıb gözümü görrəm

Tamahı insafa üstün gələndə.

Atan ƏŞİR günü-gündən əriyir,

Təsəllisi odur ki, məzarına dəyir.

Yaşamaq istəmir, ölmək istəyir.

Qatil, görüm sənin əlin qurusun.

## VƏTƏNİMDƏ ÖLƏYDİM

Baxıram dağlara, dağlar ağlayır,
Analar, bacılar qara bağlayır.
Ürək nisgillidir, el yas saxlayır.
Kaş Vətəndə öləydim mən.

Əzizlərim qalıb çox-çox uzaqda
Nisgil çəkən körpələri qucaqda
Xəstə canım dözmür buna yataqda
Kaş Vətəndə öləydim mən.

Millətimə zülüm oldu,
Ölüm oldu, itim oldu.
İçimizdə zalım oldu.
Kaş Vətəndə öləydim mən.

Ah, nə yaman zaman gəldi,
Aylar, illər yaman gəldi.
Ahlar göylərə yüksəldi.
Kaş Vətəndə öləydim mən.

Nisgil ürəyimi didib dağıdır,

Qarımış bu düşmən bizə yağıdır.

İndi Vətənimdə bahar çağıdır.

Kaş Vətəndə öləydim mən.

Vətən çox şirindir, düşməyir dildən,

Bülbül həsrət çəkir bağçada güldən

Mən vaxtsız ayrıldım obadan-eldən,

Kaş Vətəndə öləydim mən.

ƏŞİR, çox darıxma bir zaman gələr,

Bulanmış o sular yenə durular.

Əllərin Vətəni yenə qucaqlar

Kaş Vətəndə öləydim mən.

# HANI MƏNİM ƏZƏL DÜNYAM

Əzəlki dünyamı görmək istərəm,
Hanı mənim əzəl dünyam?
Görüb də o yerdə ölmək istərəm,
Hanı mənim əzəl dünyam?
Şer dünyam, qəzəl dünyam?

* * *

Vəfalıydı özüm kimi
Şirin idi sözüm kimi
Sevərdim gözlərim kimi
Hanı mənim əzəl dünyam?
Şer dünyam, qəzəl dünyam?

* * *

Aslanlar tülküyə tay tutulurlar
Ağalar nökərdən asılı olurlar
Güllər tikan olub baş qaldırırlar
Hanı mənim əzəl dünyam?
Şer dünyam, qəzəl dünyam?

* * *

Sözə kişi kimi əməl edərdik,

Dost yolunda ölümə də gedərdik

Öləndə də kişi kimi ölərdik

Hanı mənim əzəl dünyam?

Şer dünyam, qəzəl dünyam?

* * *

ƏŞİRəm, hazaram bax bu dünyadan

Hər şeydən bezaram bax bu dünyadan

Dərdimi yazaram bax bu dünyadan

Hanı mənim əzəl dünyam?

Şer dünyam, qəzəl dünyam?

## EV OĞRUSU

Adamlara hiylə qurur,

Asanlıqla zərbə vurur

Lazım gəlsə üzə durur

Dəhşətlidir ev oğrusu

* * *

Tülkü kimi hiyləgərdir,

İblis kimi cadugərdir,

Yalan ona düz qərardır

Dəhşətlidir ev oğrusu.

* * *

Düz işlərdən o dəm vurar,

Fırıldağı başdan qurar,

Ondan-bundan xəbər tutar,

Dəhşətlidir ev oğrusu.

* * *

Sözü şirin, özü acı

Adama baxar qıyqacı,

Sonra gülər acı-acı

Dəhşətlidir ev oğrusu.

* * *

Başın hər an uca tutar,

Asanlıqla pul qoparar

İmkan olsa ev də yarar

Dəhşətlidir ev oğrusu.

* * *

Aralığa nifaq salar,

Asanlıqla iş sahmanlar,

Öz işindən razı qalar

Dəhşətlidir ev oğrusu.

• * *

Gec tapmışıq "heyif" onu,

Hərdən geyər mələk donu

Çatar bir gün işin sonu

Dəhşətlidir ev oğrusu.

* * *

Gecə-gündüz çöldə yatar,

Mayasına haram qatar,

Üç qəpiyə adam satar,

Dəhşətlidir ev oğrusu.

* * *

Ona-buna qurar hiylə,

Dara düşsə çəkər zilə,

Andda tutmur görən niyə

Dəhşətlidir ev oğrusu.

* * *

Bir andaca iş yaradır,

Ona-buna nömrə atır,

Görəndə ki, tamah batır,

Dəhşətlidir ev oğrusu.

* * *

Qardaşı bacıdan edir.

Fırıldağı qırx gün gedir.

İş tutmasa haray edir.

Dəhşətlidir ev oğrusu.

* * *

Küpəgirən qarı belə.

Mat qalıbdır əməlinə

Salmaz özün dişə-dilə

Dəhşətlidir ev oğrusu.

* * *

Bilmirsən iblis, şeytandı.

Nifaq salmaqda bir candı.

Topladığı irin-qandı.

Dəhşətlidi ev oğrusu.

* * *

Heç kəs ondan şübhələnmir.

Nə etdiyin özü bilmir.

Etdimi siyahıdan silir

Dəhşətlidir ev oğrusu.

* * *

Axır bir gün tora düşər.

Əməlləri sona yetər.

Allah bizə kömək edər.

Dəhşətlidir ev oğrusu.

* * *

Çox ailəni dağıdıbdı.

Çoxun çöllərə salıbdı.

Birindin də beh alıbdı.

Dəhşətlidir ev oğrusu.

* * *

Əməlinə dözmür ürək,

Bütün iş-gücü olu kələk,

Görüm tutsun səni çörək.

Dəhşətlidir ev oğrusu.

* * *

Qəzəbə də rast gəlsə,

İnanırlar o nə desə,

Fərq qoymaz yaxşıya-pisə,

Dəhşətlidir ev oğrusu.

* * *

Oğurluqda itə bənzər,

Can yeməkdə bitə bənzər

İnsanlar nə qədər dözər

Dəhşətlidir ev oğrusu.

* * *

Sirri özünə pünhandır

Başqasına çox əyandır

Adı isə aldadandır

Dəhşətlidir ev oğrusu.

* * *

Fırıldağı saya gəlmir.

Nə düşünür heç kəs bilmir

Hamı bir ağızdan deyir:

Dəhşətlidir ev oğrusu

* * *

Çoxu inanırlar sənə

Pərəstiş edir kölgənə

Sənsə sürünə-sürünə

Dəhşətlisən ev oğrusu

* * *

Haram çörək yeyir ailən

Sənsə bunla fəxr edirsən

Əlli-ayaqlı gedərsən

İnşallah, sən, ev oğrusu

* * *

Fikrin,düşüncən yalandı

Ucbatından çoxları talandır

Başa düş ki, yaxşılıq qalandır

Peşman olarsan ev oğrusu.

* * *

Etibara təpik atma

Çörəyinə haram qatma

Beş qəpiyə adam satma

Ev oğrusu, ev oğrusu.

* * *

Cinayətin yoxdu sonu

Gəl aldatma onu-bunu

Geyinmə sən iblis donu

Ev oğrusu, ev oğrusu.

* * *

Zərbə vurma kürəklərə

Nifaq salma ürəklərə

Haram qatma diləklərə

Ev oğrusu, ev oğrusu.

* * *

İfritədir onun adı

Tanımır qohumu-yadı

Bilinməyir heç soyadı

Dəhşətlidir ev oğrusu.

* * *

Sən özünə quyu qazdın

Bilə-bilə yolun azdın

Əməlinə hökm yazdın

Ev oğrusu, ev oğrusu.

* * *

Əməlinlə evin yıxdın

Axırına özün çıxdın

Uçdu sənin tacın-taxtın

Ev oğrusu, ev oğrusu.

* * *

Saxta sənət əlindədir

Bol yalanlar dilindədir

Əyri bitən belindədir

Ev oğrusu, ev oğrusu.

* * *

Yalanların qatar-qatar

Tora düşən edər hazar

Beş qəpiyə adam satar

Ev oğrusu, ev oğrusu.

* * *

Şirin dildə bir dənəsən

İnanırlar yalan desən

Mələk donuna girmisən

Ev oğ rusu, ev oğrusu.

* * *

Kimi desən aldadırsan,

Sinəsinə od vurursan

Evsiz-eşiksiz qoyursan

Ev oğrusu, ev oğrusu.

* * *

Dost ƏŞİRi də aldatdın,

Ona da bir qədər atdın

Yamanca günaha batdın

Ev  oğrusu, ev oğrusu.

* * *

Dillənəndə can demişik,

Tonlarla çörək yemişik.

Əhdə peyman demişik

Yalançısan ev oğrusu.

# OĞUL DƏRDİ

**Qabilin qətlinə**

**Gəlib çatdı acı xəbər**

**Varlığımı aldı kədər**

**Bütün ömrümə bəs edər**

**Oğul dərdi, oğul dərdi.**

* * *

**Evimin səfi pozuldu,**

**Cüt balanın gözü doldu,**

Mənə hamıdan çox oldu

Oğul dərdi, oğul dərdi.

* * *

Qürbət öz qoynuna aldı

Düşmən səni tora saldı

Ahım göylərə ucaldı

Oğul dərdi, oğul dərdi.

* * *

Dizimin taqəti getdi,

Gözümün işığı itdi,

Pəhləvan bir oğul getdi

Oğul dərdi, oğul dərdi.

* * *

Cənazəsi ağır getdi,

Ana-bacı fəryad etdi,

Bununla şad günüm bitdi

Oğul dərdi, oğul dərdi.

* * *

Ayrılığa dözümüm yox,

Ömür qısa, dərd isə çox

ƏŞİR, dərdinə çarə yox

Oğul dərdi, oğul dərdi.

## ÜRƏKLƏ SÖHBƏT

Ürəklə mən yol gedirdiim

Dedi ki, mən dayanıram

Çəkə bilmirəm bu yükü

Bəsdir dedi: dayanıram.

* * *

Dedim: qoşa dolanmışıq

Bir alışıb, bir yanmışıq

Yuxudan bir oyanmışıq

Bəsdir dedi: dayanıram.

* * *

Dedim: niyə inciyirsən?

Dedi: məni yükləyibsən

Dedim: gəl ol mənə həmdəm

Bəsdir dedi: dayanıram.

* * *

Dedi: hər an ağlayıbsan

Hey məni sən dağlayıbsan

Dedim: bəlkə yaşayasan

Bəsdir dedi: dayanıram.

* * *

Dedim: bəlkə ac qalırsan

Dedi: yaman az qanırsan

Dedim: qulluq edim candan

Bəsdir dedi: dayanıram.

* * *

ƏŞİR səndən aman istər

Dedi: gəl yalvarma, yetər

Ürək inciyəndə bezər

Bəsdir dedi: dayanıram.

## BİLMƏYİRLƏR BİLMƏSİNLƏR

Dosta sədaqəti

Övlada hörmət, izzəti

Lakin qədri-qiyaməti

Bilinməyən bir kəs varsa

O mənəm.

* * *

İnsanlara hörməti,

məhəbbəti

Bilinməyən bir kəs varsa, O mənəm.

* * *

Çörəyinin duzuna,

ocağının gözünə

Qiymət qoyulmayan

bir kəs varsa,

O mənəm.

* * *

Yıxılanı qaldıran,

çox ocaqlar yandıran,

Lakin qədri bilinməyən

bir kəs varsa,

O mənəm.

* * *

Qoy mən edim bilinməsin,

Qoy hamı mənə pis desin,

ƏŞİR, sən et

izi qalsın,

Bilinməyir, bilinməsin.

## QIRXDIR SAQQALINI, ƏZİZ ÖVLADIM

**Şamil, qırx saqqalını.**

Əzəldən qaydadır ürək dərd çəkər,
Gözün öz işi var, o da yaş tökər,
Bənizi dəyişər qüssə, qəm, kədər
Saqqal nəyə gərək, ay əziz oğlum.

* * *

Oğlum, sən çəkəni biz də çəkirik.
Hər yada düşəndə qan-yaş tökürük.
Vaxt gəlib çatanda biz də köçürük
Saqqal nəyə gərək, ay əziz oğlum.

* * *

Fələk öz çərxini sürür hər yana,
Nə baxır qocaya, nə də cavana
Qoyur insanları hey yana-yana,
Saqqal nəyə gərək, ay əziz oğlum.

* * *

Qabilin qızları üzünə baxır,
Hər baxanda onlar yaman darıxır,
Bu hal onlar kimi məni də sıxır
Saqqal nəyə gərək, ay əziz oğlum.

* * *

Dost-düşmən içində vüqarlı gəz sən,

Ürək qəm yesə də, hərdən bir şənlən

Qoy ibrət alsınlar körpələr səndən

Saqqal nəyə gərək, ay əziz oğlum.

* * *

ƏŞİRəm, dünyanın hər üzün gördüm

Dərd-qəmdən özümə bir çələng hördüm

Ölümlü günümdə sizi şən görüm

Saqqal nəyə gərək, ay əziz oğlum.

* * *

Əvvəldən saqqalı sayıblar ayıb

Sabir də saqqalı cəhalət sayıb

Bütün bu sözləri nəzərə alıb

Qırxdır saqqalını əziz övladım

## ONA GÖRƏ YAŞAYIRSAN

(zarafat)

Arvad məni asıb kəsir
Qorxumdan ürəyim əsir
Olmuşam lap əsir-yesir
Deyir hələ yaşayırsan?

* * *

Can demişəm, çor almışam.
Dərdi sinəmə salmışam
Yaman günlərə qalmışam
Deyir hələ yaşayırsan?

* * *

Arvad deyil, cin-şeytandı
Ömrüm, günüm oda yandı
Nə eşitdi, nə də qandı
Deyir hələ yaşayırsan?

* * *

Deyir tayın çoxdan ölüb
Daşa-torpağa da dönüb
Ocaqları çoxdan sönüb
Sənsə hələ yaşayırsan.

* * *

Deyəndə ki, qurban olum

Deyir mənə etdin zülüm

İstərəm biryolluq ölüm

Deyir niyə yaşayırsan?

* * *

Bədbəxt varmın mənim qədər

Ömrüm-günüm gedib hədər

Qarğış yedim axşam-səhər

Deyir niyə yaşayırsan?

* * *

ƏŞİR, sən də tərs adamsan

Saqqal ələ verməmisən

Dediyindən dönməmisən

Ona görə yaşayırsan.

## YEYƏCƏYƏM BAŞINI

(zarafat)

Xırda gəlin, gəlinlərin başısan
Fəqət rəftarda yaman naşısan
Qaynananın başına sal daşı sən
Çalış, qaynananın ye sən başını.

* * *

Böyük gəlin soxdu iynə əmgəyinə,
O biri gəlin kəndir saldı xirtdəyinə
Orta gəlin balta vurdu ürəyinə
Çalış, qaynananın sən ye başını.

* * *

Gəlinlərdən öyrən bala
Belə işdə qalma dala
Fikrini ver qeylü-qala
Ye başını qaynananın.

* * *

Bitir onun işini sən
Tök ağzından dişini sən.
Bir yumruqla işin sən.
Ye başını qaynananın.

* * *

Aldanma sən onun şirin dilinə

Uyma fitnəsinə, uyma felinə

Pislikdən əyilmiş o qoz belinə

Çalış qaynananın ye sən başını.

* * *

ƏŞİR, çox danlama gəl sən gəlini

O da bilir qaynananın felini

Lazım gəlsə kəsəcəkdir dilini

Yeyəcək başını qaynanasının

## NANKOR QAYNATA

İsmətli gəlinin ağzına söymə
Allaha xoş getməz, xeyir tapmazsan
Gəlin də bir qızın sən onu döymə
Allaha xoş getməz, çörək tapmazsan.

* * *

Gəlini qız gözündə görsən sən əgər,
Ata tək sevməyə sənə meyl edər
Gecə-gündüz bil ki, sənə can deyər,
Allaha xoş gedər, çörək taparsan.

* * *

Pis rəftar zəhər qatar aşına,
Pis əməllər gələr sənin başına
Xəlvət düşsə bir daş salar başına
Allahdan qorx, çəkil otur yerində.

* * *

Gəlinin ağzına söyən qaynata,
Nə arzuya çatar, nə kama yetər
Yaxşı rəftar göstər desinlər ata
Yaxşı rəftar sənə hörmət gətirər.

* * *

Pis qaynata yaşamasın dünyada

Salmasın özünü heç zaman oda.

Övlada olmasa o yaxşı ata

Allaha xoş getməz ,o, çörək tapmaz.

* * *

ƏŞİRəm gəlinə mən qız demişəm,

Həmişə sözümün yerin bilmişəm.

Gəlinə can deyib, can eşitmişəm.

Sən də bu yolla get, nankor qaynata.

# ÜRƏK DOSTU

(Dostum Bəhram müəllimə)

Bir aqildən soruşdular:
Dost yaxşıdır, yoxsa qardaş?
Dedi: qardaşın qardaşdır
Yaxşı dosta de sən qardaş.

* * *

Dost həyatda müxtəlifdir
Çörək dostu, gərək dostu
Belə dostal naxələfdir
Əsil dostdur ürək dostu.

* * *

Süfrəndə nemətin bolsa
Ürək dostun çox sevinər
Darda qalsan naxələf dost
Kömək etməz, qoyub gedər.

* * *

Gərək dosta lazım gəlsən
Tapar səni harda olsan
Ona lazım deyilsənsə
Axtarmaz da darda qalsan

* * *

Bəhram mənim ürək dostum

İşlərimə gərək dostum

Qohum qardaşdan irəli

Ürək dsotum, ürək dostum.

* * *

Dostluqda gözümdə daim ucaldın

ƏŞİRin hər zaman qeydinə qaldın

Mən darda qalanda yadına saldın

Sən mənim ay ürək, ay ürək dostum.

## HACISAN

Bəhram müəllimin həyat yoldaşı
mənim bacım Zərifə xanıma
həsr edirəm.

Dostumun vəfalı yarı
Ey sevimli əziz qadın
Sən Bəhrama nə etmisən
Salıbdı dillərə adın.

* * *

Bu hörməti, bu izzəti
Zəhmətinlə qazanmısan
Damla-damla, gilə-gilə
Hörmətinlə qazanmısan

* * *

Hər kişiyə qismət olmur
Sənin kimi gözəl qadın
Bəhram müəllim nər kişidi
Dillərə düşübdü adın.

* * *

Düşüb dillərə hörmətin
Görür hamı ləyaqətin
Dostum üçün sədaqətin

Düşüb dilə mənim bacım

* * *

Sən həyatda külüng çalıb

Fərhad kimi ad almısan

Bu pilləyə, bu zirvəyə

Zəhmətinlə ucalmısan.

* * *

Bu ərköyün qardaşıma

Mənim ürək sirdaşıma

Sən arvad yox, dost olmusan.

Onunla bir qocalmısan.

* * *

Çoxları çoxdan bilir ki,

ƏŞİRə doğma bacısan

Ziyarətə getməmişdən

Çox hörmətli bir hacısan.

# KİŞİ GƏRƏKDİR

Həyatdan vaxtsız getmiş

oğlum Qabilə

Ocağıma böyük bir dərd gəlibdir

Bu dərdə dözməyə ürək gərəkdir

Təbəssümü, gülüşləri silibdir

Bu dərdə dözməyə ürək gərəkdi

***

Şamil balam dərdə dözə bilməyir

Gözünü yollardan üzə bilməyir

Ah- nalə eyləyir, hey qardaş deyir

Bu dərdə dözməyə ürək gərəkdir

***

Onun kədəri də  bir dərd olubdu

Qabil balasının rəngi solubdu

Hamıdan irəli mənə olubdu

Ataya bu dərdə dözmək gərəkdir

***

İçərdən ürəyimə sel - sular axır

Gözlərim yollara baxır, hey baxır

Başımdan göylərə dumanlar qalxır

Bu dərdə dözməyə ürək gərəkdir

ƏŞİRəm ürəyimin şamı sönübdü

Ağlaya bilmirəm daşa dönübdü

Oğlumun bu dərdi  məni yenibdir

Bu dərdə dözməyə kişi gərəkdir

# CƏNAZƏMƏ KİM GİRƏCƏK

Ölsəm cənazəmə kimlər girəcək
Dörd öğlumdan biri yanımda yoxdu
Düşmənlərim bunu görüb güləcək
Ölsəm cənazəmə kimlər girəcək?

* * *

Əzrayil də susayıbdır qanıma
Xəncəl çəkib, ram edirbdir canıma
Balalarım gələ bilmir yanıma
Ölsəm cənazımı kimlər girəcək

* * *

Şamil balam balaların gözüdü
Hər bir işdə atasının özüdü
"Atamı sevirəm" onun sözüdü
Ölsəm cənazımı kimlər girəcək.

* * *

Kaş biləydim ayrılığı kim salıb
Bilməyirlər kim qırılıb, kim qalıb
Düşünürəm hərdən xəyala dalıb
Ölsəm cənazəmə  kimlər girəcək.

* * *

Tahirin yoludu, ağsaqqal yolu

Məzahirə deyirlər dəli-dolu

Qabil balam bax onların sağ qolu

Ölsəm cənazəmə kimlər girəcək.

* * *

ƏŞİRəm Vətəndə mən tək qalmışam

Körpə nəvələrə meyl salmışam.

Ürək nisgil çəkir, yaman dolmuşam.

Ölsəm cənazəmə kimlər girəcək.

## TEZ DANIŞ

Samir bala,can bala

Eşit bala, qan bala

Baban yaman darıxır

Tez danış,tez din ,bala.

* * *

Boy-buxunda bir dənə

Olubsan həmdəm mənə

Rəhim elə bizlərə

Tez daşın, tez din,bala.

* * *

Çox həssas, mehribansan

Sən istəkli bir cansan

Gözəllikdə də təksən

Tez danış, tez din, bala

* * *

Atanın fəxri bala

Enli kürək,nər bala

Gəl bizi məyus etmə

Tez danış, tez din, bala.

* * *

Qurban kəsərəm sənə

Əziyyət vermə mənə

Ürəyimə məlhəm ol

Tez danış, tez din, bala.

* * *

ƏŞİR baban qocalıb

Çox işdə geri qalıb

Sən gəl məni duy, bala

Tez danış, tez din, bala.

## TƏK BALAM

***Oğlum Şamilə həsr edirəm.***

Şamil balam, ürəyimin parçası

Məhəbbətdə,sədaqətdə tək balam

Orxandan alıram sənin iyini

Məhəbbətdə, sədaqətdə tək balam

● * *

Orxan gözlərimdə kiçik Şamildir,

O da sənin kimi çox şirin dildir

Düşüb bu ayrılıq bir neçə ildir

Məhəbbətdə, sədaqətdə tək balam.

* * *

Övlad var ki, atasını yad etmir

Aylarla, illərlə yanına getmir

Olsa-olsa el üzünə yad edir

Məhəbbətdə, sədaqətdə tək balam.

* * *

Bu dünya fanidir, bilirəm bunu

Ölümdür, itimdir axırda sonu

Təəssüf ki, hər övlad bilməyir onu

Məhəbbətdə, sədaqətdə tək oğlum.

* * *

Aylar, illər bir-bir gəlib gedəcək.

Atan da dünyadan köç eyləyəcək.

Son nəfəsdə sənə əhsən deyəcək.

Məhəbbətdə, sədaqətdə tək oğlum.

* * *

ƏŞİRəm övlada mən çox bağlıyam.

Qabil unudulmur, sinəsi dağlıyam

Yaş da gəlmir, mən doyunca ağlayam

Məhəbbətdə, sədaqətdə tək oğlum.

## İBADƏTGAHIM

***Qabilin məzarı önündə***

Məzarın önündə dayanmışam lal,

Danışa bilmirəm, dinə bilmirəm

Məni qucaqlayıb qara bir xəyal

Danışa bilmirəm, dinə bilmirəm.

* * *

Xəyal uzaqlara aparır məni

Sənin körpəliyin yadıma düşür

Əksini görəndə məzar daşında

Dilim söz tutmayır, varlığım üşür.

* * *

Bircə yol baş qaldır, möcüzə yarat

Bircə an da olsa ruhumu et şad

Yanan ürəyimə bir damla su at

Mənim ürək balam, ay Qabil balam.

* * *

İnana bilmirəm bu yoxluğa mən

Elə bil qəlbimdə günəş tutulub

İnana bilmirəm şirin həyatdan

Mənim ürək parçam Qabil yox olub.

* * *

Məzardan səs gəlir deyir: ay ata,

Göz yaşı tökməyin nə mənası var.

Bir də bu yerlərdə məni axtarma

Qayıt cüt balamın qəlbində axtar.

* * *

ƏŞİRəm, dərd çəkir məni bu yerə

Atayam yüksəlib göylərə ahım

Hər gün gələcəyəm mən bu yerlərə

Çünki bu məzardı ibadətgahım.

## PİS İŞLƏRDƏ SINAMASIN BİZLƏRİ

Dünya fani, insan qonaqdı

Dünya yaranandan ölüm də haqdı

Cavan ikən aparanda nahaqdı

Pis işlərdə sınamasın bizləri.

* * *

Yaxşı işlər tutmaq gərək dünyada

Yaxşı iş görənlər yanmazlar oda

Naqis işlər hörmət gətirməz ada

Pis işlərdə sınamasın bizləri.

* * *

Vaxtsız ölüm heç qapını döyməsin

Xudam görüm quluna da qıymasın

Yaxşı işlə insanları sınasın

Pis işlərdə sınamasın bizləri.

* * *

Dost olmağa yaxşı kişi gərəkdir,

Mənim dostum Bəhram kimi nəhəngdir

Sınaqdan keçibdi dostluqda təkdi

Pis işlərdə sınamasın bizləri.

* * *

Mən ƏŞİRəm yaxşı işlər görmüşəm

Tikanlı sözlərdən uzaq gəzmişəm.

Yaxşılıq etmişəm, hörmət görmüşəm.

Pis işlərdə sınamasın bizləri.

# AY ÖVLADLARIM

Soruşdular övladların hardadır
Dilim söz tutmadı, dinə bilmədim
Şimalı göstərib dedim ordadaır
Qayıtmaq vaxtıdır, ay övladlarım.

* * *

Mənə qarşı gündə yüz sual doğur
Sizsiz məni kədərli xiffət boğur
Hər gün ürəyimdə yüz şübhə doğur
Qayıtmaq vaxtıdır, ay övladlarım.

* * *

Burda sizin arxa, köməyiniz var.
Bəs qərib diyarda kimləriniz var
Orda tapılandan burda da olar
Qayıtmaq vaxtıdır, ay övladlarım.

* * *

Bir yolluq tərk edin qərib uzağı
Hər kəsin evində yansın çırağı
Bir də təzələyək köhnə növrağı
Qayıtmaq vaxtıdır, ay övladlarım.

* * *

Qayıtmaq haqqında çıxarın qərar

Qoyun özlərinə qalsın o diyar

O böyük Allah da olar sizə yar

Qayıtmaq vaxtıdır, ay övladlarım.

* * *

ƏŞİRəm sizlərsiz mənim nə günüm

Sizdən ilham alım, hey deyim-gülüm

Hər dərdi-kədəri ürəkdən silim

Qayıtmaq vaxtıdır, ay övladlarım.

# UZAQ OLDU

Bu dünyanın dərd-qəmini

Ürəyinə yük eyləmə

Nə qismətdir o olacaq

Əlavə bir şey diləmə.

* * *

Kişilikdən dəm vuranlar

Kişi kimi yaşamadı

İnsanlıqla bir araya

Sığmadı namərdin adı.

* * *

Halal çörək baş ucaldır

Çalış buna əməl elə

Haramlıqla dolananın

Gəzər adı dildən-dilə

* * *

Məsləhəti aqildən al

El-obanın qeydinə qal

Pis adamdan uzaq dolan

Qıl körpünü yadına sal.

* * *

ƏŞİR yoxsul da dolandı

Heç kimə də əl açmadı

Yaxşı işlə məşğul oldu

Pis əməldən uzaq oldu.

## QIZ NƏVƏLƏRİM

Mənim bu dünyada beş qız nəvəm var

Familə, Aygün, bir Səbinəm var

Yaddan heç çıxmayan lalə, Gülüm var.

Şirindi-şəkərdi qız nəvələrim.

* * *

Nəvədi dünyada birinci dövlət

Nəvədi ailədə ən şirin nemət

Nəvəsi olmayan hey çəkər həsrət

Şirindi-şəkərdi qız nəvələrim.

* * *

Güləndə dünyanı mənə verirlər

Bəzən dodaq büzüb naz eyləyirlər

Dildən düşməyirəm baba deyirlər

Şirindi-şəkərdi qız nəvələrim.

* * *

Saxlasın onları böyük Yaradan

Qoy uzaq eyləsin dərddən-bəladan

Görüm kam alsınlar bax bu dünyadan

Şirindi-şəkərdi qız nəvələrim.

* * *

Özüm Qubadlıyam ƏŞİRdi adım

Nəvənin dilindən düşməyir adım

Onlardı dünyada mənim muradım

Şirindi-şəkərdi qız nəvələrim.

# QAYNATA

Atamın yanına el adətiylə,
Elçiliyə gəldiz bizə qaynata.
Qohum xahişiylə, dost minnətiylə,
Mən gəlin köçmüşdüm Sizə qaynata.

Arvad olub, mən sevmişəm oğlunu,
Gözləmişəm qaynanamın yolunu,
Qayın, baldız, nəslinizin dölünü,
Ucaltmışam, birdə yüzə qaynata.

Ağır otur, ağsaqqal ol elinə,
Xeyir danış, şər gətirmə dilinə,
Qəbahətdi, söymə qiza-gəlinə,
Adam güdmə, düşmə izə qaynata.

Hələ açıqdısa kamal dəftərin,
Gəlin də qızındi düşünsən dərin,
İtirərsən kişiliyin dəyərin,
Qoşulandan qiybət sözə qaynata.

Ciyəri bəladan qoruyar ödü,

Kölə üçün haq yaradıb söyüdü,

Əşir verən nəsihəti, öyüdü,

Döndərərsən heçə, toza qaynata.

# MÜNDƏRİCAT

*Müəllifdən* ........................................................................... *4*

*Döğma yurdum Qubadlı* ........................................................... *6*
*Qibadlının el adətləri,mərasim və inam yerləri* ......................................... *16*
*Cəbrayıl yüzbaşı* ........................................................... *27*
*Acılı, şirinli ailə həyatım* ........................................................... *28*
*Fətəliyev Tahir Əşir oğlu* ........................................................... *34*
*Fətəliyev Şamil Əşir oğlu* ........................................................... *35*
*Fətəliyev Məzahir Əşir oğlu* ........................................................... *36*
*Fətəliyev Qabil Əşir oğlu* ........................................................... *37*
*Fətəliyeva Sevinc Əşir qızı* ........................................................... *38*
*Qarabağ müharibəsinin Qubadlı qəhrəmanları* ........................................... *39*
*Əlyar Yusif oğlu Əliyev* ........................................................... *40*
*Aslan Qabil oğlu Atakişiyev* ........................................................... *42*
*Vasili Əhməd oğlu Əliyev* ........................................................... *43*
*Ələkbər Həsən oğlu Əliyev* ........................................................... *44*
*Səfa Fətulla oğlu Axundov* ........................................................... *45*
*Bəylər Tapdiq oğlu Ağayev* ........................................................... *46*
*Kazimağa Mövsüm oğlu Kərimov* ........................................................... *47*
*Aqil Səməd oğlu Məmmədov* ........................................................... *48*
*Kərəm Ərşad oğlu Mirzəyev* ........................................................... *49*
*İsa İskəndər oğlu Məmmədov* ........................................................... *50*
*İtkin düşənlər və döyüşlərdə həlak olanlar* ........................................... *51*
*Ürək dostu* ........................................................... *55*
*Vaxtsız ölüm* ........................................................... *59*
*Ata yurdum, ana vətənim aşağı Mollu haqqinda bir neçə söz* ......................... *63*
*Vahid Ağayev* ........................................................... *67*
*Qubadlının adlı-sanlı adamları və ziyaliları* ........................................... *68*
*Abdullayev Əskər Ələkbər oğlu* ........................................................... *70*
*Həsən Şiralı oğlu Sadıqov* ........................................................... *72*
*İsaxov Məhəmməd İsmayıl oğlu* ........................................................... *74*
*Elmira Məmməd qızı Rəhimova (İsaxova)* ........................................... *76*
*Bahadır Aslan oğlu Həziyev* ........................................................... *78*
*Sərxan Babaş oğlu Quliyev* ........................................................... *80*
*Əməkdar müəllim Əlif İsmayılov* ........................................................... *82*
*Məhərrəmov Mirzə Mehdi oğlu* ........................................................... *83*
*Partiya işçisi və ilk zabit İsmayılov Hüseyn Qulu oğlu* ................................ *85*
*İsmayılov Teyyub Allahverdi oğlu* ........................................................... *87*
*Kəndimizin ilk həkimi İsmayılov Tofiq Hüseyn oğlu* ................................ *88*
*Hümbətəliyev Umud Fərman oğlu* ........................................................... *89*
*Hümbətəliyev Rövşən Zülfüqar oğlu* ........................................................... *90*
*İsmayılov Rafiq Hüseyn oğlu* ........................................................... *91*
*Sadiqov Şami Fərzəli oğlu* ........................................................... *92*
*Qafarov İnşallah İxtiyar oğlu* ........................................................... *93*
*Cəbrayılova Arzu Qəhrəman qızı* ........................................................... *94*
*Quliyev Loğman Babaş oğlu* ........................................................... *96*
*Bir ocağın övladları* ........................................................... *98*
*Adıgözəlov Salam Zeynalxan oğlu* ........................................................... *99*

*Adıgözəlova Əminə Talıb qızı* ………………………………………………. *100*
*Adıgözəlov Fikrət Salam oğlu* ………………………………………………. *101*
*Adıgözəlova Klara Salam qızı* ………………………………………………. *109*
*Məfkurə Salam qızı Adıgözəlova (Hüseynova)* ………………………….... *112*
*Soykökümüz və gələcəyimiz* ……………………………………………….... *114*
*Paşayeva Fəridə Fazil qızı* ……………………………………………………… *121*
*Son söz* ……………………………………………………………………………. *122*

***POEZİYA DƏFTƏRİNDƏN NÜMUNƏLƏR***

*Qatil əlin qurusun* ……………………………………………………………… *125*
*Vətənimdə öləydim* ………………………………………………………….. *128*
*Hanı mənim əzəl dünyam* ……………………………………………………… *130*
*Ev oğrusu* ……………………………………………………………………… *132*
*Oğul dərdi* ……………………………………………………………………… *141*
*Ürəklə söhbət* ……………………………………………………………….... *143*
*Bilməyirlər bilməsinlər* ………………………………………………………… *145*
*Qırxdır saqqalını, əziz övladım* …………………………………………… *147*
*Ona görə yaşayırsan* ………………………………………………………….. *149*
*Yeyəcəyəm başını* ……………………………………………………………… *151*
*Nankor qaynata* ………………………………………………………………… *153*
*Ürək dostu* ………………………………………………………………………… *155*
*Hacısan* …………………………………………………………………………… *157*
*Kişi gərəkdir* …………………………………………………………………… *159*
*Cənazəmə kim girəcək* ……………………………………………………… *161*
*Tez danış* ……………………………………………………………………….. *163*
*Tək balam* ………………………………………………………………………… *165*
*İbadətgahım* …………………………………………………………………… *167*
*Pis işlərdə sınamasın bizləri* ……………………………………………… *196*
*Ay övladlarım* ………………………………………………………………….. *171*
*Uzaq oldu* ……………………………………………………………………….. *173*
*Qiz nəvələrim* ………………………………………………………………….. *175*
*Qaynata* ………………………………………………………………………… *177*